Экструдированные образцы твердых растворов $Bi_{0,5}Sb_{1,5}Te_3$, получены в следующей технологической последовательности: синтез состава из исходных компонентов; механические размельчение сплава в фарфоровой ступке и отбирание фракции с размерами частиц ≤ 0,5 мм; изготовление из него методом холодного прессования при ~300К и давлении ~3,5 т/см^2 брикетов диаметром ~30 мм для следующего этапа процесса экструзии; экструзия мелкодисперсных заготовок.

Синтез проводился прямым сплавлением компонентов. Исходные вещества в стехиометрическом соотношении помещались в кварцевую ампулу, предварительно протравленную в растворе хромпика ($K_2Cr_2O_7$ +H_2SO_4) и промытую дистиллированной водой. Синтез проводили в вакууммированных до ~10^{-2} Па кварцевых ампулах при ~ 900 К в течение 6 часов. В процессе синтеза ампулу с веществом постоянно подвергали качанию. Ампулу с синтезированным веществом резко охлаждали до комнатной температуры, опуская в воду. В процессе экструзии технологические параметры экструзии выбирали такими, чтобы формирование экструдированных брусков проходило в условиях сверхпластичности без макро- и микронарушений. Прочность на изгиб полученных экструдированных образцов в ~3 раза превышает прочность монокристаллических образцов этого состава.

Монокристаллы были получены методом Бриджмена, а экструдированные образцы были изготовлены из порошков синтезированного материала с размерами зерен 1; 30; 50 мкм. Для получения экструдированного материала термоэлектрический материал предварительно измельчался до размеров меньше 50 мкм и дальнейшее измельчение полученного порошка проводилось в планетарной шаровой мельнице марки АГО-2У. Полученные порошки прессовали методом одноосного прессования под давлением 4 Т/см^2, экструзия полученных брикетов проводилась под давлением 8 Т/см^2 при температуре ~ 660 К со скоростью 4 мм/мин, гидравлическом прессе марки МС-1000 с диаметра ~30 мм на диаметр ~6 мм с применением специальной оснастки.

При экструзии за счет пластический деформации часть зерен поликристалла ориентируется так, что их тригональная ось становится параллельной оси экструзии, т.е. образуются текстура. Одновременно, в результате пластической деформации возникают различные дефекты кристаллической решетки отдельно взятых зерен, которые уменьшает подвижность носителей заряда. Происходит также и увеличение концентрации носителей заряда за счет образования электрически активных центров на дефектах. Структурные изменения, вызванные деформацией, приводят к резкому изменению структурно-чувствительных механических и физических свойств. При термообработке текструрированных образцов $Bi_{0,5}Sb_{1,5}Te_3$ в них совершается рекристаллизация, т.е изменение характера текстуры

Наиболее сильное уменьшение степени текстуры при отжиге происходит в образцах с наименьшими размерами зерен. С ростом размеров частиц влияние отжига на степень текстуры ослабляется. Можно предполагать, что при минимальных размерах зерен в образцах из-за малой энергии, требуемой для ориентации зерен, появляется максимальная текстура в структуре при деформации. Из-за высокой дисперсности среди исследованных образцов, образцы с минимальными размерами зерен обладают и высокой концентрацией носителей тока. Дефекты, созданные

границами зерен, являются центрами рассеяния для носителей тока и уменьшают их подвижность. Поэтому уменьшение размеров частиц приводит к уменьшению подвижности за счет рассеяния электронов на границах частиц. В связис этим степень текстуры при экструзии, рекристаллизация и разориентация частиц при термообработке, а также концентрация носителей тока, электрические и тепловые параметры экструдированных образцов твердых растворов зависят от размеров частиц в образце.

На рисунке представлены температурные зависимости решеточной части теплопроводности χ_p для монокристаллического образца и экструдированных образцов твердого раствора $Bi_{0,5}Sb_{1,5}Te_3$ с различными размерами зерен.

Из рисунка видно, что теплопроводность исследованных образцов зависит от размеров зерен исходного порошка, использованного для изготовления исследованных образцов. Так, с уменьшением размеров зерна значения коэффициента теплопроводности χ_p уменьшаются. Значения коэффициента теплопроводности мелкозернистых экструдированных образцов во всем исследованном интервале температур оказывается ~ 2 раза ниже значений коэффициента теплопроводности для монокристаллов того же твердого раствора.

Теплопроводность есть сумма теплопроводности электронов χ_e и теплопроводности фононов χ_p [1]: $\chi = \chi_e + \chi_p$



Решеточную теплопроводность можно уменьшить за счет рассеяния фононов на точечных дефектах и на границах зерен. На точечных дефектах сильнее рассеиваются коротковолновые фононы, а на границах зерен длинноволновые. В поликристаллических образцах межзеренные границы и приповерхностные слои зерен всегда содержат большое количество дефектов [2], которые деформируют решетку и эффективно рассеивают фононы, повышая тепловое сопротивление образцов. В полупроводниковых твердых растворах наибольший вклад в теплопроводность дают длинноволновые фононы, т.к. коротковолновые фононы сильно рассеиваются на имеющихся в большом количестве точечных дефектах.

Межзеренные границы, в общем случае, двояким образом влияют на электронные свойства материала. Во-первых, потенциальные барьеры, создаваемые межзеренными границами, существенно уменьшают подвижность носителей заряда, что приводит к увеличению эффективного удельного сопротивления полупроводника. Во-вторых, межзеренные границы - это оборванные связи, которые могут являться ловушками носителей и притягивать к себе примеси или собственные дефекты.

Рис. Температурный зависимость теплопроводности для монокристалла и экструдированных образцов твердого раствора $Bi_{0,5}Sb_{1,5}Te_3$ с различными размерами зерен.

Результаты вычислений показали, для всех исследованных образцов в интервале температур ~77-300К доля электронной составляющей коэффициента теплопроводности χ_e не превышает ~22 % от общей теплопроводности, и в исследованных твердых растворах тепло переносится, в основном,колебаниями решетки. Поэтому можно считать, что снижение общей теплопроводности связано, в основном, с уменьшением решеточной теплопроводности. При этом, чем меньше размеры кристаллитов (зерен), тем больше вероятность рассеяния фононов на дефектах и на границах, и тем меньше значение теплопроводности

Таким образом, можно предполагать, что за счет снижения размеров зерен можно заметно уменьшить решеточную теплопроводность.

Литература

1. Смирнов И.А., Тамарченко В.И. // Электронная теплопроводность в металлах и полупроводниках. Л., Наука, 1977. С 151 .
2. Булат Д..П., Драбкин И..А., Каратаев В.В., Освенский В.Б., Пшенай-Северин Д.А. // ФТТ, 2010. Т. 53. С. 1712

Abstract

The thermal properties of extruded samples of the $Bi_{0.5}Sb_{1.5}Te_3$ solid solution with different grain sizes in the samples in the temperature range ~77-300K have been studied. It was found that with a decrease in the grain size, the values of the thermal conductivity coefficient χ_p decrease. The values of the thermal conductivity coefficient of fine-grained extruded samples in the entire studied temperature range turn out to be ~ 2 times lower than the values of the thermal conductivity coefficient for single crystals of the same solid solution.

$Tl_{1-x}Sb_xInTe_2$ MONOKRİSTALININ RENTGENOKEÇİRİCİLİYİNİN SPEKTRİNİN TƏCRÜBİ TƏDQİQİ

Mövsümova İ.M.
Gəncə Dövlət Universiteti.

Açar sözlər: dozometrik, spektral xarakteristika, termoelement, rentgenokeçiricilik,
Key words: dosometric, spectral characteristics, thermocouple, X-ray conductivity

$A^{III}B^{VI}$ və $A^{III}B^{III}C_2^{VI}$ monokristalların dozometrik, volt-amper və spektral xarakteriskalarının təcrübi tədqiqi göstərir ki, bu monokristallara işiqlanma və temperaturun təsiri, dalğa uzunluğunun effektiv uzunluğunun qiymətləri (0,1-1,47 $\overset{0}{A}$) intervalında rentgenokeçiriciliyin kinetikası dəyişir. Rentgen şüaları mənbəyi olaraq УРС–60 və РУМ –3 qurğularından istifadə olunmuşdur..

Nümunələr yarımkeçirici termoelement batareyası olan işığı udmayan termostatda yerləşdirilir və rentgenokeçiriciliyi ölçmək üçün istifadə edilir. Ölçmələr 258 – 343K temperatur intervalında aparılmışdır.

Temperaturlara mis – konstantan termocütü vasitəsi ilə nəzarət edilir. Termostat tutucu və nümunə ilə birlikdə uzunluğu 1,5 m olan rels üzərində mexaniki olaraq məsafədən idarə olunur və yerini dəyişə bilir. Müəyyən məsafələrdə boru foksundan uzaqlaşma məsafələri qeyd alınır. Məsafəyə nəzarət qurğu xaricindəki qurğuşun mühafizə ekranında yerləşən əqrəb tərəfindən icra olunur. Bu qurğu yaxınlığında yerləşən nümunə üzərinə düşən şüaların təhlükəsizliyini təmin etməklə geniş intervalda şüaların intensivliyini dəyişməyə şərait yaradır. Termostatla aşağıdakı məsələlərlə baglı problemləri həll etmək olar:

1. Tələb olunan temperaturun və onun stabilləşməsinin alınmasına sürətlə nail olmaq;
2. Termostatdan necə qızdırıcı kimi istifadə edilərsə, eləcə də soyuducu kimi istifadə edilə bilər;
3. Elementdə şüalanmanın udulması olmadığından qurğunun dərəcələnməsi dəyişmir;
4. Termostatın soyuducu radiatoru sistemə birləşmiş boruda axan su ilə həyata keçirilir.

Termostatın müqayisədə böyük olmayan temperatur intervalında (~100k) təmin edilməsi qurğunun çatışmayan cəhəti hesab olunur.

Qamma qurğuda və РУМ–3 aparatında tədqiqatlar otaq temperaturunda aparılmışdır. Nümunədə şüalanma şərti РУМ –3 qurgusu ilə iş aparılarkən tələb olunan şərtlərə uyğundur (cədvəl 1-də verilir).

РУМ –3 qurğusu ilə tədqiqat apararkən mis filtrlərdən (süzgənclərdən) istifadə olunmaqla hemogenlik təmin edilir. Ölçmələr və dozaların ekspozisiya gücünə nəzarət “Кремний –1”, “ДРГЗ –02”, “ДРГЗ –03” dozometrləri ilə həyata keçirilmişdir.

Beləliklə ,böyük müqavimətli fotohəssas nümunələrin tədqiqindən alınmışdır ki, Bridjiment üsulu ilə alınan $Tl_{1-x}Sb_xInTe_2$ monokristalları müəyyən laylara malikdir. Hər bir lay bir – birinə yaxın məsafələrdə yerləşmişdir.

Tədqiq olunan nümunələrin qalınlığı 0,05–0,34 mm intervalında dəyişir. Nümunələrə verilən gərginlik $(2-20)^{kv}/_{m}$ - intervalında dəyişir.

Cədvəl 1.Yarımkeçirici monokristalların РУМ –3 tip rentgen qurğusu vasitəsilə şüalandırma şərtləri

Boruya verilən U gərginliyi (kV –la)	Mis filtrin qalınlığı (mm –lə)	Δ yarım zəiflədici 1-ci layın qalınlığı (mm-lə)	Δ yarım zəiflədici 2-ci layın qalınlığı (mm-lə)	Nono-xromatiklik $h=\frac{\Delta_2}{\Delta_1}$	Kvantların effektiv enerjisi E_{ef} keV-la
50	b/f	0,04	0,046	1,15	25
90	0,2	0,2	0,21	1,05	44
100	0,245	0,27	0,30	1,11	48
115	0,29	0,36	0,41	1,14	53
135	0,50	0,60	0,72	1,2	65
150	0,60	0,75	0,84	1,12	70
165	0,745	0,90	1,00	1,11	76
170	1,00	1,10	1,30	1,18	83
190	1,00	1,20	1,37	1,06	89
200	1,245	1,60	1,84	1,15	98
200	3,00	2,35	2,82	1,2	117
200	3,50	2,47	2,67	1,08	120
200	4,00	2,70	3,00	1,11	126

Şəkildə $Tl_{1-x}Sb_xInTe_2$ monokristalının rentgenokeçiriciliyinin spektrləri verilir.



Şəkil

Qalınlığı $d:\leq 4{,}3\cdot 10^{-5}$ **(1);** $4{,}1\cdot 10^{-3}$ **(2);** $2\cdot 10^{-2}$ **(3); 0,15 sm (4) olan** $Tl_{1-x}Sb_xInTe_2$ **monokristalının xüsusi rentgenokeçiriciliyinin (bütöv xətlə) və həssaslığının (sınıq xətlə) spektral asılılığı**

Beləliklə, böyük müqavimətli fotohəssas nümunələrin tədqiqindən alınmışdır ki, Bridjiment üsulu ilə alınan $Tl_{1-x}Sb_xInTe_2$ monokristalları müəyyən laylara malikdir. Hər bir lay bir – birinə yaxın məsafələrdə yerləşmişdir.

Ədəbiyyat

1. В.С.Вавилов. «Полупроводниковые переоброзаватели энергии изличения УФП 36» I, III 1965
2. Бонг – Бруевич В.Л., Калашников. «Физика полупроводников» М. Наука 1977. Ст.972
3. V.C.Rüstəmov., E.H.Mövsümov., F.R.Namazov. $TlInSe_2$ monokristalının rentgenokeçiriciliyi. Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsi. Xəbərlər məcmuəsi №-4(66), səh.271 – 274 Gəncə. 2016 –cı il
4. V.C.Rüstəmov., E.H.Mövsümov., İ.M.Mövsümova. $TlIn_{1-x}Ag_xSe_2$ monokristalı əsasında rentgen detektorlar. Beynəlxalq elmi konfrans. Müasir təbiət elmlərinin aktual problemləri. III hissə. Gəncə. 4–5 may 2017 – ci il

$Tl_{1-x}Sb_xInTe_2$ MONOKRİSTALININ RENTGENOKEÇİRİCİLİYİNİN SPEKTRİNİN TƏCRÜBİ TƏDQİQİ.

Mövsünova İ.M.
Gəncə Dövlət Universiteti.

Xülasə

Məqalədə xüsusi qurğularla təmin edilmiş termostatdan istifadə edərək $Tl_{1-x}Sb_xInSe_2$ monokristalının xüsusi rentgenokeçiriciliyinin və fotohəssaslığının spektral paylanmasının qrafiki təsviri qurulmuşdur. Qrafiki təsvirdə bütöv xətlər xüsusi rentgenjkeçiriciliyin sınıq xətlə xüsusi həssaslığın spektral asılılığı göstərilmişdir.

ЭКСПЕРИМЕНТАЛЬНОЕ ИССЛЕДОВАНИЕ ХАРАКТЕРИСТИК МОНОКРИСТАЛИНА X-ДИАПАЗОНА СПЕКТР $Tl_{1-x}Sb_xInTe_2$

Мовсумова И.М.
Гянджинский Государственный Университет

Аннотация

Статья посвещаеться при помощью особый термостата определение спектральный зависимости уделной рентгенопроводимости и чувстви-тельности монокристаллов $Tl_{1-x}Sb_xInSe_2$ на рис.2. сплошные линии показывает рентгенопроводимости а пунктриванный линии особые чувствительности указанный монокристаллов $Tl_{1-x}Sb_xInSe_2$

EXPERIMENTAL STUDY OF MONOCRYSTALIN X-RANGE PERFORMANCE SPECTRİUM $Tl_{1-x}Sb_xInTe_2$

Movsumova İ.M.
Ganja State University

Summary

The article is dedicated to using a special thermostat to determine the spectral dependences of the relative x-ray conductivity and sensitivity of single crystals

$Tl_{1-x}Sb_xInSe_2$ in fig.2. The splined lines show the x-ray conduction and the dotted lines of the particular sensitivity specified single crystals $Tl_{1-x}Sb_xInSe_2$

POLİMER ƏSASLI KOMPOZİT MATERİALLARIN ALINMASINDA DOLDURUCULARA QOYULAN TƏLƏBATLAR

f.f.d. Həmzəyeva A.Y.
Gəncə Dövlət Universiteti
ayselhemzeyeva15@gmail.com

Açar sözləri: Polimer materiallar, doldurucular, polimer əsaslı kompozit materiallar.
Key words: Polymer materials, fillers, polymer-based composite materials

Polimer materialların fiziki, mexaniki və elektrik xassələrinin qarşılıqlı dəyişməsi onlardan elektrik izolyasiyasında, kabel sənayesində, kondensator sənayesində, həmçinin elektrik maşın və aparatların yaradılmasında müvəffəqiyyətlə istifadə etməyə imkan verir. Polimerlərdən elektroizolyasiya materialları kimi istifadə olunması üçün onların dielektrik xassələrinin quruluşlarından və istifadə olunduqları şəraitdən asılılıqları öyrənilməlidir. Hazırda belə bir ənənə formalaşmışdır ki, istehsal sahələrində əsas material kimi istifadə olunan polimer materialların xassələrinin müəyyən vasitə ilə idarə olunması istiqamətində intensiv tədqiqat işləri aparılsın. Buna polimerlərin fiziki-kimyəvi, fiziki və kimyəvi modifikasiyaları ilə nail olmağa cəhd edilir. Bunun üçün çalışılır ki, polimer bazis əlavə edilmiş modifikator arzuolunan xassəli yeni materialların əldə edilməsi üçün optimal qiymətlərini alsın.

Polimerlərə müxtəlif mənşəli əlavələr etməklə alınmış kompozitlərin elektrik möhkəmliklərinin tədqiqinə aid çoxlu tədqiqat işləri mövcuddur. Kompozit materiallar polimer, metal, karbon, keramika və ya digər əsaslardan (matrisadan), lifli telşəkilli kristallar, nazikdispers hissəciklər və s.-dən olan armirləşmiş doldurucular dan təşkil olunmuş çoxkomponentli materiallardır [1-3]. Öz növbəsində, kompozit materialın parametrləri onu təşkil edən komponentlərin parametrlərindən çox fərqli olur. Kompozit materialın hansısa xarakteristikasını yaxşılaşdıran doldurucu eyni zamanda onun digər xassələrini pisləşdirə bilər. Məsələn, karbonun çoxluğu rezinin möhkəmliyini artırmaqla yanaşı, həm də elastiklik modulunu (sərtliyini) artırır ki, sonuncu da çox hallarda arzuolunmazdır. Buna görə də, hər bir konkret hal üçün xarakterik olan konsentrasiya və disperqatorun səthi modifikasiya üsulları seçilərkən, doldurulmuş polimerlərin tərkibində doldurucunun (digər komponentlər kimi) iştirakını şərtləndirən effektləri tədricən balanslaşdırmaq vacibdir.

Adi materiallarda qeyri-bircinslilik atom ölçüləri tərtibində meydana çıxır və hadisələr kvant mexanikası təbiətli olur. Amma kompozit materialları bir neçə nizamlı, təsadüfi quruluşlu komponentin qarışığından alınır. Bu zaman qeyri-bircinsliliklərin miqyası daha geniş olur. Bunlarla yanaşı, adətən əlavələrin təsiri ilə kompozitlərin xassələrini idarə etmək olur. Adətən kompozit materialı alarkən çalışılır ki, iki müxtəlif maddənin qarışığından alınmış material daha yaxşı fiziki-mexaniki xassələrə malik olsun. Bu məqsədlə müxtəlif mənşəli əlavələrdən istifadə edilir.

Müxtəlif praktiki məsələləri həll etmək üçün adətən müxtəlif tip doldurucular dan istifadə edilir. Belə ki, məhz doldurucuların xassələrindən asılı olaraq arzu edilən parametrlərə malik kompozitlər almaq mümkündür. Məsələn, dispers doldurucular materiallara xüsusi elektrofiziki keyfiyyətlər verirlər. Doldurucu kimi his, qrafit, metal tozları, ağac lifləri istifadə edildiyi halda elektrokeçirici xassəli materiallar alınır, maqnit kompozitlərin alınmasında ferritlərdən, seqnetoelektrik kompozitlərin alınmasında barium titanat tozundan istifadə edilir. Bunlardan əlavə polimerlərin dispers hissəciklərindən də istifadə edilir. Doldurucu kimi metal

tozlarından istifadə edilməsi adətən materialın elektrikkeçiriciliyini yüksəltmək məqsədilə edilir.

Son illər kompozitlərin alınmasında ölçüləri bir neçə nanometrdən 100 nanometrə qədər olan hissəciklərdən istifadə edilməsi praktikası geniş yayılmışdır. Nanoölçülü doldurucu kimi adətən montmorillonit əsasında üzvi gil; karbon nanolifləri; karbon nanoboruları; silisium nanooksid; aluminium nanooksid; titan nanooksid; nanometallik hissəciklər istifadə edilir.

Doldurucu ilə polimer matrisası arasında yaranan keçid sərhəddi kompozit materialın xassələrinə kəskin təsir edir. Qeyd edək ki, kompozitlərin xassələri polimer matrisası və doldurucunun forma, ölçü və xarakterindən; onlar arasında əlaqə; matrisada doldurucunun paylanma xarakteri: polimer-doldurucu ayrılma sərhəddində qarşılıqlı təsirin təbiəti ilə müəyyən olunur.

Ədəbiyyat

1. Гасанлы Ш.М., Иманова А.Я., Самедова У.Ф. Тонкопленочные композитные резисторы на основе полипропилена и кремния // Электронная обработка материалов. №2(262), 2010. с.88-91.
2. Гашимов А.М., Гасанлы Ш.М., Иманова А.Я. Нелинейный резистор на основе композиции полярного полимера(ПВДФ) и кремния // Проблемы энергетики. №3-4, 2009. С.80-84.
3. Гелямов Б.Ш., Завъялов С.А., Купрямов Л.Ю., Особенности микроструктуры и сенсорные свойства нанонеоднородных композитных пленок // Ж.Ф.Х, 2004, Т.24. №3, с.450-460.

Xülasə

Məqalə polimer əsaslı kompozit materialların alınmasında istifadə olunan doldurucular, doldurucuların xassələrindən asılı olaraq arzu edilən parametrlərə malik kompozitlərin alınması və onlara qoyulan tələbatların aydınlaşdırılımasına həsr edilmişdir.

Summary

The article is devoted to the fillers used in the production of polymer-based composite materials, the acquisition of composites with the desired parameters depending on the properties of the fillers and the clarification of the requirements for them.

YÜKSƏK SIXLIQLI POLİETİLEN VƏ POLİPROPİLEN ƏSASLI $TlInSe_2$ YARIMKEÇİRİCİ ƏLAVƏLİ KOMPOZİTLƏRİN TERMOSTİMULLAŞDIRILMIŞ DEPOLYARLAŞMA CƏRƏYANLARININ SPEKTRLƏRİ

F.r.e.n., dos. Rustamov V.C.,T.e.n.,dos. NamazovY.B., Əliyeva N.A.
Gəncə Dövlət Universiteti

Açar sözlər: kompozitlər, yüksək sıxlıqlı polietilen, yüksək sıxlıqlı polipropilen, yarimkeçirici əlavəli kompozitlər, depolyarlaşma cərəyanı,inersiya piklərini.

Ключевые слова: композиты, полиэтилен высокой плотности, полипропилен высокой плотности, комрозиты с полупроводниковыми добавками, ток деполяризации, пики инерции.

Keywords: composites, high-density polyethylene, high-density polypropylene, semiconductor additives, depolarization current, inertia peaks.

Nümunə iki elektrod –(3) arasında qızdırılan-(2), xüsusi ölçü kamerasına-(1) yerləşdirilir. Qurğu şəkil 1-də təsvir olunub. Elektrodlar giriş müqaviməti yüksək və həssaslığı $10^{-13} \div 10^{-7} A$ olan G5-11 elektrometrik gücləndiricisinə-(7) bərkidilib. Gücləndiricinin çıxışına özüyazan cihaz birləşdirilib.

Qeyd edək ki, dəqiq ölçü aparmaq üçün elektrometrin giriş müqaviməti nümunənin müqavimətindən aşağı olmalıdır. Bu şərt ödənildikdə aparılan tədqiqat işinin nəticəsi dəqiq hesab oluna bilər.



Şəkil 1. Elektret-termik analiz aparmaq üçün qurğu (Termostimullaşdırılmış depolyarizasiya cərəyanlarının elektret-termik analiz üsulu ilə tədqiqi).

Ölçü kamerasının - (1) temperaturu termocüt - (4) ilə ölçülür. Termocütün e.h.q.-si özüyazan potensiometr - (6) vasitəsi ilə ölçülür. Nümunənin qızdırılması ciddi rejimdə üç latrdan ibarət sistemlə – (5) və 2.5K/san. sürətlə aparılır. TSD spektrləri ikikoordinatlı özüyazan-(6) x-y koordinatlarında cərəyanın temperaturdan asılılığını qeyd edən cihazla yazılır. 293÷453K temperatur intervalında TSD spektrləri temperaturun 5K/dər sürətlə xətti artması halında qeyd olunur.

Burada PP+3həcm.%$TlInSe_2$ və PP+5həcm.%$TlInSe_2$ kompozitlərinin termostimullaşdırılmış depolyarlaşma cərəyanının spektrləri tədqiq edilmişdir. Nəticələr Şəkil 2-də verilir. Şəkildən göründüyü kimi təmiz PP üçün (1) spektrdə 330K-də kəskin maksimum müşahidə edilir, 403K-də termostimullaşdırrılmış depolyarlaşma cərəyanının inversiyası baş verir. 428K-də kəskin minumum müşahidə edilir. Növbəti inversiya 443K-də müşahidə olunur. 3həcm%$TlInSe_2$ əlavəli PP kompozitinin (2) spektrində kəskin maksimum 340K-də müşahidə edilir. Bundan sonra depolyarlaşma cərəyanın azalması baş verir, 380K-də depolyarlaşma cərəyanın inversiyası müşahidə edilir. 413K-də kəskin minumum, 436K-də isə daha bir maksimum müşahidə olunur.

5həcm.%$TlInSe_2$ əlavəli PP kompozitinin spektrində (3) depolyarlaşma cərəyanının temperatur asılılığında təxminən 428K-də aydın ifadə olunan maksimum müşahidə olunur, bundan sonra depolyarlaşma cərəyanının azalması müşahidə edilir. Bu kompozit üçün də yüksək temperaturlarda depolyarlaşma cərəyanının kəskin azalması, 410K-də kəskin minimum müşahidə olunur. Həmin temperaturdan etibarən depolyarlaşma cərəyanının daha kəskin artması müşahidə edilir. Qeyd edək ki, təmiz PP-dən fərqli olaraq, kompozitlərdə depolyarlaşma cərəyanının təkrar inversiyası müşahidə olunmur.

Polipropilen əsaslı $TlInSe_2$ əlavəli kompozitlərinin termostimullaşdırılmış depolyarlaşma cərəyanının spektlərini araşdıraraq aşağıdakı nəticəyə gəlmək olar ki, qeyd olunan əlavələrin PP-nə daxil edilməsi yükdaşıyıcıların daha dərin tutma mərkəzlərini yaranmasına səbəb olur. Buda öz növbəsində maksimumların intensivliklərinin və sahələrinin dəyişmələrinə səbəb olur.



Şəkil 2. PP+xhəcm.% $TlInSe_2$ kompozitlərinin termostimullaşdırılmış depolyarlaşma cərəyanlarının spektrləri: burada 1-x=0; 2-x=3; 3-x=5.

Şəkil 3-də $TlInSe_2$ əlavəli, yüksəksıxlıqlı polietilen və polipropilen kom-pozitlərinin termostimulllaşdırılmış depolyarlaşma cərəyanlarının (TSD) spektri verilib. Şəkildən görünür ki, termostimulllaşdırılmış cərəyan spektrində 433K temperaturda YSPE+5həcm.% $TlInSe_2$-nin (şək.3(1)), 428K-də isə PP+ 5həcm. %$TlInSe_2$-nin bir maksimumu var (şəkil 3(2)). Çox güman ki, $t\delta(T)$ asılılığındakı yüksək temperatura uyğun maksimum və TSD cərəyan spektrindəki pik eyni təbiətə malikdir və onların əmələ gəlmə mexanizmi $TlInSe_2$ əlavəsində həcmi yüklərin yerdəyişməsi və onların kompozitlərin fazalararası sərhəddə toplanması ilə əlaqədardır. $t\delta(T)$ və TSD asılılıqlarındakı maksimumların fərqli yerləşməsi bu təcürbədə istifadə olunan nümunələrin müxtəlif qızma sürətləri ilə əlaqədardır. Onların TSD spektrinin analizi göstərir ki, xassələrin belə dəyişməsi, $TlInSe_2$ yarımkeçirici əlavəli polimerin fazalararası sərhəddində gedən polyarlaşma proseslərinin nəticəsidir.Böyük piklər fonunda inversiya piklərinin əmələ gəlməsi aşağıdakı kimi izah oluna bilər.



Şəkil 3. YSPE+5həcm.% $TlInSe_2$ (1) və PP+5həcm.% $TlInSe_2$ (2) kompozitlərinin termostimullaşdırılmış depolyarlaşma cərəyanlarının spektrləri.

Kompozitlərin tac boşalması prosesində elektretləmə zamanı həcmi yüklər əmələ gəlir və onların sahələri həcmi yüklərin sahələrinə əks istiqamətdə yönəlir. Bu halda depolyarlaşma zamanı TSD spektrlərində fazalararası polyarlaşma ilə əlaqədar inversiya cərəyanları meydana çıxır. Bu nəticə Maksvell-Vaqner effekti ilə yaxşı uzlaşır. Bu effektə görə qeyri- bircins materiallarda yüklərin toplanması (o cümlədən bizim tədqiq etdiyimiz kompozitlərdə) amorf və kristallik fazaların keçiriciliklərinin

fərqli olması ilə əlaqədardır. Belə material elektrikləndikdə yükdaşıyıcılar ya fazalararası sərhəd yaxınlığında toplana, yaxud da əksinə onlardakı cərəyanlardan hansının böyük olması ilə əlaqədar ondan uzaqlaşa bilər. Lokal keçiricilik cərəyanlarının fərqli olması TSD cərəyanlarının aradan çıxarılması zamanı yüklərin disipatiyasına səbəb olur və bu zaman cərəyanlar əks istiqamətlərdə axmağa başlayır.

Qeyd edək ki, müşahidə etdiyimiz kəskin maksimumlar $TlInSe_2$ hissəciklərinin səthində yüklərin relaksasiyası ilə əlaqədardır. Çünki, tərkibdə əlavələrin miqdarı artdıqca müşahidə olunan piklərin intensivliyi dəyişir. Qeyd edək ki, TSD cərəyanlarının inversiya effekti elektroaktiv dielektriklərdə və polimer kompozitlərdə də müşahidə edilib. Lakin bu hadisələrin izahı hazırki dövrə qədər də mübahisəlidir.

Inersiya piklərinin temperatur vəziyyətindən, səthin halından, polimer matrisanın təbiətindən və digər amillərdən asılı olaraq TSD əyrilərində müşahidə olunan əks işarəli cərəyanlar polimerdə mövcud olan dipolların istiqamətinin dəyişməsi ilə də əlaqədardır. Bizim qənaətimizə görə $TlInSe_2$ əlavəli kompozitlərdə müşahidə edilən maksimumlar PP-də baş verən α-relaksasiya ilə əlaqədar ola bilər. Müşahidə edilən inversiya çox güman ki, fazalararası polyarlaşmanın həcmi yükləri sahəsində yenidən polyarlaşma ilə əlaqədar əlavələrin keçiriciliyinin azalması ilə əlaqədar ola bilər. α-relaksasiya vəziyyətinə kompozitdəki əlavələrin miqdarı da təsir edə bilər.

Ədəbiyyat

1. Səfərova S.İ., Qocayev E.M. $TlIn_{1-x}Ln_xS_2$ tip kristalların sintez texnologiyası. AzTu-nun Elmi əsarları,fundamental elmlər. Bakı 2002,№2, səh 4-7
2. A.C.683406 (СССР). Фоточувствительный материал (Г.Д.Гусейнов, Г.Б.Абдуллаев, В.Д.Рустамов, М.З.Исмайлов, Э.М.Керимова и Г.А.Мурадова).1979.
3. ru.wikipedia.org/wiki/Карбид_кремния.
4. www.krugosvet.ru/enc/nauka_i_tehnika/himiya/KOMPOZITSIONNIE_MATERIALI.html

Аннотация

Изложены исследование токов термостимулированной деполяризации методом электрет-термического анализа, исследованы спектры термостимулированного деполяризационного тока композитов на основе полипропилена с полупроводниковыми добавками.

Abstract

The study of thermally stimulated depolarization currents by the method of electret-thermal analysis is outlined. The study of thermally stimulated depolarization currents by the method of electret-thermal analysis is outlined.

YÜKSƏK SIXLIQLI POLİETİLEN VƏ POLİPROPİLEN ƏSASLI $TlInSe_2$ ƏLAVƏLİ KOMPOZITLƏRIN SINTEZI

F.r.e.n., dos.Rustamov V.C., T.e.n.,dos.Namazov Y.B.,
F.r.e.n.,dos.Qasımov İ.İ., Əliyeva N.A.
Gəncə Dövlət Universiteti

Açar sözlər: kompozitlər, yüksək sıxlıqlı polietilen, yüksək sıxlıqlı polipropilen, yarimkeçirici əlavəli kompozitlər,elektretlər, termoelektretlər

Ключевые слова: композиты, полиэтилен высокой плотности, полипропилен высокой плотности, комрозиты с полупроводниковыми добавками,электреты,термоелектреты.

Keywords: composites, high-density polyethylene, high-density polypropylene, composites with semiconductor additives, electrodes, thermoelectrics



Şəkil 1. Həqiqi polyarlaşma ilə termoelektretlərin alınması sxemi.

Elektretlərin alınmasının müxtəlif üsulları var. Bu üssulların birində dielektrik müəyyən temperatura qədər qızdırılır, sonra isə elektrik sahəsində soyudulur. Bu halda dielektrikin əriməsi vacib deyil. Yəni dielektrikin müvafiq yüksək temperatura qədər qızdırılması kifayətdir. Həmin üsulla hazırlanmış elektretlər termoelektretlər adlanır.

Ikinci üsulda qızdırma əvəzinə dielektrikin işıqlandırılmasıdan istifadə edilir. Həmin üsulla alınmış elektretlər fotoelektretlər adlanır. Amma nəzərə alınmalıdır ki, bu üsülla yalnız fotokeçirici materiallardan elektretlər almaq mümkündür

Üçüncü üsulda elektrik sahəsi əhəmiyyətli rol oynayır. Bu üsulda nə qızdırma, nə də işıqlanma tətbiq edilmir. Həmin üsulla alınmış elektretlər elektro- elektretlər adlanır.

Hazırda, elektretlərin elektrik sahəsindən istifadə edilməməklə alınması da həyata keçirilə bilir. Bunun üçün dielektrik α, β, γ şüallanmalarının təsirinə məruz qalır. Həmin şüallanmaların təsiri ilə dielektrikin bir üzündə müsbət, o biri üzündə mənfi yüklərin artıqlığı yaranır.

Bizim tədqiq etdiyimiz kompozisiya materiallarından alınmış elektretlər termoelektretlər olduğundan onların alınma texnologiyasını şərh edək.(şəkil 1)

Elektretlər əsasən sabit dipol momentinə malik olan polyar dielektriklərdən alınır. Bunlara misal olaraq, qətranı, üzvi şüşəni və s. göstərmək olar. Sonuncudan müasir dövrdə daha çox istifadə olunur. Amma dielektrikdə sabit dipol momentinin mövcud olması şərti elektret alınması üçün kifayət deyil. Ən əsası odur ki, polimerdə mövcud olan dipol momentləri otaq temperaturunda böyük bucaq qədər meyl edə bilməsinlər, yalnız tarazlıq vəziyyətləri ətrafında kiçik rəqslər etsinlər. Yalnız bu halda dielektriklərin polyarlaşma halı

uzun müddət saxlanıla bilər. Əgər verilmiş polimer dielektriklərdə seqmentlər sabit dipol momentinə malikdirsə, onda belə dipolların xarici elektrik sahəsində nizamlanması yalnız $T>T_ş$ olduqda mümkündür. Burada $T_ş$ polimerin amof fazasının şüşələşmə temperaturudur.Sahədə $T<T_ş$-yə qədər soyutmadan sonra dipol momentləri nizamlanmış vəziyyətdə «donmuş» halda qalırlar. Bu zaman bütövlükdə nümunə polyarlaşır- elektret alınır. Əgər seqmentlərin dipol momentləri sıfır, yan qruplarda isə sıfırdan fərqlidirsə, bu zaman dielektrik relaksasiya keçidinə uyğun temperaturdan yüksək temperaturda saxlandıqda, yan qrupların boşalması baş verir. Bundan sonra dielektrik sahədə relaksasiya keçidinə uyğun temperaturda saxlanıldıqda yan qrupların mütəhərrikliyi yox olur. Sonrakı mərhələlərdə dielektrikin temperaturu keçid oblastının temperaturundan aşağı temperatura qədər soyudulduqda elektret alınır.

Dielektriklərdə xarici qızdırmanın təsiri ilə yükdaşıyıcılar -elektron-deşik, müsbət ion-mənfi ion cütü yaranır. Bundan sonra həmin dielektrik xarici elektrik sahəsinə daxil edilir və bu sahə əks adlı yükdaşıyıcıları müxtəlif istiqamətlərdə yönəlməyə məcbur edir. Onlar dielektriklərin sərhəddi yaxınlığında və qeyri bircinsli hissələrdə toplanır. Onların bir hissəsi materialın elektrik aktiv defektləri, tələləri tərəfindən zəbt ounur. Elektronlar və deşiklər üçün tələlər rolunu kristallik qəfəsin defekləri- aşqar atomları, vakansiyalar və s. oynaya bilər. Ion təbiətli yükdaşıyıcılar üçün tələ rolunu makromolekullar arasındakı boşluqlar oynayır.
Adətən tələyə düşən yükdaşıyıcılar xarici təsir və elektrik sahəsinin təsiri götürüldükdən sonra da həmin halda qalırlar. Bu halda nümunənin müxtəlif üzlərində müxtəlif işarəli həcmi yüklər toplanır, nümunənin daxili elektrik sahəsi mövcud olur. Bu sahə də xarici sahə tərəfindən ayrılmış əks adlı yükləri yenidən birləşdirməyə çalışır. Buna yükdaşıyıcıları özündə saxlayan tələlər maneçilik törədir. Həqiqi polyarlaşmada olduğu kimi elektretin bu halı da tarazlı deyil, bəzi yüklər təsadüfən, fluktuasiya nəticəsində keçiricilik zonasına keçmək üçün kifayət edən enerъi əldə edə bilirlər. Bunun nəticəsində sərbəstləşir və elektretin daxili sahəsində sərbəst hərəkət edirlər.

Nəticədə həcmi yük polyarlaşmasının relaksasiyası baş verir.Temperatur artdıqca, relaksasiya sürətlənir. Daxlində artıq yük olan elektretlər praktikada daha geniş tətbiq olunurlar. Buna nümunəyə kənardan müəyyən sayda yük əlavə etmək və ya nümunədən müəyyən sayda yük çıxarmaqla nail olmaq olar. Bunun nəticəsində nümunə daxilində kompensə olunmamış müsbət və ya mənfi yüklər mövcud olur. Dielektriklərin elektriklənməsi toxunma ilə, müxtəlif cür şüallandırmalarla, elektrik boşalmalarının təsiri ilə ola bilir. Dielektriklərin elektriklənməsi üçün ən geniş istifadə ounan üsul tac boşalması üsulu hesab olunur. Bu üsulla tac elektretlər alınır. Bundan əlavə elektrodlar nümunə yaxınlığındakı ucundan inъeksiya oluna bilər. Inъeksiya mexanizmiləri müxtəlif ola bilər. Amma nəticə eynidir. Dielektriklərin səth yaxınlığı təbəqəsində tələlərdə işarəsi elektrodda toplanmış yükülərin işarəsi ilə eyni olan həcmi yüklər əmələ gəlir. Texniki məqsədlər üçün adətən qalınlığı 10-25 mkm olan qeyri-polyar ftorpolimer təbəqəsindən istifadə edilir. Adətən onun bir üzü alüminium təbəqəsi ilə örtülür. Metallik təbəqə vakuumda çökdürmə yolu ilə əmələ gəlir və elektretlərdə elektrodlardan birinin rolunu oynayır. Adətən elektretin tac boşalması ilə elektriklənməsi onun sərbəst səthi üzrə baş verir. Metal çökdürülmüş səthdə isə ona əks işarəli yüklər induksiya olunur.

Ədəbiyyat

1. ru.wikipedia.org/wiki/Карбид_кремния.
2. www.krugosvet.ru/enc/nauka_i_tehnika/himiya/KOMPOZITSIONNIE_MATERIALI.html

$Cd_{1-x}Mn_xSe$ NAZİK TƏBƏQƏLƏRİNİN KRİSTAL QURULUŞU VƏ SƏTH MORFOLOGİYASI

Mehrabova M.Ə. [1]***, Kazımova A.İ.*** [2]***, Nəzərov A.M.*** [3]***, Həsənov N.H.*** [4]
[1]***AMEA Radiasiya Problemləri İnstitutu***
[2]***Gəncə Dövlət Universiteti***
[3]***AMEA Fizika İnstitutu***
[4]***Bakı Dövlət Universiteti***

Açar sözlər: Yarımmaqnit yarımkeçirici, bərk məhlul, nazik təbəqə, XRD, AQM, SEM,
Keywords: Semimagnetic semiconductor, solid solution, thin film, XRD, AFM, SEM

Son illərdə $A^{II}B^{VI}$ qrup birləşmələri və onların əsasında olan yarımmaqnit yarımkeçiricilər (YMYK) otaq temperaturunda işləyən günəş elementlərinin, radiasiya detektorlarının, optik izolyatorların və s. istehsalında uğurla tətbiq olunur. Bu qrupa daxil olan $Cd_{1-x}Mn_xSe$ nazik təbəqələri tətbiq perspektivləri geniş olan yeni və az tədqiq edilən YMYK sayılır.

Mükəmməl kristal quruluşa, tələb olunan elektrofiziki, fotoelektrik, optik xassələrə malik $Cd_{1-x}Mn_xSe$ YMYK-nin epitaksial təbəqələrinin böyüdülməsi, onlar əsasında fotohəssas strukturların, o cümlədən p-n keçidlərin alınması müasir elm və texnika üçün maraq kəsb edən aktual məsələlərdən biridir.

Bu işdə mükəmməl kristal quruluşa və güzgü hamar səthə malik epitaksial təbəqələrin alınması şərtləri müəyyən edilmişdir. $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin kristal quruluşu və səth morfologiyasının tədqiqinin nəticələri təqdim olunmuşdir. Bu bərk məhlullar müvafiq olaraq keçid elementi olan manqan (Mn) atomları ilə kadmium (Cd) atomlarının qismən əvəz edilməsi yolu ilə əmələ gəlir. Bu materiallarda qadağan olunmuş zonanın eni maqnit atomlarının konsentrasiyasından asılı olaraq dəyişir ki, bu da onların fiziki xassələrini idarə etməyə imkan verir.

$Cd_{1-x}Mn_xSe$, x=0.1 epitaksial təbəqələri 10^{-4} Pa vakuumda molekulyar dəstədən kondensasiyası yolu ilə şüşə altlıqlar üzlərində yetişdirilmişdir. Mənbə kimi sintez olunmuş $Cd_{1-x}Mn_xSe$ bərk məhlullarından (x=0.1) istifadə edilmişdir.Buxarlanma müddəti t = 10 dəq olmuşdur, mənbəyin temperaturu T_m = 1220 K, altlığın temperaturu T_a = 470 K və T_a = 675 K götürülmüşdür.

$Cd_{1-x}Mn_xSe$ (x=0.1) nazik təbəqələrinin kristal quruluşu rentgendifraktometrik üsulla BRUKER XRD D8 ADVANCE qurğusunda öyrənlimişdir. Müəyyən edilmişdir ki, atlığın temperaturunun T_a=470 K qiymətində şüşə altlıq üzərində alınmış $Cd_{1-x}Mn_xSe$ təbəqələri polikristal quruluşa malikdir (şək.1,a). T_a temperaturunun artması 570 K-dən yuxarı temperaturlarda epitaksial böyümə baş verir (şək.1,b). Beləliklə, altlığın temperaturunu artırdıqca təbəqələr polikristal quruluşdan monokristal quruluşa keçir. Müəyyən edilmişdir ki, şüşə altlıqlar üzərində altlığın temperaturunun T=675K qiymətində böyüdülmüş $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələri səthə mərkəzləşmiş kubun (111) müstəvisi üzrə yetişir.



a)



b)

Şək.1. Şüşə altlıq üzərində yetişdirilmiş $Cd_{1-x}Mn_xSe$ (x=0.1) nazik təbəqəsinin rentgendifraktometrik analizi a) T_a=470 K, b) T_a=675K

$Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin səthinin morfologiyası elektron mikroskopik üsullarla ACM Intecra Prima Atom Qüvvət Mikroskopunda (AQM) və Carl Zeiss Sigma VP Skan Elektron Mikroskoplarında (SEM) öyrənilmişdir. $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin səth morfologiyasının AQM tədqiqi (şək. 2) aparılmışdır, səthin 2D, 3D təsvirləri və səth elementlərinin ölçülərə görə paylanma əyriləri (histoqrammaları) verilmişdir. Şək.2-dən görünür ki, səth boyunca bərabər paylanmış defektlər müşahidə edilir, alınmış təbəqənin səth hündürlüyü müəyyən edilmişdir.



Şək.2. $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin səthinin 2D, 3D AQM şəkilləri və histoqram

$Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrində kristalliklərin ölçülərini və tərkib analizi aparılmışdır (şək.3).



Şək.3. $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin səthinin SEM görüntüsü.

$Cd_{1-x}Mn_xSe$ NAZİK TƏBƏQƏLƏRİNİN KRISTAL QURULUŞU VƏ SƏTH MORFOLOGİYASI

Xülasə

Bu işdə $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaksial təbəqələrinin kristal quruluşu və səth morfologiyasının tədqiqinin nəticələri təqdim olunmuşdur. Mükəmməl kristal quruluşa və hamar, təmiz səthə malik epitaksial təbəqələrin alınması şərtləri müəyyən edilmişdir. Epitaksial təbəqələr şüşə altlıqlar üzərində 10^{-4} Pa vakuumda molekulyar dəstədən kondensasiyası üsulu ilə yetişdirilmişdir. Mənbə qismində ilkin sintez olunmuş $Cd_{1-x}Mn_xSe$ (x=0.1) bərk məhlullarından istifadə edilmişdir.

КРИСТАЛЛИЧЕСКАЯ СТРУКТУРА И МОРФОЛОГИЯ ПОВЕРХНОСТИ ТОНКИХ ПЛЕНОК $Cd_{1-x}Mn_xSe$

Резюме

В настоящей работе представлены результаты исследования кристаллической структуры и морфологии поверхности эпитаксиальных пленок $Cd_{1-x}Mn_xSe$ (x=0.1). Определены условия получения эпитаксиальных пленок с совершенной кристаллической структурой и гладкой, чистой поверхностью. Эпитаксиальные пленки выращивались методом конденсации молекулярных пучков в вакууме 10^{-4} Па на подложках стекла. В качестве источника использовались заранее синтезированные твердые растворы $Cd_{1-x}Mn_xSe$ (x=0.1).

CRYSRAL STRUCTURE AND SURFACE MORPHOLOGY OF $Cd_{1-x}Mn_xSe$ THIN FILMS

Summary

This paper presents the results of a study of the crystal structure and surface morphology of $Cd_{1-x}Mn_xSe$ (x=0.1) epitaxial films. The conditions for obtaining epitaxial films with a perfect crystal structure and smooth, clean surface are determined. Epitaxial films were grown by molecular beam condensation method in a vacuum of 10^{-4} Pa on glass substrates. The preliminarily synthesized solid solutions $Cd_{1-x}Mn_xSe$ (x=0.1) were used as a source.

ОСОБЕННОСТЬ ПРОВОДИМОСТИ ТВЕРДЫХ РАСТВОРОВ $TlInS_{2x}Se_{2(1-x)}$ (x=0÷0,3) ПРИ ВЫСОКИХ ТЕМПЕРАТУРАХ

Алиева Н.А., Расулова А.А.
aysel270393@gmail.com
Институт Радиационных Проблем Национальной Академии Наук Азербайджана, пр. Б. Вахабзаде 9, AZ 1143

Ключевые слова: электропроводность, импедансной спектроскопии, твердых растворов

Key words: electrical conductivity, impedance spectrum, solid solution

Açar sözlər: elektrikkeçiriciliyi, *impedans spektri, bərk məhlul*

Методом импедансной спектроскопии измерены частотные зависимости (25-10^6 Гц) компонент полного комплексного импеданса и исследованы релаксационные процессы в зависимости от состава твердого раствора $TlInS_{2x}Se_{2(1-x)}$ в области растворимости (x=0÷0.3). С использованием метода эквивалентных схем замещения проанализированы полученные диаграммы на комплексной плоскости (Z'' − Z'). В исследованном твердом растворе $TlInS_{2x}Se_{2(1-x)}$ при 400 К обнаружена аномалия в

температурной зависимости электрической проводимости, выражающаяся в резком росте проводимости. Эта особенность связывается с фазовым переход в суперионное состояние.

Методы импеданс спектроскопии являются наиболее доступными методами исследования электрофизических процессов протекающих на контактах металлов с ионопроводящими материалами. Нами выполнены измерения действительной и мнимой частей импеданса образцов твердого раствора $TlInS_{2x}Se_{2(1-x)}$. Полученные данные представлены в виде годографа импеданса на комплексной плоскости, которые имеют форму дуги слегка искаженной формы.

Представленные зависимости имеют вид, соответствующий параллельной эквивалентной схеме замещения. Вычислены значения частот (f_{max}), соответствующих максимуму Z'', времена релаксации (τ), частоты, соответствующие началу частотной дисперсии (f_{jamp}), для образцов твердого раствора $TlInS_{2x}Se_{2(1-x)}$. Диаграммы, на комплексной плоскости (Z''–Z'), полученные из измерений при 400К и после радиационного воздействия, представляют собой полуокружности для одной параллельной RC-цепочки и лучи в низкочастотной области диаграмм. Такой вид годографов импеданса измеренных при 400 К и после радиационного воздействия, свидетельствует о присутствии дополнительных вкладов в проводимость, которая, по всей видимости связанна с диффузным переносом ионов таллия вблизи границы твердого электролита и электрода. Эти лучи на импедансной диаграмме по всей вероятности связаны с диффузным импедансом Варбурга, в основе которой лежит идея того, что в частотном диапазоне приложенного синусоидального сигнала диффузия носителей не достигает границы диффузного слоя. Ответственным за возникновение диффузного импеданса Варбурга, по всей видимости, является переход кристалла в суперионное состояние при 400 К и после радиационного воздействия.

Таким образом, импеданс Варбурга моделирует процесс, при котором подаваемое на электрохимическую ячейку синусоидальное напряжение при одной полярности приводит к диффузии мобильных ионов от электрода к диффузному слою, а при другой полярности, диффузии м

обильных ионов к электроду. При этом процесс не выходит за область диффузного слоя.

В этом случае, ответственным за возникновение диффузного импеданса Варбурга являются ионы Tl^{+1} диффундирующие в образцов твердого раствора $TlInS_{2x}Se_{2(1-x)}$ при 400 К и после радиационного воздействия. Переход в суперионное состояние, подтверждается измерениями температурной зависимости электрической проводимости. Таким образом, можно утверждать, что переходу в суперионное состояние способствует радиационное воздействие дозой в 0,25 MGy.

Как известно, радиационное воздействие на твердое тело приводит к созданию неравновесных дефектов. При прохождении γ–излучении (в нашем случае энергия гамма кванта ~1 МэВ) через вещество происходит ослабление интенсивности пучка. При этом генерируются электроны, которые приводят к созданию дефектов в кристаллической решетке. Вклад в полное сечение рассеяния в этой области энергий гамма-квантов, является некогерентное рассеяние на электронах вещества (эффект Комптона). Эффективное сечение комптоновского рассеяния, рассчитанное на один атом пропорционально атомному номеру $\sigma'_c = Z \cdot \sigma_c$. Поскольку в твердого раствора $TlInS_{2x}Se_{2(1-x)}$атомом с наибольшим Z является Tl, то и наиболее вероятным элементом испытывающим смещение будут атомы таллия.

Литература

5. Р.М. Сардарлы, О.А. Самедов, А.П. Абдуллаев, Э.К. Гусейнов, Ф.Т. Салманов, Г.Р. Сафарова. Особенности проводимости γ-облученных кристаллов $TlGaTe_2$ с наноцепочечной структурой. ФТП, **44**, 610 (2010).
6. Р.М. Сардарлы, О.А. Самедов, А.П. Абдуллаев, Ф.Т. Салманов, О.З.Алекперов, Э.К.Гусейнов, Н.А.Алиева. Суперионная проводимость, эффекты переключения и памяти в кристаллах $TlInSe_2$ и $TlInTe_2$. ФТП, **45**, 1441 (2011).
7. Р.М. Сардарлы, О.А. Самедов, А.П. Абдуллаев, Э.К. Гусейнов, Э.М. Годжаев, Ф.Т. Салманов. Суперионная проводимость в кристаллах $TlGaTe_2$ ФТП, **45**, 1009 (2011).
8. Р.М. Сардарлы, О.А. Самедов, Н.А. Алиева, Э.К. Гусейнов, И.С. Гасанов Поляризация, вызванная объемными зарядами и ионная проводимость в кристаллах $TlInSe_2$. ФТП, том.48, вып.4, стр.442-447 2014).

PECULIARITIES OF THE CONDUCTIVITY OF $TlInS_{2x}Se_{2(1-x)}$ (x=0÷0,3) SOLID SOLUTIONS AT HIGH TEMPERATURES

Aliyeva N.A., Rasulova A.A.
aysel270393@gmail.com
Institute of Radiation Problems of ANAS

Frequency dependences (25-10^6 Hz) of the components of the total complex impedance were measured by impedance spectroscopy and relaxation processes were studied depending on the composition of the $TlInS_{2x}Se_{2(1-x)}$ solid solution in the solubility region (x=0÷0.3). Using the method of equivalent equivalent circuits, the obtained diagrams on the complex plane ($Z'' - Z'$) are analyzed. In the investigated solid solution $TlInS_{2x}Se_{2(1-x)}$ at 400 K, an anomaly was found in the temperature dependence of the electrical conductivity, which manifests itself in a sharp increase in conductivity. This feature is associated with the phase transition to the superionic state.

YÜKSƏK TEMPERATURLARDA $TlInS_{2x}Se_{2(1-x)}$ (x=0÷0,3 BƏRK MƏHLULLARIN KEÇİRİCİLİYİ

Əliyeva N.Ə., Rəsulova A.Ə.
aysel270393@gmail.com
AMEA Radiasiya Problemləri İnstitutu

Ümumi kompleks empedansın komponentlərinin tezlik asılılıqları (25-10^6 Hz) empedans spektroskopiyası ilə ölçüldü və həllolma bölgəsində (x=0÷0,3) $TlInS_{2x}Se_{2(1-x)}$ bərk məhlulunun tərkibindən asılı olaraq relaksasiya prosesləri öyrənildi.). Ekvivalent ekvivalent sxemlər metodundan istifadə etməklə kompleks müstəvidə ($Z'' - Z'$) alınmış diaqramlar təhlil edilir. 400 K-də tədqiq edilmiş $TlInS_{2x}Se_{2(1-x)}$ bərk məhlulda elektrik keçiriciliyinin temperaturdan asılılığında anomaliya aşkar edilmişdir ki, bu da keçiriciliyin kəskin artması ilə özünü göstərir. Bu xüsusiyyət superion vəziyyətinə faza keçidi ilə əlaqələndirilir.

$TlGaS_2$, $TlInSe_2$ VƏ ONLARIN ƏSASINDA $(TlGaS_2)_{1-X}(TlInSe_2)_X$ BƏRK MƏHLUL MONOKRISTALLARINDA TERMOSTIMULLAŞMIŞ KEÇİRİCİLİK

Cəfərova S.Q. (cafarova9262@mail.ru)
Gəncə Dövlət Universiteti

Açar sözlər: termostimullaşmış keçiricilik, termostimullaşmış cərəyan, yapışma səviyyələri, aktivasiya enerjisi, fotocərəyanın optik sönməsi, fotocərəyanın termik sönməsi.

Keywords: thermally stimulated conductivity, thermally stimulated current, adhesion levels, activation energy, optical photocurrent damping, thermal photocurrent damping.

Müəyyən sabit gərginlikdə aşağı temperaturlarda, dərin səviyyələrdə daşıyıcıların termiki həyəcanlanma ehtimalı çox az olur [1, s.160-165]. Ona görə də TSC üsulundan istifadə etdikdə alınan nəticələrin dürüstlüyünə əmin olmaq üçün digər asılı olmayan üsullardan da istifadə olunur [2, 219, 284]. Əgər nümunədə bir neçə YM varsa, onda TSC spektrində bir neçə maksimum alınır. TSC-nın forması və temperatur şkalasının vəziyyəti ilə YM-nin parametrləri təyin edilir. Bu üsul nümunədə həm tez, həm də gec YM olduqda belə, mürəkkəb YM-lərini tədqiq etməyə imkan verir. TSC vasitəsi ilə YM-lərinin parametrlərini təyin etmək üçün YS-lərinin tipini bilmək lazımdır. Bunun üçün aşağıdakı kriteriyadan istifadə olunur.

$$\delta = \frac{T_2 - T_m}{T_2 - T_1} \le e^{-1}\left(1 + \frac{2kT_m}{E_t}\right) \qquad (1)$$

Burada T_1 - TSC-da cərəyanın artma istiqamətının yarımhündürlüyünə uyğun olan temperatur, T_2 - TSC-da cərəyanın azalma istiqamətının yarımhündürlüyünə uyğun olan temperatur, T_m- TSC-də alınmış pikə uyğun olan temperatur, E_t-tələlərin yerləşmə dərinliyi. Tez YM-ləri üçün

$$\delta = \frac{T_2 - T_m}{T_2 - T_1} \ge e^{-1}\left(1 + \frac{2kT_m}{E_t}\right) \qquad (2)$$

Energetik yapışma səviyyələrinin Byub metodu [3, s.562.] ilə təyin edilən dərinliyi $(TlGaS_2)_{1-x}(TlInSe_2)_x$ monokristallarında tərkibdən asılı olaraq 0,27÷0,30 eV təşkil edir. Fotocərəyanın temperatur asılılığı bu hadisənin keçirici zona ilə *α* mərkəzləri arasında rekombinasiya və termik mübadilə ilə əlaqədar olduğunu göstərir. Qızma nəticəsində tutulan sərbəst yükdaşıyıcılar azad olur və nəticədə tarazlıqda olmayan yükdaşıyıcıların konsentrasiyası artır. *t*– və *r*– mərkəzləri arasında optik yük boşalmalar alçaq temperaturlarda (T=80÷140K) fotohəssas mərkəzlərin boşalmasına,onlardan kəskin olaraq rekombinasiya etmələrinin effektivliyinin azalmasına səbəb olur. Nəticədə deşiklər başqa kanalla (*s*–) rekombinasiya edir, aşqar fotokeçiricilik itir və məxsusi fotokeçiricilik artır. Otaq temperaturundan yuxarı temperaturlarda (T≥300K) fotocərəyanın azalması *r*–mərkəzlərdən keçən rekombinasiya selinin azalması ilə izah oluna bilər. Məxsusi fotocərəyanın optik sönməsi (FOS) $(TlGaS_2)_{1-x}(TlInSe_2)_x$ monokristallarında maksimumu 1,1÷1,2 mkm spektral diapazonda olan zolaqdan ibarətdir (şəkil.1

). Temperaturun azalması zamanı FOS zolağının böyük enerjilər tərəfə sürüşməsi müşahidə olunur. Sönmənin artması τ_1 və τ_2 xarakteristik zamanlarla müşahidə olunan iki eksponentlə xarakterizə olunur. FOS–un əsas xüsusiyyəti, *r*–mərkəzlərin mürəkkəb energetik strukturundan asılıdır. Fotocərəyanın bərpa əyrisi yükdaşıyıcıların aşqar işığın rekombinasiya mərkəzindən valent zonaya keçmə müddətindən asılıdır.



Şəkil 1. $(TlGaS_2)_{1-x}(TlInSe_2)_x$ monokristallarında, otaq temperaturunda, fotocərəyanının optik sönmə spektrləri *x*=0,1 (1); *x*=0,01 (2)

TSK–nin analizi yapışma səviyyələrinin mürəkkəb spektrlərini asan üsullarla tədqiq etməyə, həmçinin tələlərin konsentrasiyasını və onların yükdaşıyıcıları tutma sahəsinin en kəsiklərini böyük dəqiqliklə təyin etməyə imkan verir. Məlumdur ki, TSK–əyrilərinin analizi zamanı rekombinasiya mexanizmini və yapışma səviyyələrinin tipini nəzərə almaq lazımdır. Rekombinasiya mexanizminin meyarı olaraq δ –ın qiymətini bilmək lazımdır. Bu

$$\delta = \frac{(T_m - T_1)}{(T_2 - T_1)} \tag{3}$$

düsturundan istifadə etməklə təyin edilir. Burada T_1 və T_2 TSK–in maksimumunun yarısına uyğun gələn temperaturlardır, T_m–isə TSK–nın maksimumuna uyğun temperaturdur. Məlumdur ki, başlanğıc hissədə TSK–in qiyməti

$$I \approx \exp\left(-\frac{E_t}{kT}\right) \tag{4}$$

ilə təyin olunur. Nəzəriyyəyə görə TSK vahid maksimumundan hər iki tərəfdə sıfra qədər azalmalıdır, lakin təcrübədə bu müşahidə olunmur. Əgər fərz etsək ki, TSK–yə elə düzəliş etmək olar onda cərəyan ayrılmasını baxılan səviyyə ilə əlaqələndirmək olur. Onda həqiqətən başlanğıc əyrini təyin etmək olar.

Bir qayda olaraq, $lnI \sim 1/T$ əyrisindən yapışma səviyyələrinin aktivasiya enerjisini təyin edirlər. Bundan asılı olmayaraq, sürətli yapışma səviyyələri üçün $\delta > k_0$ olur. Burada

zamanı xlorlu birləşmələr yaranır ki, onların da əlavə təmizlənməsinə ehtiyac var. Elektrokimyəvi təmizlənmə zamanı isə yüksək enerji sərfiyyatı lazımdır [2]. Təmizlənmə metodlarında istifadə olunan oksidləşdiricilərin qiymətlərinə əsasən deyə bilərik ki, H_2O_2 ilə təmizlənmə ən ucuz metod hesab olunur. Tullantı suları mürəkkəb tərkibə malikdir.

Məişət tullantı sularının təmizlənməsi üçün kombinə olunmuş radiasiya metodlarından istifadə olunur. γ-şüalarının təsiri altında tullantı sularının təsiri altında bioloji təsiri altında qoxunun, rəngin itməsinə, çirkləndirici maddələrin qatılığının azalmasına səbəb olur. Bunun üçün 0,4-0,5 kQr doza tələb olunur [3,4].

Radiasiya-kimyəvi və onunla kombinə edilmiş üsulun digər üsullardan fərqi ondan ibarətdir ki, burada kimyəvi təmizlənmə ilə yanaşı, eyni zamanda bioloji təmizlənmə prosesi də gedir.İçməli və tullantı sularının təmizlənməsində istifadə olunan metodlar sürətli, birmərhələli və texnoloji cəhətdən sadə olur. Bu metodlar mövcud metodlardan iqtisadi cəhətdən də sərfəlidir. Belə ki, kombinəedilmiş radiasiya və koaqulyasiya metodu ilə təmizlənmə ənənəvi metodlarla müqayisədə ~ 2÷2,5 dəfə ucuz başa gəlir. $1m^3$suyun təmizlənməsi üçün 0,25 ABŞ dolları təşkil edir [5].

Tədqiq olunan işdə Bakı Neft Emalı zavodunun məişət tullantı sularının qamma şüalarının təsiri altında fenollardan, neft və neft məhsullarından, səthi aktiv maddələrdən təmizlənmə prosesi öyrənilmişdir. Radioliz prosesi qamma şüaların təsiri altında otaq temperaturunda 50 nm ölçülü nano katalizatorun (USA Skyspring Nanomaterials, Inc. ($S=262,09\ m^2/q$)) iştirakı ilə aparılmışdır.

Tədqiqat obyekti kimi məişət tullantısı nümunəsindən 70 ml götürərək üzərinə 50 nm ölçülü 0,1 q nano-γ-Al_2O_3 əlavə edilərək məhlul hazırlanmışdır. Təcrübələr stasionar şəraitdə və Co^{60} izotop qurğusunda aparılmış, tədqiqat müddətində qurğunun gücü P=0,1 Qr/san olmuşdur. Ölçmələr udulan dozanın 0,3÷55 kQr qiymətində aparılmış, ampulanın ümumi həcmi 110 ml olmuşdur.

İşin məqsədi Bakı Neft Emalı zavodunundan axıdılan məişət tullantı sularının qamma şüalarının təsiri altında nano-γ-Al_2O_3 iştirakında radiolizi zamanı baş verən fiziki və fiziki-kimyəvi dəyişikliklərin öyrənilməsidir.

Aşağıdakı cədvəldə tədqiq olunan ərazidən götürülmüş məişət tullantı sularının ilkin tərkibi haqqında nəticələr verilmişdir.

Parametrlər	**Ölçü vahidi**	
pH		7,79
Elektrik keçiricilyi	µS/sm	1758
Duzluluq	$^0/_{00}$	0,73
Qoxu	ball	3
SSAM	mq/l	0,254
Fenollar	mq/l	0,123
OKT	mq/l	3,14
Neft məhsulu və yağlar	mq/l	15,2
Xüsusi çəki	q/sm^3	1,0017
pH	µS/sm	7,79
Elektrik keçiricilyi	$^0/_{00}$	1758
Duzluluq	ball	0,73

Cədvəldən göründüyü kimi, neft məhsulu və yağların miqdarı digər çirkləndiricilərlə müqayisədə daha çox, fenollar isə nisbətən azdır.

Şəkil 1-də udulan dozadan asılı olaraq məişət tullantı sularını xarakterizə edən bəzi parametrlərin qatılıqdan asılı olaraq dəyişmə kinetikası verilmişdir.



Şəkil 1. Məişət tullantı sularının müxtəlif parametrlər üçün qatılığın udulan dozadan asılı olaraq dəyişmə kinetikası. 1-pH, 2-Qoxu, 3-Elektrik keçiriciliyi,4-Xüsusi çəki, 5-Duzluluq (P=0,1Qr/san)

Şəkil 1-dən göründüyü kimi, məişət tullantı suyunu xarakterizə edən qoxu, xüsusi çəki və və duzluluq parametrləri udulma dozasından asılı olaraq demək olar ki, dəyişmir. Turşuluğu xarakterizə edən pH dozanın 0,3 kQr qiymətində artır, sonrakı dozalarda isə azalır. Elektrik keçiriciliyi isə udulma dozasından asılı olaraq monoton azalır.

Alınan nəticələrə əsasən demək olar ki, 0,3 ÷55 kQr dozada şüalandırılmış məişət tullantı suyu nümunəsində SSAM, fenol, neft və neft məhsulları, OKT-nin çevrilmə dərəcəsi uyğun olaraq 95%, 92%,86% və 73 % olmuşdur.

Ədəbiyyat

1. Alıyeva A.S. Magistr dissertasiyası .....Bakı-2018, 76 s
2. Abdullayev E.T. Dissertasiya .....k.ü.f.d. Bakı-2011,187 s.
3. Подзорова Е. А.Дис. ... док. хим. наук : 02.00.09.- М., 2001.- 299 с
4. Пикаев А.К. М.: 1986, 440 с.
5. Quliyeva Ü.A. Dissertasiya .....k.ü.f.d. Bakı-2016,158 s.

Xülasə

Baxılan işdə Bakı Neft Emalı zavodunundan axıdılan məişət tullantı sularının qamma şüalarının təsiri altında nano-γ-Al_2O_3 iştirakında radiolizi zamanı baş verən fiziki və fiziki-kimyəvi dəyişikliklər öyrənilmişdir. Qamma şüalarının təsiri altında məişət tullantı suyu nümunəsi fenollardan, neft və neft məhsullarından, sintetik səthi aktiv maddələrdən (SSAM) və qeyri-üzvi ionlardan təmizlənmə prosesi aparılmışdır. Müəyyən edilmişdir ki, ilkin nümunədə neft məhsulu və yağların miqdarı digər çirkləndiricilərlə müqayisədə daha çox, fenollar isə nisbətən azdır. Məişət tullantı suyunu xarakterizə edən qoxu, xüsusi çəki və və duzluluq parametrləri udulma dozasından asılı olaraq demək olar ki, dəyişmir. SSAM, fenol, neft və neft məhsulları, OKT-nin çevrilmə dərəcəsi uyğun olaraq 95%, 92%,86% və 73 % olmuşdur.

Summary

The study examined the physical and physicochemical changes that occur during radiolysis in the presence of nano-γ-Al2O3 under the influence of gamma rays of domestic wastewater discharged from the Baku Oil Refinery. Under the influence of gamma rays, the domestic wastewater sample was cleaned of phenols, oil and oil products, synthetic surfactants (SSAM) and inorganic ions. It was found that the initial sample contained more oil

and oils than other contaminants, and relatively less phenols. The odor, specific gravity, and salinity parameters that characterize domestic wastewater are virtually unchanged depending on the absorption dose. SSAM, phenol, petroleum and petroleum products, OCT conversion rates were 95%, 92%, 86% and 73%, respectively.

SUYUN VƏ SULU MÜHİTLƏRİN STRUKTUR TEMPERATURU

Əhmədov N.F., Şahbazova G. M.
Bakı Dövlət Universiteti

Açar sözlər: Struktur temperaturu, sərbəst Gibbs enerjisi
Key words: Structural temperature, free Gibbs energy

Mayelərin nəzəriyyəsi bir sıra hallar məs., kvant mayesi olan – maye helium üçün istisna olmaqla hələ də qurulmamış olaraq qalır. Bununla belə, yarı nəzəri, yarı məntiqi – analitik mülahizələrin köməyilə müxtəlif modellər verməklə mayelərin bəzi xassələri və onların xarici amillərdən asılılıqları izah edilmiş, bu asılılıqların analitik şəkli müəyyən edilmişdir. Məsələn, struktursuz mayelərin özlülüyünün temperaturdan asılılığı məşhur Frenkel-Eyrinq nəzəriyyəsinə görə

$$\eta(T) = \eta_0 e^{\frac{\Delta G}{RT}} \tag{1}$$

şəklindədir. Burada η_0 verilmiş maye üçün sabit kəmiyyətdir, fiziki mənaca çox böyük temperaturlarda mayenin, daha doğrusu artıq həmin "maye"nin qaz halda malik olduğu özlülükdür, ΔG -verilmiş maye molekullarının özlü axınının aktivləşmə sərbəst Gibs enerjisidir.

Frenkel-Eyrinq düsturu, əksər struktursuz mayelərin özlülüyünün temperaturdan asılılığını çox yüksək korrelyasiya əmsalı dəqiqliyi ilə ifadə edir. Daxili strukturu hidrogen rabitələrindən ibarət fəza toru ilə müəyyən edilən, yəni müəyyən struktura malik olan su və sulu məhlulların özlülüklərinin temperatur asılılığından isə Frenkel-Eyrinq düsturu əsasında belə analitik əyri eksperimentin aparılma dəqiqliyindən asılı olmayaraq ideal şəkildə keçirilə bilmir.

Məlumdur ki, su canlı orqanizmlərdə gedən bütün proseslərə müdaxilə edir və bu proseslərə öz köklü təsirini göstərir, suya əlavə olunan maddələr onun strukturunu dəyişdirir və bu dəyişmələr öz növbəsində canlı orqanizmlərdə baş verən biokimyəvi proseslərdə öz təsirini göstərir.

Qeyd edək ki, suyun strukturu dedikdə, su molekullarının orta kinetik enerjisi, molekullararası hidrogen rabitələrinin uzunluğu, enerjisi, paylanma konfiqurasiyası, oriyentasiyası kimi fiziki parametrlər toplusu nəzərdə tutulur və hər bir struktura uyğun termodinamik hal uyğun gəlir. Maddənin suyun strukturuna təsirini xarakterizə edən parametrlərdən biri Bernal və Fauler tərəfindən su haqqında elmə daxil edilən "struktur temperatur" anlayışıdır.

İlk baxışdan sadə, maraqlı və anlaşılan görünməsinə baxmayaraq Bernal və Faulerin müəyyən etdikləri mənada struktur temperaturu anlayışının bir sıra çatışmayan cəhətləri var və o cümlədən tətbiq sahəsi məhduddur.

Struktur temperaturu anlayışı yenidən Uberreyter tərəfindən işlənilmişdir [1]. O, mayelərin özlülüyünün temperaturdan asılılığı üçün məlum olan çox saylı empirik düsturlardan biri olan:

$$\eta(T) = Ae^{\frac{B}{T-T_0}} \tag{2}$$

Vogel düsturundan istifadə etmiş və mayenin özlülüyü sonsuz olan, yəni daxili sərbəstlik dərəcələri donmuş temperaturu "struktur temperaturu" (T_0) adlandırmışdır. Göründüyü kimi (1) düsturu nəzəri mülahizələrin köməyi ilə alınmış (1) düsturuna çox bənzəyir.

Həm Bernal tərəfindən, həm də Uberreyter tərəfindən müxtəlif mənalarda daxil edilmiş "struktur temperaturun"anlayışı fiktiv kəmiyyət olmasına baxmayaraq, maddələrin suya strukturlaşdırıcı və ya dağıdıcı təsirlərinin sadə yolla, qısa müddətdə aşkar etmək üçün çox mühüm rol oynayır.

Lakin bu anlayışa yanaşmalarda və T_0-ın hesablanmasında müəyyən qüsurlar olmuşdur.

Təqdim olunan işdə struktur temperaturu metodunda mövcud olan qüsurlar aradan qaldırılmış, təkmilləşdirilmiş və inkişaf etdirilmişdir. Belə ki, optimallaşdırma metodu ilə strukturlu təmiz mayedə (suda) özlü axının aktivləşmə sərbəst Gibs enerjisi ilə sulu məhlulda özlü axının aktivləşmə sərbəst Gibs enerjisi arasında olan fərqlə, məhlulun struktur temperaturu ilə təmiz suyun struktur temperaturunun fəqri arasında korrelyasion əlaqə muəyyən edilmişdir.

Ədəbiyyat

1. Ueberreiter K. Change of water structure by solvents and polymers. Colloid & Polymer Science. 1982, 260, №1, p.37-45.

SUYUN VƏ SULU MÜHİTLƏRİN STRUKTUR TEMPERATURU

Əhmədov N.F., Şahbazova G. M.
Bakı Dövlət Universiteti

Xülasə

İşdə suyun strukturunun mahiyyəti və canlı orqanizmlərdəki rolu şərh edilmişdir. Suyun və sulu məhlulların strukturunu xarakterizə edən "struktur temperaturu" parametri və onun təcrübədə təyin olunması metodu təsvir edilmişdir.

СТРУКТУРНАЯ ТЕМПЕРАТУРА ВОДЫ И ВОДНОЙ СРЕДЫ

Ахмедов Н.Ф., Шахбазова Г. М.
Бакинский Государственный Университет

Резюме

В работе излагается различные представления о структуре воды, экспериментальные исследования её роли в живых организмов. Описывается введенное, в науку о воде параметр «структурная температура», методы определения его значений.

STRUCTURAL TEMPERATURE OF WATER AND WATER ENVIRONMENT

Ahmedov N.F., Shahbazova G.
Baku State University

Summary

The paper presents various ideas about the structure of water, experimental studies of its role in living organisms. The parameter "structural temperature" introduced into the science of water, methods for determining its values are described.

PİON- PROTON TOQQUŞMASINDA FOTONUN BİRBAŞA YARANMASI

Şirinova A.Ş.
Əhmədov Azər İnşalla oğlu, fizika elmlər doktoru
Nəzəri Fizika kafedrası, Bakı Dövlət Universiteti

Açar sözlər: Yüksək tvist, aparıcı tvist, renormalon effekti
Key words: High twist, leading twist, renormalon effect

Pion-proton toqquşmasında fotonun birbaşa inklüziv yaranması prosesi Enriko Fermi adına tədqiqat laboratoriyasının əsas proqramıdır. Bu işdə fotonun birbaşa yaranması üçün əsas proses olaraq $\pi p \to \gamma X$ prosesi $\sqrt{s} = 62.4$ QeV də dondurulmuş və dəyişən qarşılıqlı təsi sabiti metodu ilə tədqiq olunmuşdur. Burada bizim əsas məqsədimiz yüksək tvist effektlərinin prosesin effektiv kəsiyinə verdiyi əlavələri iki metodla, dondurulmuş və dəyişən qarşılıqlı təsir sabiti metodu ilə hesablamqdır. Qeyd etmək lazımdır ki, yüksək tvistlərin tədqiqi müxtəlif səbəblərdən maraqlıdır. Məsələn, protonla bağlı olan modellərdə quruluş funksiyalarının tədqiqi göstərir ki, yüksək tvistlərin prosesin effektiv kəsiklərinə verdiyi əlavələr paylanma və fraqmentasiya funksiyalarının tərsinə çevrilməsinə ekvivalentdir.

Yüksək-tvistlərin müxtəlif əlavələri əsas prosesin və alt prosesin paylanma funksiyalarının və partonların fraqmentasiya funksiyalarının öyrənilməsinə imkan yaradır.

Məlumdurki, yüksək enrjilərdə fotonun birbaşa yaranması hadron kollayderində müşahidə oluna bilən əsas və fundamental proseslərdən biridir. Birbaşa yaranan foton ele fotondurki, o bilavasitə əsas parton qarşılıqlı təsirindən yaranır. Bu fotonlarla hadronların quruluşunu kifayət qədər kiçik məsafələrdə öyrənmək mümkündür. Həmçinin bu fotonlar Standart Modelin parametrlərinə və yeni fizikanın öyrənilməsinə həssasdırlar.

Əsas tərtibdə iki əsas proses mövcuddur ki, birbaşa foton yaransın: annihilaysiya prosesi $q\bar{q} \to g\gamma$ və virtual Kompton effekti $gq \to \gamma q$.

Bu işdə $\pi p \to \gamma X$ prosesinin yüksək tvistinin alt prosesi üçün uyğun olaraq $\pi q_p \to \gamma q$ prosesi götürülmüşdür. Burada q_p- protonun kvarklarından biridir. Analoji olaraq, $\pi^+ p \to \gamma X$, $\pi^- p \to \gamma X$ proseslərinin öyrənilməsi üçün $\pi^+ d_p \to \gamma u$ $\pi^- u_p \to \gamma d$ alt prosesləri seçilmişdir.

$\pi q_p \to \gamma q$ alt prosesinin Mandesltam invariantları aşağıdakı formadadır:

$$\hat{s} = (p_1 + p_\gamma)^2,\ \hat{t} = (p_\gamma - p_\pi)^2,\ \hat{u} = (p_\gamma - p_\pi)^2. \tag{1}$$

$\pi q_p \to \gamma q$ prosesinin matris elementini aşağıdakı formada yaza bilərik:

$$T_H(\pi q_p \to \gamma q) = \frac{4ieg_s^2\delta_{ij}}{3\sqrt{6}} \frac{M^\mu e_\mu}{x_1 x_2 \hat{s}\hat{t}\hat{u}}, \tag{2}$$

$$M^\mu = \bar{u}(p_1)\gamma_5(F_1\gamma^\mu + G_1^\mu \hat{p}_\pi)u(p_2), \tag{3}$$

$$F_1 = -(\hat{s} - \hat{u})(e_2\hat{s} + e_1\hat{u}), \tag{4}$$

$$G_1^\mu = 4e_1\hat{u}p_1^\mu + 4e_2\hat{s}\hat{p}_2^\mu + 2(e_2\hat{s} - e_1\hat{u})p_\pi^\mu. \tag{5}$$

$\pi p \to \gamma X$ prosesinin amplitudu Brodskii-Lepaje formulu ilə tapılır[1]:

$$M(\hat{s},\hat{t}) = \int_0^1 dx_1 \int_0^1 dx_2 \delta(1 - x_1 - x_2)\Phi_M(x_1, x_2, Q^2)T_H(\hat{s},\hat{t}, x_1, x_2). \tag{6}$$

Burada T_H prosesin Feynman diaqramında $q_1\bar{q}_2 \to \pi\gamma$ alt prosesinə əlavələr verən sərt səpilmələrin cəmini təsvir edir.

Hesablamalarda pionun aşağıdakı paylanma amplitudlarından isitfadə olunmuşdur:

, $\Phi^{p}_{asy}(x)$, $\Phi^{hol}(x)$, $\Phi^{hol}_{VSBGL}(x)$, $\Phi_{CZ}(x.Q^2)$, $\Phi_{BMS}(x.Q^2)$ və $\Phi_{HW}(x.Q^2)$:

$$\Phi_{asy}(x) = \sqrt{3} f_{\pi} x(1-x), \tag{7}$$

$$\Phi^{hol}(x,\mu_0^2) = \frac{4}{\sqrt{3}\pi} f_{\pi}\sqrt{x(1-x)}, \tag{8}$$

$$\Phi^{hol}_{VSBGL}(x,\mu_0^2) = \frac{A_1 k_1}{2\pi}\sqrt{x(1-x)}\exp\left(-\frac{m^2}{2k_1^2 x(1-x)}\right), \tag{9}$$

$$\Phi_{CZ}(x,\mu_0^2) = \Phi_{asy}(x)[C_0^{3/2}(2x-1) + \frac{2}{3}C_2^{3/2}(2x-1)], \tag{10}$$

$$\Phi_{BMS}(x,\mu_0^2) = \Phi_{asy}(x)\left[C_0^{3/2}(2x-1) + 0{,}20C_2^{3/2}(2x-1) - 0{,}14C_4^{3/2}(2x-1)\right], \tag{11}$$

$$\Phi_{HW}(x) = \frac{A_p\beta^2}{2\pi^2}[1 + B_p C_2^{1/2}(2x-1) + C_p C_2^{1/2}(2x-1)]\exp\left(-\frac{m^2}{2\beta^2 x(1-x)}\right). \tag{12}$$

Yüksək tvisitn əlavəsini hesablamaq üçün $\pi p \to \gamma X$ prosesinin diferensial effektiv kəsiyi aşağıdakı formada hesablanır:

$$E\frac{d\sigma}{d^3p}(\pi p \to \gamma X) = \int_0^1 dx\delta(\hat{s}+\hat{t}+\hat{u})\hat{s}G_{q/p}(x,Q^2)\frac{1}{\pi}\frac{d\sigma}{d\hat{t}}(\pi q_p \to \gamma q). \tag{13}$$

$\pi q_p \to \gamma q$ alt prosesinin diferensial effektiv kəsiyi aşağıdakı şəkildədir:

$$\frac{d\sigma}{d\hat{t}}(\hat{s},\hat{t},\hat{u}) = \frac{16\pi^2\alpha_E C_F}{9}\frac{[D(\hat{s},\hat{u})]^2}{\hat{s}^2(-\hat{t})}\left[\frac{1}{\hat{u}^2}+\frac{1}{\hat{s}^2}\right]. \tag{14}$$

burada

$$D(\hat{s},\hat{u}) = e_1\hat{u}\alpha_s(Q_1^2)\int_0^1 dx\left[\frac{\Phi_{\pi}(x,Q_1^2)}{x(1-x)}\right] + e_2\hat{s}\alpha_s(Q_2^2)\int_0^1 dx\left[\frac{\Phi_{\pi}(x,Q_2^2)}{x(1-x)}\right]. \tag{15}$$

$\pi p \to \gamma X$ prosesində yüksək tvist diferensial effektiv kəsiyi hesablamaq üçün yekun formula aşağıdakı ifadə ilə təyin olunur[2]:

$$E\frac{d\sigma}{d^3p}(\pi p \to \gamma X) = \frac{s}{s+u}xG_{q/p}(x,Q^2)\frac{16\pi\alpha_E C_F}{9}\frac{[D(\hat{s},\hat{u})]^2}{\hat{s}^2(-\hat{t})}\left[\frac{1}{\hat{s}^2}+\frac{1}{\hat{u}^2}\right]. \tag{16}$$

(15) inteqral ifadəsi dəyişən qarşılıqlı təsir sabiti yaxınlaşmasında aşağıdakı ifadə ilə təyin olunur:

$$D(\mu_{R_0}^2) = \int_0^1 \frac{\alpha_s(\lambda,\mu_{R_0}^2)\Phi_M(x,\mu_F^2)dx}{x(1-x)}. \tag{17}$$

(17) ifadəsini (15)-də nəzərə alsaq onda alarıq:

$$D(\hat{s},\hat{u}) = e_1\hat{u}\int_0^1 dx\left[\frac{\alpha_s(\lambda\mu_{R_0}^2)\Phi_{\pi}(x,Q_1^2)}{x(1-x)}\right] + e_2\hat{s}\int_0^1 dx\left[\frac{\alpha_s(\lambda\mu_{R_0}^2)\Phi_{\pi}(x,Q_2^2)}{x(1-x)}\right] =$$

$$= e_1\hat{u}\alpha_s(\hat{s})t_1\int_0^1 dx\frac{\Phi_M(x,Q_1^2)dx}{x(1-x)(t_1+z_1)} + e_2\hat{s}\alpha_s(-\hat{u})t_2\int_0^1\frac{\Phi_M(x,Q_2^2)dx}{x(1-x)(t_2+z_2)}. \tag{18}$$

burada $t_1 = 4\pi/\alpha_s(\hat{s})\beta_0$ və $t_1 = 4\pi/\alpha_s(-\hat{u})\beta_0$.

$\Phi_{asy}(x)$ paylanma amplitudu üçün onda $D(\hat{s},\hat{u})$ üçün alarıq[3]:

$$D(\hat{s},\hat{u}) = \frac{4\sqrt{3}\pi f_{\pi}e_1\hat{u}}{\beta_0}\int_0^{\infty} due^{-t_1 u}\left[\frac{1}{1-u}\right] + \frac{4\sqrt{3}f_{\pi}e_2\hat{s}}{\beta_0}\int_0^{\infty} due^{-t_2 u}B\left[\frac{1}{1-u}\right]. \tag{19}$$

$\Phi^{hol}(x)$ paylanma amplitudu üçün onda $D(\hat{s},\hat{u})$ üçün alarıq:

$$D(\hat{s},\hat{u})=\frac{16 f_\pi e_1\hat{u}}{\sqrt{3}\beta_0}\int_0^\infty du e^{-t_1 u}B\left(\frac{1}{2},\frac{1}{2}-u\right)+\frac{16 f_\pi e_2\hat{s}}{\sqrt{3}\beta_0}\int_0^\infty du e^{-t_2 u}B\left(\frac{1}{2},\frac{1}{2}-u\right). \qquad (20)$$

$\Phi_{CZ}(x,Q^2)$ paylanma amplitudu üçün onda $D(\hat{s},\hat{u})$ üçün alarıq:

$$D(\hat{s},\hat{u})=\frac{4\sqrt{3}\pi f_\pi e_1\hat{u}}{\beta_0}\int_0^\infty du e^{-t_1 u}\left[\frac{1}{1-u}+0{,}84\left[\frac{\alpha_s(Q_1^2)}{\alpha_s(\mu_0^2)}\right]^{50/81}\cdot\left[\frac{4}{1-u}-\frac{24}{2-u}+\frac{30}{3-u}\right]\right]$$

$$+\frac{4\sqrt{3\pi}\, f_\pi e_2\hat{u}}{\beta_0}\int_0^\infty du e^{-t_2 u}\left[\frac{1}{1-u}-\frac{1}{2-u}+0.84\left[\frac{\alpha_s(p_T^2)}{\alpha_s(\mu_0^2)}\right]^{50/81}\cdot\left[\frac{4}{1-u}-\frac{24}{2-u}+\frac{30}{3-u}\right]\right] \qquad (21)$$

İşdə $\pi p\to\gamma X$ prosesində yüksək tvist diferensial effektiv kəsiyi pionun baxılan paylanma amplitudları üçün fotonun eninə impulsandan və yeyinliyindən asılılıqları hər iki yaxınlaşmada, dondurulumuş və dəyişən qarşılıqlı təsir sabiti yaxınlaşmalarında ətraflı öyrənilmişdir. Prosesin effektiv kəsiyi üçün Borel cəmi hesablanmışdır. Dəyişən qarşılıqlı təsi sabiti metodu ilə hesablamlarda yaranan infraqırmızı renormolon sinqulyarlığı inteqralın baş qiymət mənada hesablanması metodu ilə aradan qaldırılmışdır. Bütün paylanma amplitudları üçün yüksək tvist effektiv kəsiyinin ədədi qiymətləri aparıci tvistin ədədi qiymətəri ilə müqayisə edilmişdir. Hesablamalrda alınan nəticələrdən görünür ki, $\pi p\to\gamma X$ prosesində fotonun birbaşa yaranmasıni Böyük Hadron Kollayderində müşahidə etmək mümkündür.

Ədəbiyyat

[1]. Lepage G.P., Brodsky S.J. Phys. Lett. B, 1979, v. 87, No 4, pp.359-365.
[2]. Owens J. F., Rev. Mod. Phys. 59, 465 (1987).
[3]. Ahmadov A. I., C. Aydin C., Uzun O. Phys. Rev. D 87, 014006 (2013).

Резюме

В данной работе исследована зависимость сечения процесса прямого инклюзивного рождения фотона при пион-протонном $\pi p\to\gamma X$ столкновении от поперечного импульса и быстроты фотона для разных мезонных амплитуд распределения методом замороженной и бегущей константы взаимодействия в рамках пертурбативной и голографической квантовой хромодинамики. Получено аналитическое выражение бореловской суммы эффективного сечения для используемых при вычислениях амплитуд распределения. Выделен и проанализирован чистый вклад высших твистов в эффективное сечение для каждой амплитуды распределения.

Summary

In this paper, we study the dependence of the cross section for the process of direct inclusive photon production in a pion-proton $\pi p\to\gamma X$ collision on the transverse momentum and rapidity of photon for different meson distribution amplitudes by the methods of frozen and running coupling constants in the framework of perturbative and holographic quantum chromodynamics. An analytical expression is obtained for the Borel sum of the cross section for the distribution amplitudes used in the calculations. The pure contribution of higher-twist effects to the cross-section for each distribution amplitude is extracted and analyzed.

ALÜMİNİUM ƏSASLI OVUNTU KOMPOZİYA MATERİALLARININ İŞLƏNMƏSİ PERSPEKTİVLƏRİ

Yaqubov E.K. (emin.yagubov@mail.ru)
Gəncə Dövlət Universiteti

Açar sözlər: kompozisiya materialı, ovuntu alüminium, ovuntu metallurgiyası, metal matrisa, attrirləmə, mayefazalı bişirmə.

Ключевые слова: композиционный материал, алюминиевый порошок, порошковая металлургия, металлическая матрица, алитирование, жидкофазное спекание.

Keywords: composite material, aluminum powder, powder metallurgy, metal matrix, aluminizing, liquid-phase sintering.

Müasir dövrdə konstruktiv və funksional nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edən xassələrin daha yüksək səviyyəsi ilə seçilən materialların yaradılması bir çox sənaye sahələrinin, o cümlədən avtomobil və dəzgah istehsalı, cihazqayırmada, energetika maşınqayırması, aerokosmik və müdafiə sənayesinin inkişafında həlledici rol oynayır. Bu baxımdan son dövrlərdə tədqiqatçıların metal matrisalı kompozit materialların yaradılmasına və onların tədqiqinə olan marğı diqqəti cəlb edir [1]. Qeyd olunan materiallar arasında alüminium və onun ərintiləri əsasında yaradılan kompozisiyalar aparıcı yerlərdən birini tutur. Istehsal və tətbiq miqyasına görə alüminium dəmirdən sonra müasir sənaye və texnikanın ikinci metalı hesab edilir. Lakin onun ovuntu metallurgiyasının sənaye inkişafı dəmirin ovuntu metallurgiyasının inkişafından hiss olunacaq dərəcədə geri qalır. Buna baxmayaraq alüminiumun ovuntu metallurgiyasının perspektivləri inkişaf etmiş sənaye ölkələrində ona daha çox diqqət yetirilməsinə səbəb olmuşdur. Məlum olduğu kimi Azərbaycan Respublikasında alüminium filizi yataqları mövcuddur. Ölkəmizdə alüminium istehsalının qədim tarixi və ənənəsi vardır. Bütün bunları nəzərə alaraq demək olar ki, Azərbaycanda alüminium əsaslı ovuntu kompozisiya materiallarının işlənməsinə dair tədqiqatların aparılması ovuntu metallurgiyasının prioritet istiqamətlərindən biridir.

Alüminiumun kimyəvi aktivliyi ilə əlaqədar olaraq onun əsasında hazırlanan ovuntuların preslənməsi posesində metalın pres-qəlibin divarlarına yapışması baş verir. Bunun qarşısını almaq üçün konteynerə ovuntu ilə burlikdə böyük miqdarda sürtkü materialı və ya maye daxil edilir [2]. Böyük miqdarda sütrkünün əlavə edilməsi çiy prespəstahların və xüsusən bişirlmiş ərintilərin dartılmada möhkəmliyini aşağı salır. Bundan başqa sürtkünün böyük miqdarı soba avadanlığının tez çikrlənməsinə gətirir. Sürtkünün miqdarının azaldılması, eləcə də pres-qəliblər üçün uyğun materialın seçilməsi və ya onların səthinə alüminiumla tutuşmayan mühafizəedici örtüklərin çəkilməsi istiqamətində edilən çoxsaylı cəhdlər hələlik müsbət nəticələr verməmişdir. Sürtkülü qarışıqlardan bişirilmiş məmulatların möhkəmliyi sürtküsüz məmulatların möhkəmliyindən az olur. Lakin sürtküsüz prespəstahların həndəsi ölçülərinin orta qiymətdən sapması sürtkülü prespəstahlara nisbətən iki dəfə çox olmuşdur [3]. Bunun səbəbi ondan ibarətdir ki, qarışıqda sürtkünün mövcudluğu onun pres-qəlibdə axmasını asanlaşdırır və prespəstahı sıxlığa görə daha bircins edir.

Maye fazanın iştirakı ilə alüminiumun bişirilməsində baş verən fiziki proseslər kifayət qədər mürəkkəb və bir çox parametrlərə həssasdır. Ona görə də alüminiumun bişirilmə prosesinin texnoloji rejimi diqqətli nəzarət tələb edir. Məsələn azotda bişirmədə həlledici rolu şehlik nöqtəsi (-40°C) və temperaturu saxlama dəqiqliyi (±3°C) oynayır [4]. Digər metal ovuntularından detalların bişirilməsi üçün nəzərdə tutulan mövcud sobalar göstərilən hədlərdə temperatur və şehlik nöqtəsini tənzimləməyə imkan vermir. Ona görə də alüminiumun bişirilməsi üçün standart soba avadanlığının işlənməsi onun müxtəlif sənaye sahələrində geniş tətbiqinin zəruri şərti sayılır.

Yüksək korroziyaya davamlılıqla yanaşı maşınların çəkisinin və xüsusən ətalət kütləsinin azalması tələb olunan hallarda bişirilmiş dəmir alüminiumla əvəz olunur, nəticədə küy və titrəyiş azalır. Bu haqda fikir yürütməyə imkan verən reallıq ondan ibarətdir ki, alüminium ovuntu detallarının istehsalının artım tempi bişirilmiş dəmirin istehsalının artım tempini xeyli üstələyir. Bu gün ovuntu alüminium detalları elektronikada, avtomobil, kosmik və digər sənayelərdə geniş istifadə olunur [5,6]. Bura həm də qayış ötürmələrinin intiqalları, təkərlər, qapaqlar, oymaqlar, yağ nasoslarının dişli çarxları və digər detallar aiddir.

Ovuntu pəstahdan alınmış yayığın mexaniki xassələri anoloji tərkibli (7,3% Zn, 2,0% Mg, 0,6% Cu, 1% Co, 0,15% Fe, 0,12% Si, 0,35% O_2) ərintinin tökmə pəstahlarından alınan yayığın mexaniki xassələrinin səviyyəsinə uyğun gəlir. Bu üsulla alüminium və Al-Pb ərintisi ovuntularından sürüşmə yastıqlarının hazırlanması üçün ikiqat lent alırlar[7]. 7090 və 7091 yüksəkmöhkəm ovuntu alüminium ərintilərinin ilk sənaye nümunələri «Alkoa»firması tərəfindən işlənmiş və tətbiq edilmişdir [8,9]. Bunlar, tərkibində 1,6 və 0,4% kütlə payı kobalt olan Al-Zn-Mg-Cu tərkibli tez kristallaşmış materiallardır. 10-12% deformasiya dərəcəsi ilə dartılmada bu ərintilərin möhkəmlik həddi təxminən 60 MPa təşkil edir [10]. Rusiya Federasiyasında (RF) ПВ-90 markalı yüksəkmöhkəm ərinti işlənmişdir. Bu mövcud alüminium ərintilərindən ən möhkəmidir (σ_B=780MPa, $\sigma_{0,2}$=740MPa, δ=8%) [11]. O, istismar şəraitində və uzunmüddətli yükləmələrdə yüksək antifriksion xassələrini saxlayır [12]. Tez kristallaşan ovuntulardan alınan yüksəkmöhkəm alüminium ərintiləri yüksək yorulma möhkəmliyinə və artırılmış korrozion dözümlüyə malikdirlər [8, 9, 13]. «Alkoa» şirkəti tərəfindən otaq temperaturunda 457MPa və 315°C-də 255MPa axma həddinə malik Cu78 (Al-8Fe-4Ce) perspektivli ovuntu ərintisi işlənib. Onun otaq temperaturundakı möhkəmliyi 1000 saat ərzində 230°C-də saxlamadan sonra tamamilə dəyişməz qalır [8].

Ovuntu alüminium ərintilərinin elastiklik modulunun əhəmiyyətli artımına onlara xırdadispers bığların və liflərin daxil edilməsi ilə nail olmaq olar [14, 15]. Məsələn, tərkibində silisium tərkibli bığları olan eksperimental ərintilər təzyiq altında tökülmüş ərintilərlə müqayisədə elastiklik modulunun (170 GPa) və dartılmada möhkəmlik həddinin ikiqat (1170MPa) göstəriciləri ilə fərqlənir [9]. Ona görə də liflərlə möhkəmləndirilmiş yüksəkmöhkəm alüminium ərintilərindən hazırlanan matrisalar əsasında yaradılan kompozitlər bu günün və gələcəyin materiallarıdır [8,9].

Ədəbiyyat

1. Kainer, K.U. Metal Matrix Composites: Custom-made Materials for Automotive and Aerospace Engineering // Wiley-VCH. 2006. – 330 p.
2. Давыденкова А.В. Разложение смазки в прессовках из смесей на основе алюминия при нагреве / А.В.Давыденкова, А.И.Клименко, В.А.Кузнецов [и др.] // – Москва: Порошковая металлургия,– 2011. №11/12, – с. 22-25
3. Millan P.P. Aplications at high-temperature powder metal aluminum alloys to small qas turbines// – London, UK: International Journal of Metals, – 2013. №35, – p.76-81.
4. Jongg C., Neubing H. Problems with sintering of aluminum parts // Minsk: Jn: seminar on the development and use at powder metallurgy in engineering industries, – 2015, – p. 338-345
5. Savage S.J, Froes F.H. Production of Rapidly Solidified Metals and Alloys // – London, UK: International Journal of Metals, – 2014 № 36, – p. 20 – 33.
6. Generous Z. D. Alüminium p/m applications in business machines // Modern developments in powder metallurgy, 2011, 13, p.501 – 506.
7. Kubel E. Z., pireed powder rolling //Mater. Eng., 2014, 99, №1, p. 48 – 51.
8. Graham R.H. Putting more muscle in alüminium alloys // Machine Design, 2014, January 12, p. 125 – 129.

9. Fros F. H., Pickens Z. R. Powder metallurgy of light metal alloys for demanding applications // Z. of Metals, 2014, 36, № 1, p. 14 – 28.
10. Iron age metal working int. 2013, V. 22, № 11 – 12, p. 33.
11. Фриляндер И.Н. Состав и структура высокопрочного порошкового сплавов ПВ – 90 / И. Н. Фриляндер, Р.А.Кривенко, А.Н.Чеканов [и др.] // – Москва: Авиационные материалы, 2010, № 4, с.105 – 110.
12. Кривенко Р.А. Высокопрочные порошковые алюминиевые сплавы / Р.А.Кривенко, Э.Я.Кауфман, Н.Е.Болатова, [и др.] // – Москва: Металловедение и термическая обработка металлов, 2011, № 6, с. 30 – 32.
13. Матвеев Б.И., Баранчиков В.М. Порошковые алюминиевые сплавы // – Москва: Металловедение и термическая обработка металлов, 2012, №3, с. 45 – 48.
14. Loderich R. Z., Sastry S.M.Deformation behavior of silicon – carbide – whisker – reinforced alüminium compacites // Mater. Sci. and eng., 2012, 55, № 1, p. 143 – 146.
15. Ratre L., Wassermann G. Fibre compositesof alüminium withgraphite // powder Met. Int. 2013, 15, №2, p. 65 – 68/

ALÜMİNİUM ƏSASLI OVUNTU KOMPOZİYA MATERİALLARININ İŞLƏNMƏSİ PERSPEKTİVLƏRİ

Yaqubov E.K. (emin.yagubov@mail.ru)
Gəncə Dövlət Universiteti

Ovuntu kompozisiya materiallarının müasir dövrün sənaye istehsalında oynadığı rol və bu materialların inkişaf etdirilməsi istiqamətində mövcud olan maraqlı tendensiyalar sistemli şəkildə təhlil edilmişdir. Alüminium əsaslı kompozisiya materiallarının potensial tətbiq sahələri haqqında məlumat verilmiş, onların tətbiqini əsaslandıran bir çox maraqlı cəhətlərlə yanaşı, inkişafını ləngidən problemlər də ayrıca şərh edilmişdir. Bu qəbildən olan yeni materialların yaradılması və uğurlu tətbiqi üçün prioritet hesab etdiyimiz texniki və texnoloji məsələlərin həllinin vacibliyi ön plana çəkilmişdir.

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ КОМПОЗИЦИОННЫХ МАТЕРИАЛОВ НА ОСНОВЕ АЛЮМИНИЯ

Э.К.Ягубов (emin.yagubov@mail.ru)
Гянджинский Госсударственный Университет

Систематически проанализированы современные тенденции применения композиционных материалов в современном промышленном производстве и их развитие в этом направлении. Были представлены сведения о потенциальных областях использования композиционных материалов на алюминиевой основе. Перечислены множество интересных аспектов обосновывающих применение данных материалов, наряду с проблемами замедляющими их развитие. На передний план проведенных работ поставлена важность решения технических и технологических вопросов, которые на наш взгляд являются приоритетными для создания и успешного внедрения новых композиционных материалов.

PROSPECTS FOR THE DEVELOPMENT OF COMPOSITE MATERIALS BASED ON ALUMINUM

E.K. Yagubov (emin.yagubov@mail.ru)
Ganja State University

Modern trends in the use of composite materials in modern industrial production and their development in this direction are systematically analyzed. Potential uses for aluminum-based composite materials were presented. Many interesting aspects are listed that justify the

use of these materials, along with problems slowing down their development. The importance of solving technical and technological issues, which, in our opinion, are a priority for the creation and successful implementation of new composite materials, has been put at the forefront of the work carried out.

ФИЗИКО-ХИМИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ВОДНЫХ РАСТВОРОВ ДЕКСТРАНА

Джафарова Ф.А., **Д.ф.м.н. проф. Масимов Э.А.,
***** д.ф. по биол. Оджагвердиева С.Я.***
****Бакинский Инженерный Университет, Азербайджан***
*****Бакинский Государственный Университет, Азербайджан***

Ключевые слова: парциальный мольный объем, оптическая плотность, показатель преломления, оптическая активность, приведенная вязкость.

Key words: partial molar volume, optical density, refractive index, optical activity, reduced viscosity.

Açar sözlər: parsial molyar həcm, optik sıxlıq, sındırma əmsalı, optik aktivlik, gətirilmiş özlülük

Хотя исследованию реологических и объемных свойств водных растворов декстранов уделяется достаточное внимание [1-3], некоторые другие свойства этих растворов: показатель преломления (n_D), величина угла вращения плоскости поляризации (α_D), электронные спектры поглощения, недостаточно хорошо изучены. При исследовании растворов, для получения комплекса взаимосогласованных данных, полезно использовать сравнительно широкий спектр различных методов физико-химического анализа. Данная работа посвящена исследованию водных растворов декстрана (M= 40000 г/моль) методами волюмометрии, рефрактометрии, поляриметрии, спектрофотометрии и вискозиметрии. В относительно широком интервале концентраций ($W \leq 10$ вес. %) при 298,15 К были определены плотность (ρ^{25}), показатель преломления (n_D^{25}), величина угла вращения плоскости поляризации ($\propto_D^{25}$), а при 293,15, 298,15, 303,15, 313,15, 323,15 К динамическая вязкость (η) водных растворов декстрана. Получены соотношения, хорошо описывающие зависимости соответствующих свойств растворов от концентрации декстрана. В случае вязкости, также найдены уравнения зависимости вязкости растворов различных концентраций от температуры и вычислены энергии активации вязкого течения этих растворов. Были также сняты электронные спектры поглощения водных растворов декстрана в интервале длин волн 190-1000 нм. Установлено, что максимум поглощения водных растворов декстрана (λ_{max}) наблюдается при 278 нм. Вычислены оптическая плотность (D), удельное вращение ($[\propto]_D^{25}$), мольный объем (V_M^{25}) водных растворов декстрана, а также парциальные мольные объемы декстрана ($\overline{V}_D$) в этих растворах. Получено уравнение зависимости парциального мольного объема декстрана от концентрации полисахарида в растворе. Кривая зависимости парциального мольного объема декстрана от концентрации проходит через минимум. Показано, что наличие минимума на кривой зависимости парциального мольного объема декстрана от концентрации может служить признаком образования в растворе более структурированных образований. Зависимость величины энергии активации вязкого течения для растворов различных концентраций подтверждает выводы волюмометрии. Из зависимости приведенной вязкости от концентрации раствора определены характеристическая вязкость и константа Хаггинса при указанных температурах.

Наблюдается увеличение характеристической вязкости и уменьшение константы Хаггинса при повышении температуры, кривые зависимостей которых проходят соответственно через пологий максимум и минимум. Значение характеристической вязкости использовано в качестве критерия для оценки концентрации, ниже которой растворы могут считаться разбавленными. Результаты волюмометрии, спектрофотометрии, рефрактометрии и поляриметрии, подтверждают существование такой границы разбавленных растворов в случае водных растворов декстрана с молекулярной массой 40000 г/моль.

Литература

1. Вирник А.Д., Хомяков К.П., Скокова И.Ф. //Успехи химии, 1975, т.44, №7, с. 1280-1307.
2. Толмачев В.Н., Луговая З.А., Половинкина Л.И., Понамарева Е.И. // Высокомолекулярные соединения. 1982, Т. 24, серия Б, №4, с. 255 – 258.
3. Алексеева О.В., Елисеева О.В. // Химия и химическая технология. 2007, т. 50, вып.12, с. 118 - 120.

ФИЗИКО-ХИМИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ВОДНЫХ РАСТВОРОВ ДЕКСТРАНА

Резюме

Методами волюмометрии, рефрактометрии, поляриметрии, спектрофотометрии и вискозиметрии при 298,15 К изучены водные растворы декстрана с молярной массой 40000 г/моль. Определены плотность, показатель преломления, динамическая вязкость и величина угла вращения плоскости поляризации водных растворов декстрана. Сняты электронные спектры этих растворов. Вычислены мольный объем, удельное вращение, оптическая плотность, приведенная вязкость растворов, парциальный мольный объем декстрана в водных растворах. Показано, что наличие минимума на кривой зависимости парциального мольного объема декстрана от концентрации может служить признаком образования в растворах более структурированных образований, что подтверждается результатами методов рефрактометрии, спектрофотометрии, поляриметрии и вискозиметрии.

PHYSICAL AND CHEMICAL STUDY OF AQUEOUS DEXTRAN SOLUTIONS

Abstract

Aqueous dextran solutions with a molar mass of 40,000 g/mol were studied by volumemetry, refractometry, polarimetry, spectrophotometry, and viscometry at 298.15 K. The density, refractive index, dynamic viscosity, and the angle of rotation of polarization plane of aqueous dextran solutions were determined. The electronic absorption spectra of these solutions were taken. The molar volume, specific rotation, optical density, reduced viscosity of solutions, and partial molar volume of dextran in aqueous solutions were calculated. It is shown that the presence of a minimum in the curve of dependence of the dextran partial molar volume on concentration can serve as a sign of the formation of more structured formations in solutions, which is confirmed by the results of refractometry, spectrophotometry, polarimetry, and viscometry.

DEKSTRANIN SULU MƏHLULLARININ FİZİKİ-KİMYƏVİ TƏDQİQİ

Xülasə

298,15 K temperaturda molyar kütləsi 40000 q/mol olan dekstranın sulu məhlulları volumometriya, refraktometriya, spektrofotometriya, polyarimetriya və viskozimetriya metodları ilə öyrənilmişdir. Məhlulların sıxlığı, sındırma əmsalı, dinamik özlülüyü və polyarizasiya müstəvisinin fırlatma bucağı təyin edilmişdir. Bu məhlulların elektron udulma

spektrləri çəkilmişdir. Məhlulların molyar həcmi, xüsusi fırlatma bucağı, optiki sıxlığı, gətirilmiş özlülüyü və məhlullarda dekstranın parsial molyar həcmi hesablanmışdır. Dekstranın parsial molyar həcmin qatılıqdan asılılıq əyrisində minimumun olması məhlullarda strukturlaşdırılma prosesinin baş verməsinin əlaməti kimi göstərilmişdir. Bu da refraktometriya, polyarimetriya, spektrofotometriya və viskozimetriya metodlarının nəticələri ilə təsdiq olunur.

FİZİKADA PARADOKSLARA YENİ YANAŞMA

Bəşirov M.B., Dos. Quliyev N.İ., Dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Açar sözlər: fiziki, paradoks, nəzəriyyə, elektrodinamika, kvant mexanikası, dalğa funksiyası

Key words: physical, paradox, theory, electrodynamics, quantum mechanics, wave function

Fiziki paradoksların təbiətini anlamaq üçün yeni yanaşma təklif olunur. Paradokslar təkcə fiziki nəzəriyyələrin mükəmməl olmasını əks etdirməyib, həm də fiziki hadisələrin ziddiyətli reallıqlarına şahidlik edir. Güman etmək olar ki, təbiət qapalı və mükəmməl sistem deyil, lakin daha nəhəng ("fizikadan xaric") sistemin hissəsi olub, ondan əhəmiyyətli dərəcədə asılıdır.biz burada fizikada ziddiyətlər probleminə yeni yanaşmaya təşəbbüs edəcəyik. Qeyri - klassik fiziki nəzəriyyə (XNN, UNN, kvant nəzəriyyəsi) ziddiyətlərlə doludur. Bu nəzəriyyənin meydana gəlməsi fiziki obyektlərin təbiətində aşkarlanan ziddiyətlərin izahına təşəbbüslə əhəmiyyətli dərəcədə əlaqədar olmuşdur.

Nisbilik nəzəriyyəsi elektrodinamika ilə klassik mexanika (müəyyən olunmuşdur ki, Qalileyin nisbilik prinsipi işıq dalğalarının hərəkətini ödəmir, belə ki, işıq sürəti nə mənbəyin, nə də qəbuledicinin hərəkətindən asılı deyil, vakuumda həmişə eyni qiymətə malikdir) arasındakı ziddiyətləri həll etməyə çalışmışdır.

Kvant mexanikasma formal olaraq mikro obyektlərin paradoksal ikili təbiətinin izahına təşəbbüs kimi baxmaq olar: bir halda onlar özlərini nöqtəvi obyekt (maddi zərrəcik) kimi aparır, digər halda isə - dalğa xassəsini göstərir. Belə ki, bu nəzəriyyələr bir paradoksu həll etməklə, yeni paradokslar (XNN - ekizlər paradoksu, fırlanan çaxr paradoksu ("Erenfest paradoksu"), "sualtı qayıq" paradoksu, ling paradoksu və s. kvant nəzəriyyəsində dalğa funksiyasının reduksiyası paradoksu, Şredingerin pişiyi paradoksu, Eynşteyn - Podolski - Rozen paradoksu və s.) yaradır.[1,2]

Belə təsəvvür yaranır ki, biz, heç bir zaman ziddiyətlərdən xilas ola bilməyəcəyik - bir ziddiyəti aradan qaldırarkən həmin andaca çoxlu yeni ziddiyətlər aşkar edilir.

Ziddiyətlərin əmələ gəlməsinin səbəbi nədir? Bir qayda olaraq güman edilir ki, ziddiyət - bizim nəzəriyyələrin mükəmməl olmasının nəticəsidir. Bizə deyirlər: təbiət heç vaxt öz - özlüyündə ziddiyətli ola bilməz. Deməli mükəmməl nəzəriyyələr paradokslardan azaddır. Bu belədirmi? Fiziki ziddiyətlərin xarakterinə diqqətlə baxaq. Görünür ki, bir sıra hallarda ziddiyətlər xəyali xarakter daşıyır, paradoksallığın hiss olunması, adətən qeyri adi görünən hadisələr zamanı (məsələn ekizlər paradoksu) özünü göstərir. Digər hallarda isə təbii ziddiyətlər meydana çıxır. Bu ziddiyətləri "nəzəriyyə daxili" və "nəzəriyyələr arası" kimi iki qrupa bölmək olar. Birinci halda eyni nəzəriyyə daxilində müxtəlif vəziyyətlər arasında ziddiyətlər meydana çıxır. Buna misal olaraq kvant mexanikasmda dalğa funksiyasının reduksiyası paradoksunu göstərmək olar. Bir tərəfdən istənilən fiziki prosesdə olduğu kimi ölçmə prosesi Şredinger tənliyinə tabe olan dalğa funksiyası ilə təsvir edilməlidir. Belə olan halda biz ölçmədə müəyyən nəticə almırıq - mikroobyektlərin qarşılıqlı təsiri nəticəsində

cihaz sadəcə olaraq ölçülən kəmiyyətin bütün qiymətlərini əks etdirən makro halın superpozisiya vəziyyətinə keçir. Buna görə də, riyazi aparatla real vəziyyətin uyğunluğu üçün "dalğa funksiyasının reduksiyası" kimi əlavə postulatın daxil edilməsi lazım gəlir ki, bu da Şredinger formalizmi ilə heç cür uzlaşmır. Beləliklə, dalğa funksiyasının reduksiya postulatı, kvant sisteminin təkamülünün Şredinger təsvirinin universal postulatlaşdırılması ilə ziddiyət təşkil edir. Başqa bir halda isə ziddiyət, reallığı müxtəlif səviyyədə təsvir etmək üçün fiziki nəzəriyyələri birləşdirməyə təşəbbüs edilərkən meydana çıxır.[3]

Klassik mexanika ilə klassik elektrodinamika arasında, klassik və kvant mexanikası (kvant mexanikası göstərir ki, "makroskopik superpozisiya" real müşahidə olunmayan makro və mikro obyektlərin qarşılıqlı təsiri zamanı meydana çıxmalıdır (Şredingerin pişiyi paradoksu), hmçinin makro obyektlərin dalğa paketinin yayılması həqiqətdə müşahidə olunmur) arasında ziddiyətlər mövcuddur. [5]

Klassik və kvant mexanikası arasındakı ziddiyətlərin mövcudluğu bir tərəfə, digər tərəfdən isə termodinamika ilə (klassik və kvant mexanikası tənlikləri zamana görə dönəndir, onda, termodinamika çoxlu sayda mikrozərrəciklərin təbiətində real aşkarlanan dönməzliyin mövcudluğunu postulatlaşdırır) kvant mexanikası arasındakı ziddiyətlər hamı tərəfindən qəbul edilmişdir. Kvant mexanikası ilə ümumi nisbilik nəzəriyyəsi (hansı ki, kvant qravitasiya nəzəriyyəsinin yaranmasını çətinləşdirir) arasında da ziddiyətlər mövcuddur.

Belə bir təsəvvür yaranır ki, müxtəlif vəziyyətlərdə təbiət obyektləri müxtəlif fəza – zaman ölçüsünə başqa cür bir – birinə məntiqi yerləşməyən qanunla tabe olur, bu həqiqətənmi belədir, yoxsa biz, nəzəriyyələrimizin mükəmməl olmamasından yaranan illüziya ilə məşğuluq?

Bizim nöqteyi nəzərimizcə fiziki obyektlərin ziddiyətli xüsusiyyətlərə malik olması üçün mümkün olmayan heç nə yoxdur. Ziddiyətsizliyə tələb belə gümana əsaslanır ki, "təbiət aləmi" müşahidə etdiyimiz bütün fiziki hadisələri müstəqil əmələ gətirir və özlüyündə hansısa qapalı tamamlanmış sistem deyil, əksinə daha nəhəng sistemin bir hissəsi olub, ondan əhəmiyyətli dərəcəə asılıdır. Bu halda etiraf etməliyik ki, təbiət yəqin ki, bütün müşahidə olunan fiziki fenomenləri müstəqil əmələ gətirməyə qadir deyildir. Onda dünyanın fiziki mənzərəsinin özünü təsdiqini tələb etməyə zərurət yoxdur. Müxtəlif fraqmentlər və reallıq səviyyələri tamamilə fərqli və hətta məntiqi uzlaşmayan qanunlara tabe ola bilər. Əsas məsələ budur ki, bu qanunlar eyni zamanda və eyni fiziki vəziyyətdə aşkar olunmasın.

Burada əyani nümunə kimi korpuskulyar dalğa dualizmini göstərə bilərik. Borun əlavəlik prinsipinə müvafiq olaraq mikro obyektlərin dalğa və korpuskulyar xüsusiyyətləri tamamilə müxtəlif, kəsişməyən vəziyyətlərdə meydana çıxır. Beləliklə eyni bir obyektin həm dalğa, həm də zərrəcik kimi məntiqi uyğun olamayan təsvirinə baxmayaraq, aparılan təcrübədə heç bir nəzərə çarpan ziddiyətlər baş vermir.

Ədəbiyyat

1. Кондратьев А.С., Прияткин Н.А., Современные физика Изд-во С.Петербургского университета, 2006
2. Пуанкаре А.О. науке М, 1990
3. Пул. Л.П. Работа на персональном компютере Пермь. 1986 383с
4. Эйнштейн А. Сушность теории относительном=сти М. 1965
5. Николаев Г.В. Современная электродинамика и причины ее парадоксальности М.2008

FİZİKADA PARADOKSLARA YENİ YANAŞMA

Bəşirov M.B., Dos. Quliyev N.İ., Dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Bizim nöqteyi nəzərimizcə fiziki obyektlərin ziddiyətli xüsusiyyətlərə malik olması üçün mümkün olmayan heç nə yoxdur. Ziddiyətsizliyə tələb belə gümana əsaslanır ki, "təbiət aləmi" müşahidə etdiyimiz bütün fiziki hadisələri müstəqil əmələ gətirir və özlüyündə hansısa qapalı tamamlanmış sistem deyil, əksinə daha nəhəng sistemin bir hissəsi olub, ondan əhəmiyyətli dərəcəə asılıdır. Bu halda etiraf etməliyik ki, təbiət yəqin ki, bütün müşahidə olunan fiziki fenomenləri müstəqil əmələ gətirməyə qadir deyildir. Onda dünyanın fiziki mənzərəsinin özünü təsdiqini tələb etməyə zərurət yoxdur. Müxtəlif fraqmentlər və reallıq səviyyələri tamamilə fərqli və hətta məntiqi uzlaşmayan qanunlara tabe ola bilər. Əsas məsələ budur ki, bu qanunlar eyni zamanda və eyni fiziki vəziyyətdə aşkar olunmasın.

A NEW APPROACH TO PARADOXES IN PHYSICS

Bashirov M.B., As.pr. Guliev N.İ., As.pr. İmanov R.M.
Ganja State University

From our point of view, there is nothing impossible for physical objects to have conflicting properties. The requirement of non-contradiction is based on the assumption that the "natural world" independently forms all the physical phenomena we observe and is not a closed complete system in itself, but is part of a larger system and depends significantly on it. In this case, we must admit that nature is probably not able to independently form all the observed physical phenomena. Then there is no need to demand self-affirmation of the physical picture of the world. Different fragments and levels of reality can be completely different and even subject to illogically incompatible laws. The main thing is that these laws are not revealed at the same time and in the same physical condition.

НОВЫЙ ПОДХОД К ПАРАДОКСАМ В ФИЗИКЕ

Баширов М.Б., доц. Гулиев Н.И., доц. Иманов Р.М.
Гянджинский Государственный Университет

С нашей точки зрения, нет ничего невозможного в том, чтобы физические объекты обладали противоречивыми свойствами. Требование непротиворечия основано на предположении, что «природный мир» самостоятельно формирует все наблюдаемые нами физические явления и не является замкнутой целостной системой сам по себе, а является частью более крупной системы и существенно от нее зависит. В этом случае приходится признать, что природа, вероятно, не в состоянии самостоятельно формировать все наблюдаемые физические явления. Тогда не нужно требовать самоутверждения физической картины мира. Разные фрагменты и уровни реальности могут быть совершенно разными и даже подчиняться нелогически несовместимым законам. Главное, чтобы эти законы не проявлялись одновременно и в одном и том же физическом состоянии.

FOTOSİNTEZ PROSESİNDƏ FOTOSİNTETİK VAHİD DAXİLİ VƏ FOTOSİNTETİK VAHİDLƏR ARASI ENERJİ DAŞINMASINA YENİ YANAŞMA

Dos. Quliyev N.İ., dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Açar sözlər: fluorensiya, lazer, enerji ötürülməsi, reaksiya mərkəzi, fluoresent

Key words: fluorescence, laser, energy transfer, reaction center, fluoresent

Fotosintez prosesinin işıq mərhələsində Fotosistem 1 (FS1) və fotosistem 2 (FS2) piqment komplekslərində bu sistemlərin müxtəlif fiziki xarakteristikalarının ölçülməsinə əsaslanmış enerji ötürülməsi sürətinin qiymətləndirilməsi ilk dəfə A.Y.Borisovun işlərində yerinə yetirilmişdir.[1,2] Xloroplastların və FS2 hissəciklərinin fluorensiyasının yaşama müddəti təcrübi olaraq ölçülmüşdür. Müəlliflər FS1 üçün τ_{f1} yaşama müddəti nəzəri olaraq hesablanmışdır. Bu zaman istifadə olunan kəmiyyətlər xloroplastlarda və onların FS1 və FS2 ilə zənginləşdirilmiş fraqmentlərində ölçülmüşdür. Bu kəmiyyətlər xloroplastlarda və onların FS1 və FS2 ilə zənginləşdirilmiş fraqmentlərində ölçülmüşdür. Bu kəmiyyət <0,03ns olmuşdur.

1973-cü ildən başlayaraq fotosintetik membranlarda xlorofilin fluorensiyasının yaşama müddətinin lazer spektroskopiyası üsulu ilə ölçülməsi barədə xəbərlər verən məqalələr çap olunmağa başlayır. 1980-ci ilə qədər yerinə yütirilmiş tətqiqatlarm icmalı Moyya tərəfindən aparılmışdır.[3] İmpulsda fotonların yüksək sıxlığına malik lazer mənbələrindən istifadə olunması piqmentlərin matrisində qeyri-xətti effektlərin inkişafına və fluorensiyasının yaşama müddətinin xeyli azalmasına gətirib çıxarır. Lazer şüalarının intensivliyinin azalması ölçmələrin dəqiqliyinin azalması ilə müşaiyət olunur.[4]

70-ci illərin əvvəllərindən başlayaraq enerji ötürülməsi prosesini təsvir etmək üçün FS1 və FS2 spektrlərinin müxtəlif zolaqlarında fluorensiyasının mütləq kvant çıxışlarının temperatur asılığının tətqiqi üsulu inkişaf edir. Molekulyar konstantların, o cümlədən reaksiya mərkəzində enerjinin tutulma sürətinin hesablanması, rəqsi realaksiyalar nəzərə alınmaqla donor-akseptor ötürməsi nəzəriyyəsinə əsasən aparılmışdır. Fotosintetik aparatın piqment sistemlərinin fluoresent xarakteristikalarının temperatur asılığının ölçülməsi üsulu enerji ötürülməsi prosesini ardıcıl kəmiyyət təsvirini almağa imkan verir. Ancaq belə yanaşma ötürmənin bütün sabitlərinin hesabını aparmaq üçün kifayət qədər məlumat verir. Son zamanlar bir sıra tətqiqatçıların bu üsula müraciət etmələri irəli sürülən bu nöqteyi nəzərin doğruluğunu sübut edir.

Beləliklə, fluoresensiyanın yaşama müddətinin ölçülməsi üzrə təcrübi nəticələrin qısa icmalı FS2-nin işıqtoplama piqment sistemlərində enerjinin reaksiya mərkəzlərinə kifayət qədər tez ötürülməsi nəticəsini çıxarmağa imkan verir. Məhz bunun sayəsində xlorofilin fluoresensiyasının yaşama müddəti, bu kəmiyyətin məhluldakı qiyməti ilə müqayisədə demək olar ki, 100 dəfə azalır.

Xloroplastların və FS2-nin piqment sistemində Sinqlet-Sinqlet annihilyasiyasının müşahidə olunması, müəyyən nəzəri düsturlara əsaslanaraq enerji ötürülməsinin sürətini hesablamağa imkan verdi. Fotosintetik vahidin (FSV)-nin statistik modelinin qəbul oluna bilməsi fərziyyəsi ilə fluorensiyanın nisbi çıxışının həyacanlaşdırıcı lazer impulsunun intensivliyindən nəzəri asılığı ümumiləşdirilmişdir. Onların təcrübi ölçmələrlə müqayisəsi, annihilyasiya sabitinin qiymətini almağa imkan verdi. Bu kəmiyyət xloroplastların piqment komplekslərində həyacanlaşma diffuziyasının əmsalını və diffuziyanın uzunluğunu hesablamaq üçün istifadə olunmuşdur.

FSV-də enerji ötürülməsinə həsr olunmuş tətqiqatların icmalı Moyyanın yeni işində öz əksini tapmışdır. FS2-yə aid olan nəticələrin analizinin əsas nəticəsi odur ki, FSV-lər arasında effektiv enerji mübadiləsinin mövcudluğu

haqqında fərziyyələr kifayət qədər sübut olunmuş olur. Ona görə də bu halda statistik model və ya Jolio tərəfindən təklif olunan model qəbul oluna bilər. Bu modelə görə fəzada ayrılmış FSV-lər, FSV daxili ötürmənin sürətindən az sürətlə enerji mübadiləsində olurlar. FSl-ə görə rəylər fərqlənirlər. Bəziləri belə hesab edirlər ki, bu halda avto model işləyir. Digərləri isə FSV- lər arasında enerji mübadiləsinin mövcud olduğunun bildirirlər. Göstərmək olar ki, Qiasitovun işləri axırıncı nöqtəyi nəzəri təstiq edir. Bu, FS1 və FS2-yə məxsus 685 və 735 nm maksimumlu zolaqlarda fluoresensiyanın nisbi çıxışının həyacanlaşdırıcı işığın intensivliyindən asılılıqlarının üst-üstə düşməsindən görünür. Oz növbəsində bu asılılıqlar statistik FSV modelindən hesablanmış nəzəri qiymətlərlə yaxşı üst-üstə düşür, avto FSV modeli isə pis uyğunlaşır. FSl-nin işıqtoplayıcı piqmentlərinin fluorensiyasının kvant çıxışının aşağı olması, eləcə də yaşama müddətinin kiçik qiymətləri göstərir ki, FSl-in bu hissəsində enerji ötürülməsi kifayət qədər tez baş verir ki, bu da avto FSV modelinin qəbul oluna bilməsinin əleyhinə olan dəlildir.

Beləliklə, müasir nəticələr əsasında belə mülahizə yürütmək olar ki, həm statistik, həm də avto modellər praktik hallarda realizasiya oluna bilmir. Üstünlüyü o modelə vermək lazımdır ki, ona uyğun olaraq fəzaca ayrılmış FSV-lər enerji mübadiləsində olurlar. Bu vəziyyəti nəzərə alaraq, enerji ötürülməsinin orta sürətinin təqribi hesablamaları üçün statistik FSV haqqında təsəvvürlərdən istifadə etmək olar. Xlorofilin ayrı-ayrı formaları arasında enerji ötürülməsinin sürəti barədə nəticələr alınması FSV daxili və arası ötürmənin sürətlərinin daha dəqiq qiymətlərinin müəyyən edilməsinə xidmət edə bilər. Bu isə FS1 və FS2-də FSV-lər arasındakı məsafəni qiymətləndirməyə imkan verər.

Ədəbiyyat

1. Борисов А.Ю., Ильина М.Д. Время жизни и выход флуоресценции двух фотохимических систем высших растений – Биохимия, 1971, 36, вып. 4, С. 822-825
2. Borisov A., Yn., Jlina M.D. The fluoresence lifetime and enerjy miqration mechanism in photosystem I of plants – Biochim. Et biophys. Acta, 1973, 305, 2, p.364-371
3. Moya I. Time- resolvedfluoresence and photosynthesis – İbid., p. 755-765
4. Reisberg P., Nairn J.A., Sauer K. Picosecond fluoresencekinetics in spinach chloroplasts at loü temperature – Photochem and Photobiol. Res. Communs, 1982, 36, N6,p. 657-662.

FOTOSİNTEZ PROSESİNDƏ FOTOSİNTETİK VAHİD DAXİLİ VƏ FOTOSİNTETİK VAHİDLƏR ARASI ENERJİ DAŞINMASINA YENİ YANAŞMA

Dos. Quliyev N.İ., Dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Müasir nəticələr əsasında belə mülahizə yürütmək olar ki, həm statistik, həm də avto modellər praktik hallarda realizasiya oluna bilmir. Üstünlüyü o modelə vermək lazımdır ki, ona uyğun olaraq fəzaca ayrılmış FSV-lər enerji mübadiləsində olurlar. Bu vəziyyəti nəzərə alaraq, enerji ötürülməsinin orta sürətinin təqribi hesablamaları üçün statistik FSV haqqında təsəvvürlərdən istifadə etmək olar. Xlorofilin ayrı-ayrı formaları arasında enerji ötürülməsinin sürəti barədə nəticələr alınması FSV daxili və arası ötürmənin sürətlərinin daha dəqiq qiymətlərinin müəyyən edilməsinə xidmət edə bilər.

A NEW APPROACH TO ENERGY TRANSPORTATION BETWEEN PHOTOSYNTHETIC UNIT AND INTERNAL AND PHOSYSTYNETIC UNITS IN THE PHOTOSYNTHESIS PROCESS

As.pr. Guliev N.İ., As.pr. İmanov R.M.
Ganja State University

Based on modern results, it can be assumed that both statistical and car models can not be realized in practice. Preference should be given to the model according to which space-separated FSVs are in energy exchange. Given this situation, statistical FSV assumptions can be used to approximate the average speed of power transmission. Obtaining conclusions about the rate of energy transfer between different forms of chlorophyll can serve to determine more accurate estimates of the rates of internal and intermediate transmission of FSV.

НОВЫЙ ПОДХОД К ТРАНСПОРТИРОВАНИЮ ЭНЕРГИИ МЕЖДУ ФОТОСИНТЕТИЧНЫМИ ЗВЕЗДАМИ И ВНУТРЕННИМИ И ФОСИСТИНЕТИЧЕСКИМИ ЗВЕЗДАМИ В ПРОЦЕССЕ ФОТОСИНТЕЗА

Доц. Гулиев Н.И., Доц. Иманов Р.М.
Гянджинский Государственный

На основании современных результатов можно предположить, что как статистическая, так и автомобильная модели не могут быть реализованы на практике. Предпочтение следует отдать модели, согласно которой пространственно-разнесенные FSV находятся в энергообмене. Учитывая эту ситуацию, можно использовать статистические допущения FSV для аппроксимации средней скорости передачи энергии. Получение выводов о скорости передачи энергии между различными формами хлорофилла может служить для определения более точных оценок скоростей внутренней и промежуточной передачи ЛСВ.

SİRKONİUMUN (IV) ZEFİRAMİN İŞTİRAKI İLƏ QALEİNAT VƏ DİBROMQALLEİNAT KOMPLEKSLƏRİNİN SPEKTROFOTOMETRİK TƏDQİQİ

k.ü.f.d.İbrahimov H.İ.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı ş.

Açar sözlər: sirkonium, dibromgallein, zefiramin
Ключевые слова: цирконий, дибромгаллеин, зефирамин
Key words : zirconium , dibromgallein, zefiramin

Sirkoniumun (IV) üçlü kompleks şəklində fotometrik təyini üçün bir çox üsullar işlənib hazırlanmışdır. Bu üsullar arasında sirkoniumun (IV) kation tipli səthi aktiv maddə olan setilpiridinium bromid iştirakı ilə üçlü qalleinat və dibromqalleinat kompleksləri yer almamışdır.

Buna baxmayaraq, bir çox digər elementlərin, o cümlədən $Al, Ga, Sn, Sc, Hf, Nb, Ta, Mo, W$ [1-2;5-6] və s.-nin üçlü qalleinat və dibromqalleinat kompleksləri öyrənilərək, onların əsasında fotometrik üsullar işlənib hazırlanmışdır. Bu üsulların əksəriyyətində üçüncü komponent kimi səthi aktiv maddə olaraq setilpiridinium bromid (SP), bəzi hallarda isə setiltrimetilammonium bromiq $(STMA)$ tətbiq edilmişdir [3-4]/ Bu komplekslər əsasında işlənmiş fotometrik analiz üsullarının yüksək həssaslığını nəzərə alaraq, üçüncü komponent kimi digər səthi aktiv maddələrin tətbiqi də məqsədəuyğundur.

Bunu əsas götürərək, təqdim edilən işdə sirkoniumun (IV) zefiramin (ZA, tetradesil dimetilbenzilammonium $[(C_{10}H_{21})_4N]CH_2C_6H_4(CH_3)_2])$ iştirakı ilə qalleinat (Q) və dibromqalleinat (DBQ) komplekslərinin əmələgəlmə şəraiti öyrənilmişdir.

Təcrübələrlə müəyyən edilmişdir ki, $Zr(IV)$-Q-ZA üçlü kompleksi pH 1,3-1,7 intervalında, $Zr(IV)$-DBQ-ZA kompleksi isə pH 1,0-1,5 intervalında maksimum işıqudmaya malik olur. Məlum olmuşdur ki, zefiramin iştirakı ilə həm $Zr(IV)$-Q-ZA üçlü kompleksi, həm də $Zr(IV)$-DBQ-ZA üçlü kompleksi pH-ın yalnız bir intervalında maksimum işıqudmaya malik olurlar ki, bu da sirkoniumun (IV) hər iki halda sabit tərkibə malik yalnız bir kompleksinin əmələ gəldiyini göstərir.

Təcrübələrlə müəyyən edilmişdir ki, $Zr(IV)$-Q-ZA kompleksi pH 1,3-1,7 intervalında qırmızımtıl-bənövşəyi rəngə, $Zr(IV)$-DBQ-ZA kompleksi isə pH 1,0-1,5 intervalında göyümtül-bənövşəyi rəngə malik olur. Bu komplekslərin optimal çıxımına uyğun gələn dalğa uzunluqlarını müəyyən etmək üçün onların işıqudma spektrləri çıxarılmışdır.

İşıqudma spektrlərindən müəyyən edilmişdir ki, $Zr(IV)$-Q-ZA kompleksi $\boldsymbol{\lambda}$= $580nm$ -də, $Zr(IV)$-DBQ-ZA kompleksi isə $\boldsymbol{\lambda}$= $600nm$ -də maksimum optiki sıxlığa malik olur. $Zr(IV)$-Q-ZA və $Zr(IV)$-DBQ-ZA komplekslərinin pH-dan asılılıq əyrilərində olduğu kimi, işıqudma spektrlərindən də hər iki halda sabit tərkibə malik yalnız bir kompleksin əmələ gəldiyi görünür. Molyar nisbətlər və izomolyar seriya üsulları ilə $Zr(IV):Q$ və $Zr(IV):DBQ$ nisbətlərinin ikili komplekslərdə olduğu kimi 1 : 2 nisbətində olduğu müəyyən edilnişdir.

İzomolyar seriya üsulu ilə alınmış qrafikdə ekstrapolyasiya edilmiş düz xəttlərin kəsişmə nöqtəsindən absis oxuna endirilən perpendikulyar həmin oxu komponentlərin 0,66:1,34 = 1:2 nisbətində kəsir.

$Zr(IV)$-Q-ZA və $Zr(IV)$-DBQ-ZA komplekslərində $Zr(IV):ZA$ nisbət- lərini öyrənmək üçün Starik və Barbanelin nisbi çıxım və tarazlığın yerdəyişməsi üsullarından istifadə edilmişdir.

Starik və Barbanelin nisbi çıxım üsulu ilə $Zr(IV):ZA$ nisbətlərini öyrənmək üçün metal ionunun qatılığını sabit saxlayaraq, zefiraminin müxtəlif qatılıqlarında kompleks məhlulunun optiki sıxlıqları ölçülmüş və alınmış nəticələrə əsasən $\Delta A/C_R - \Delta A/A_{max}$koordinatlarında əyri qurulmuşdur.

Tarazlığın yerdəyişməsi üsulu ilə $Zr(IV):ZA$ nisbətlərini müəyyən etmək üçün metal ionunun qatılığını sabit saxlamaqla zefiraminin müxtəlif qatılıqlarında alınan üçlü komplekslərin optiki sıxlıqları ölçülmüş və alınmış nəticələr əsasında $lg\,A/A_{max} - A$ $\lg A/A_{\max} - A$ və $-lg[ZA]$ koordinatlarında qrafik qurulmuıdur. Alınan düz xəttlərin absis oxu ilə əmələ gətirdiyi bucağın tangensinə əsasən stexiometrik əmsallar nüəyyən edilmişdir. Bütün hallarda komponentlərin stexiometrik nisbətləri $Zr(IV):Q(DBQ):ZA$ = 1:2:2 kimi olmuşdur.

Sirkoniumun (IV) zefiamin iştirakı ilə qallein və dibromqalleinlə əmələ gətirdiyi üçlü komplekslərin spektrofotometrik xassələrinin təhlili göstərir ki, hər iki kompleks titanın (IV) fotometrik təyini üçün perspektivli hesab oluna bilər. Bunu nəzərə alaraq, $Zr(IV)$-Q-ZA və $Zr(IV)$-DBQ-ZA komplekslərinin metal ionunun qatılığından asılılıqları öyrənilmiş və müəyyən olunmuşdur ki, $Zr(IV)$-Q-ZA kompleksi üçün sirkonium (IV) ionunun $3{,}1 - 43{,}7\ mkq/25\ ml$ qatılığında, $Zr(IV)$-DBQ-ZA kompleksi üçün isə sirkonium (IV) ionunun $2{,}1 - 25{,}1\ mkq/25\ ml$ qatılığında bu asılılıqlar xəttidir və fotometriyanın əsas qanunu olan Ber qanununa tabe olur.

Alınmış nəticələrə əsasən sirkoniumun (IV) zefiramin iştirakı ilə üçlü qalleinat və dibromqalleinat komplekslərinin molyar işıqudma əmsalları hesablanmışdır.

$Zr(IV)$-Q-ZA kompleksi üçün molrar işıqudma əmsalının qiyməti $\varepsilon = 3{,}9 \cdot 10^4$, $Zr(IV)$-DBQ-ZA kompleksi üçün isə molrar işıqudma əmsalının qiyməti $\varepsilon = 6{,}8 \cdot 10^4$ $\varepsilon = 8{,}21 \cdot 10^4$ olmuşdur.

Ən kiçik kvadratlar üsulundan istifadə edərək, sirkoniumun (IV) zefiramin iştirakı ilə üçlü qalleinat və dibromqalleinat komplekslərinin optiki sıxlıqlarını hesablamaq üçün korrelyasiya tənlikləri çıxarılmışdır . Bu tənliklərin köməyilə analiz edilən məhlulun ölçülmüş optiki sıxlığına əsasən, dərəcələmə əyrisindən istifadə etmədən, nümunədəki sirkoniumun (IV) miqdarını mkq və ya $q - ion/l$-lə hesablamaq olar (3,s.658; 4,s.249;) .

Alınmış nəticələr göstərir ki, sirkoniumun (IV) zefiramin iştirakı ilə üçlü qalleinat və dibromqalleinat kompleksləri onun fotometrik təyini üçün çox perspektivlidir. $Zr(IV)$-Q-ZA və $Zr(IV)$-DBQ-ZA kompleksləri əsasında işlənmiş yeni fotometrik təyin üsulları öz yüksək həssaslığı, sadəliyi və tez yerinə yetirilə bilməsi ilə fərqlənir.

Elmi işin nəticələri nəzəri və praktiki əhəmiyyətə malikdir.Sirkoniumun (IV) sintez edilmiş iki yeni kompleksi bu elementin koordinasion birləşmələr kimyasını zənginləşdirməklə bərabər, onun cüzi miqdarlarını müvafiq ayırma üsulları və pərdələyici reagentlər tətbiq etməklə ən müxtəlif nümunələrdə yüksək həssaslıq və dəqiqliklə təyin etməyə imkan verir.

Ədəbiyyat

1. Антонович В.П.,Ибрагимов Г.И.,Невская ,Е.М., Ж. аналит. химии, 33, 938, 1979
2. İbrahimov H.İ., Sərdarlı A.M. AMEA və Y.Məmmədəliyev ad.NKPİ-nin birgə keçirdiyi ak.M.Nağıyevin 110 illiyinə həsr olunmuş "Nağıyev -qiraətləri" elmi konfransının materialları, Bakı, 7-8 noyabr, , 2018
3. İbrahimov H.İ., AMEA və Gəncə DU-nin birgə keçirdiyi "Müasir təbiət elmlərinin aktual problemləri" Beynəlxalq Elmi konf-nın materialları, Gəncə, 03-04 may,2019
4. Kuliev K. A., Ismailova Sh. Y., Aliyev S.G., Mamedova Sh.A. Indo american journal of pharmaceutical sciences IAJPS 2019, 06 (02), page 3267
5. Назаренко В.А., Антонович В.П. Триоксифлуороны, Москва, 1973
6. Zalov A. Z. ,. Kuliev K. A, İbrahimov H.İ., Suleimanova G. S., Novruzova N. A., Bakhshieva U. Sh. Journal of Multidisciplinary Engineering Science and Technology (JMEST) ISSN: 2458-9403 Vol. 6 Issue 3, Berlin, March – 2019, page 9600

SİRKONİUMUN (IV) ZEFİRAMİN İŞTİRAKI İLƏ QALEİNAT VƏ DİBROMQALLEİNAT KOMPLEKSLƏRİNİN SPEKTROFOTOMETRİK TƏDQİQİ

İbrahimov H.İ.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı ş.

Xülasə

Sirkonyumun zefiraminin iştirakı ilə gallein (Q) və dibromogalleinlə (DBQ) olan yeni üçlü kompleksləri sintez edilmiş və spektrofotometrik olaraq öyrənilmişdir. $Zr(IV)$-Q-ZA və $Zr(IV)$-DBQ-ZA kompleksləri əsasında işlənmiş yeni fotometrik təyin üsulları öz yüksək həssaslığı, sadəliyi və tez yerinə yetirilə bilməsi ilə fərqlənir.

Elmi işin nəticələri nəzəri və praktiki əhəmiyyətə malikdir.Sirkoniumun (IV) sintez edilmiş iki yeni kompleksi bu elementin koordinasion birləşmələr kimyasını zənginləşdirməklə bərabər, onun cüzi miqdarlarını müvafiq ayırma üsulları və pərdələyici reagentlər tətbiq etməklə ən müxtəlif nümunələrdə yüksək həssaslıq və dəqiqliklə təyin etməyə imkan verir.

СПЕКТРОФОТОМЕТРИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ГАЛЛЕИНАТНЫХ И ДИБРОМГАЛЛЕИНАТНЫХ КОМПЛЕКСОВ ЦИРКОНИЯ В ПРИСУТСТВИИ ЗЕФИРАМИНА

Ибрагимов Г.И.

Резюме

Синтезирован и спектрофотометрически изучен новый тройной комплекс циркония с галлеином (Q) и дибромгаллеином (DBQ) в присутствии зефирамина. На основе тройных систем $Zr(IV)$-Q-ZA и $Zr(IV)$-DBQ-ZA разработаны новые высокочувствительные фотометрические методы определения циркония.

Научный результат - синтез и исследование двух новых тройных соединений циркония. Научная и практическая ценность полученных результатов состоит в том, что они обогащают химию координационных соединений и аналитическую химию циркония и позволяют определять его микроэлементы в различных объектах.

SPEKTROFOTOMETRICHAL RESEARCH OF THREEFOLD GALLEINATNY AND DIBROMGALLEINATNY COMPLEXES OF ZIRCONIUM IN PRESENCE ZEFIRAMIN

İbrahimov H.İ.

Summary

Synthesized and spektrofotometrichal is studied new triple complexes of zirconium with a gallein (Q) and dibromgallein (DBQ) in presence zefiramin. On the basis of the triple systems of $Zr(IV)$-Q-ZA and $Zr(IV)$-DBQ-ZA is worked out new highly sensitive photometric methods of determination of zirconium .

A scientific result are a synthesis and research of two new complex connections of zirconium. The scientific and practical value of the got results consists of that enrich chemistry of coordinating connections and analytical chemistry of zirconium and allow to determine his trace-elements in different objects.

STRUKTUR TEMPERATURU KƏMİYYƏTİ VƏ SULU MƏHLULLARIN STRUKTURU

f.r.e.n.Həsənov A. Ə., f.ü.f.d. Həsənova X. T., Bağırova S. R.
Bakı Dövlət Universiteti

Açar sözlər: struktur temperaturu, sulu məhlullar, hidrogen əlaqəsi, özlülük, özlü axının aktivləşmə enerjisi.

Key words: structural temperature, aqueous solutions, hydrogen bond, viscosity, viscous flow activation energy

Mayelərin nəzəriyyəsi bir sıra hallar, məs., kvant mayesi olan – maye helium üçün istisna olmaqla hələ də qurulmamış olaraq qalır. Bununla belə, yarı nəzəri, yarı məntiqi-analitik mülahizələrin köməyilə müxtəlif modellər verməklə mayelərin bəzi xassələri və onların xarici amillərdən asılılıqları izah edilmiş, bu asılılıqların analitik şəkli müəyyən edilmişdir. Məsələn, mayelərin özlülüyünün temperaturdan asılılığı məşhur Frenkel-Eyrinq nəzəriyyəsinə [1] görə

$$\eta(T) = \eta_0 e^{\frac{\Delta G}{RT}} \qquad (1)$$

şəklindədir. Burada η_0 verilmiş maye üçün sabit kəmiyyətdir, fiziki mənaca çox böyük temperaturlarda mayenin, daha doğrusu artıq həmin "maye"nin qaz halda malik olduğu özlülükdür və ədədi qiyməti qazların özlülüyü ($10^{-4} \div 10^{-5}$ Pa·san) tərtibindədir; ΔG – verilmiş

maye molekullarının özlü axınının aktivləşmə sərbəst enerjisidir.



Şəkil 1



Şəkil 2

Frenkel-Eyrinq düsturu, əksər mayelərin özlülüyünün temperaturdan asılılığını çox yüksək korrelyasiya əmsalı dəqiqliyi ilə ifadə edir. Belə mayelərdən olan etanolun özlülüyünün temperatur asılılığı η — 1/T koordinatlarında şəkil 1-də verilmişdir. Şəkildən göründüyü kimi Frenkel-Eyrinq düsturu ilə ifadə edilən analitik əyri təcrübi nöqtələrdən kifayət qədər yüksək korrelyasiya əmsalı (r^2=0,9999) ilə keçir.

Daxili strukturu hidrogen rabitələrindən ibarət fəza toru ilə müəyyən edilən, yəni müəyyən struktura malik olan su və sulu məhlulların özlülüklərinin temperatur asılılığından isə Frenkel-Eyrinq düsturu əsasında belə analitik əyri eksperimentin aparılma dəqiqliyindən asılı olmayaraq ideal şəkildə keçirilə bilmir (şəkil 2). Təbii ki, bunun əsl fiziki səbəbi ondan ibarətdir ki, temperatur asılılığının baxıldığı temperatur oblastında ΔG sabit qalmır və temperaturun funksiyasıdır. Belə ki, temperaturun dəyişməsilə hidrogen rabitələrindən ibarət fəza toru da dəyişir: temperatur artdıqca bu rabitələr qırılır, temperatur azalanda isə əksinə, belə rabitələrin sayı artır. Nəticədə eksperimental nöqtələrin Frenkel-Eyrinq düsturu ilə ifadə olunan analitik əyridən sistematik kənaraçıxmaları baş verir; temperaturun kiçik qiymətlərində mayenin özlülüyü Frenkel-Eyrinq düsturu ilə hesablandığından daha böyük olmağa başlayır.

XX əsrin 70-80-ci illərində Uberreyter suyun və bir sıra sulu məhlulların özlülüklərinin temperaturdan asılılığını daha yüksək dəqiqliklə ifadə etmək üçün çoxsaylı empirik düsturlardan biri olan Vogel düsturundan

$$\eta(T) = \eta_0 e^{\frac{B}{T - T_{str.}}} \qquad (2)$$

istifadə etmişdir [2]. Uberreyter bu düsturdan istifadə edərkən belə bir aşkar ideyaya əsaslanmışdı ki, hidrogen rabitələrinin mövcudluğu hesabına su və sulu məhlulların özlülüyü temperaturun azalması ilə struktursuz mayelərdə olduğuna nisbətən daha sürətlə artır və özlülüyün sonsuz böyük qiyməti (tam strukturlaşma) (2)-dən göründüyü kimi, mütləq temperaturun sıfır qiymətində deyil, struktur temperaturu adlanan və mütləq sıfırdan xeyli böyük qiymətlərdə (T=$T_{str.}$) baş verir. Şəkil 3-dən göründüyü kimi təmiz su üçün qurulmuş $\eta \sim 1/(T\text{-}T_{str.})$ asılılığı geniş temperatur oblastında təcrübədən alınmış qiymətlərlə tam üst-üstə düşür. Həm də bu qiymət təmiz su üçün 146 ± 3 K-dir (şəkil 3).



Şəkil 3

Daxil edilmə formasına və ədədi qiymətinə görə struktur temperaturu fiktiv kəmiyyət olsa da, suda həll edilən maddənin təsirilə suyun struktur temperaturunun nə qədər və hansı istiqamətdə dəyişməsi, həmin maddənin suyun strukturuna necə təsir etməsi haqqında müəyyən informasiya verə bilir və bu səbəbdən də struktur temperaturu metodu bizim tədqiqatlarda geniş istifadə edilmişdir [3-4].

Ədəbiyyat

[1]. *Френкель Я.И.* Кинетическая теория жидкостей. – М.-Л., Изд.АН СССР, 1945, с.180.
[2]. *Ueberreiter K.,* Change of water structure by solvents and polymers. – Colloid & Polymer Science. 260, №1, 1982, p.37-45.
[3]. *Масимов Э.А.,. Гасанов А.А., Исмаилова Р.Н.* К определению структурной температуры воды. – Вестник БГУ, серия физ.-мат. наук, 2000, № 2, стр. 5-9.
[4]. *Масимов Э.А., Гасанов А.А., Исмаилова Р.Н.* Определение структурной температуры и термодинамических параметров низкоконцентрированных водных растворов агара и агарозы. -Вестник БГУ, серия физ.-мат. наук, 2000, № 3, стр. 5-10.

STRUKTUR TEMPERATURU KƏMİYYƏTİ VƏ SULU MƏHLULLARIN STRUKTURU

f.r.e.n.Həsənov A. Ə., f.ü.f.d. Həsənova X. T., Bağırova S. R.
Bakı Dövlət Universiteti

Xülasə

Struktur temperaturu metodu ilə bir sıra kiçik və yuksəkmolekullu birləşmələrin suda məhlullarında baş verən struktur dəyişiklikləri və daxil ediən maddələrin təsirilə suyun termodinamik halının dəyişməsi oyrənilə bilər.

STRUCTURE TEMPERATURE QUANTITY AND STRUCTURE OF WATER SOLUTIONS

Hasanov A.A., Hasanova X.T., Bagirova S.R.
Baku State University

Resume

The work was dedicated to explain the essence of the strukture temperature which is applying to investigate the strukture changes which happens in water, those is differe from other liguides for its physical and chemical properties, with the influence of the temperature and ofter includinq matters.

MEXANİZMLƏRİN KİNEMATİK TƏDQİQİ ÜÇÜN ANALİTİK ÜSULUN TƏTBİQİ

T.f.d. Sadıxova M.Ş.

Açar sözlər: mexanizm, funksiya, çıxış və giriş bəndləri, tənlik, təcil, sürət, analitik üsul

Keywords: mechanism, function, output and input elements, equation, acceleration, speed, analytics method

Mexanizmlər tədqiq olunduqda çox zaman texniki hesablamalardan yüksək dəqiqlik tələb olunur, halbuki, qrafik qurmalar vasitəsilə belə dəqiqliyi əldə etmək mümkün olmur. Buna görə də belə hallarda analitik hesablama üsullarından istifadə etmək məsləhət görülür. Bu üsullar xüsusilə akad. H.Q.Bruyeviç və prof. V.A.Zinovyev tərəfindən inkişaf etdirilmişdir.

Mexanizmlərin kinematik tədqiqinin analitik metodu giriş və çıxış bəndlərin hərəkətinin parametrləri arasındakı funksional asılılığın təyin olunması ilə əlaqədardır.

Alınan tənlik çıxış bəndlərin (yerdəyişməsini, sürət və təcilin) hesablanmasına imkan verir. Belə tənliklərin praktiki həlli bir çox hallarda, əsasən, fəza mexanizmləri (robot və manipulyatorlar) üçün çox mürəkkəbdir. Sadəlik üçün bir sərbəstlik dərəcəsinə malik mexanizmləri nəzərdən keçirək.

Mexanizmlərin çıxış (aparılan) və giriş (aparan) bəndlərinin uyğun olaraq Ψ və q koordinatları arasındakı asılılığa vəziyyət funksiyası deyilir.

$$\Psi = F(q) \tag{1}$$

Vəziyyət funksiyası mexanizmdə həndəsi əlaqələrin riyazi ifadəsidir ki, hərəkətin müəyyən çevrilməsini xarakterizə edir.

Çıxış bəndinin, yaxud onun ayrı – ayrı nöqtələrinin sürət və təcili (1) ifadəsinin zamana görə diferensiallanması ilə təyin olunur.

Sürət
$$\Psi'_t = \Psi'_q q'_t \tag{2}$$

Təcil
$$\Psi''_t = \Psi''_q (q'_t)^2 + \Psi'_q q''_t \tag{3}$$

(2) və (3) tənliklərinə daxil olan Ψ'_q və Ψ''_q törəmələr birinci və ikinci ötürmə funksiyaları və sürət və təcilin analoqları adlanır. Bu funksiyalar da vəziyyət funksiyası kimi

mexanizmin yalnız struktur və həndəsi əlaqələrini ifadə edir, yəni yalnız giriş bəndinin vəziyyətindən asılıdırlar.

(3) tənliyindən görünür ki, mexanizmin çıxış bəndinin təcilinə iki hərəkətin təcili kimi baxmaq olar:

1. Giriş bəndinin q_t' sürəti ilə müəyyən olunan əsas təcil

2. Bəndin öz təcili ilə əlaqədar əlavə təcil

Əgər mexanizmin giriş (k) və çıxış (m) bəndləri fırlanma hərəkəti edirsə, onda I ötürmə funksiyası Ψ_q' (sürət analoqu) ötürmə nisbəti adlanır. Belə ki,

$$\Psi_q' = \frac{d\Psi}{dq}; \qquad dq = d\varphi_k \quad \text{və} \quad d\Psi = d\varphi_m$$

ilə əvəz etsək onda,

$$\left(\Psi_q'\right)^{-1} = \frac{dq}{d\Psi} = \frac{d\varphi_k}{d\varphi_m} = \frac{d\varphi_k / dt}{d\varphi_m / dt} = \frac{\omega_k}{\omega_m} = i_{km}$$

Demək

$$(\Psi_q')^{-1} = i_{km} \tag{4}$$

Beləliklə, bütün mexanizmləri şərti olaraq iki qrupa bölmək olar:

1. $\Psi = a + bq$ xətti vəziyyət funksiyasına malik ola ötürmə mexanizmləri (dişli çarx mexanizmləri).

2. Ψ funksiyası xətti olmadığı halda icraedici və ya çevirici mexanizmlər (yumruqlu və lingli mexanizmlər).

Aşağıdakı misala baxaq:

Yumruqlu mexanizm.



Şəkil 1

Tutaq ki, yumruq (1) sabit ω bucaq sürəti ilə fırlanır (şəkil 1). Yumruğun profili elə seçilməlidir ki, (2) çiyinliyinin (koramıslo) Ψ bucaq yerdəyişməsi

$$\Psi = A \cdot \sin\alpha \tag{5}$$

funksiyası ilə təyin olunur. Bu funksiyanı diferensiallamaqla çiyinliyin sürət və təcili analoqlarını tapa bilərik:

$$\Psi_q' = \Psi_\varphi' = 2A\sin\varphi \cdot \cos\varphi = A\sin 2\varphi \tag{6}$$

$$\Psi_q'' = \Psi_\varphi'' = 2A \cdot \cos 2\varphi \tag{7}$$

Belə ki, $q = \varphi$ və $\varphi = \omega t$

$$q'_t = \frac{d\varphi}{dt} = \omega; \qquad q''_t = 0; \qquad \omega_2 = \Psi'_q \omega$$

$$\omega_2 = A\omega \sin 2\varphi \text{ və } \varepsilon_2 = \Psi''_q \omega^2 = 2A\omega^2 \cos 2\varphi$$

Ədəbiyyat

1. Kəngərli A.M. Maşın və mexanizmlər nəzəriyyəsi, Bakı, 2004
2. Фролов К.В. и др. Теория механизмов и механика машин. Москва, 2002
3. Артоболевский И.И. Теория механизмов и машин. Москва, 1985
4. Artobolevski S.İ.Mexanizm və maşınlar nəzəriyyəsi. Bakı 1966
5. Hüseynov N.,Mustafayev S.Maşın və mexanizmlər nəzəriyyəsi Bakı 1971
6. QasımovA.M., İsgəndərovE.B., HacıyevaM.Ə. Maşın və mexanizmlər nəzəriyyəsi. Bakı 1991

ANALYTICAL METHOD OF KINEMATIC STUDY OF MECHANISMS

M.Sh.Sadikhova

Summary

When studying mechanisms, it is advisable to use analytical methods of calculation to achieve high accuracy of technical calculations. The article defines the functional relationship between the motion parameters of the input and output points of the mechanisms

BİR İSTİQAMƏTLİ DEFORMASİYA VƏ MEXANİKİ GƏRGİNLİYİN TƏSİRİ İLƏ POLİMER ZƏNCİRİNDƏKİ DƏYİŞMƏLƏR

Prof. Quliyev M.S., Dos. Quliyev N.İ., Kərimli A.B.
Gəncə Dövlət Universiteti

Açar sözlər: polimer, mexaniki destruksiya, termodestruksiya, makromolekul, mexaniki gərginlik, deformasiya

Key words: polymer, mechanical destruction, thermodestruction, macromolecule, mechanical stress, deformation

B.R. Reqel və onun əməkdaşlarının işlərində polimerlərin dağılması və onların termik distruksiya prosesi zamanı yaranan kimyəvi məhsullar tədqiq edilmişdir.[2] Təcrübələr, polimetilmetakrilat polistirol, polipropilen, polietilen, polioksimetilen, kapron, polimetilstirol, poliak-nonitril və sair polimer maddələr üzərində aparılmışdır. Göstərilən bu polimerlərin hamısında mexanodestruksiya və termodestruksiya nəticəsində yaranan "uçan" məhsulların tərkibi müqayisə olunmuşdur. Analiz nəticəsində məlum oldu ki, yuxanda adları çəkilən polimerlərin əksəriyyətində ayrılan kimyəvi qrupların tərkibi hər iki halda eynidir. Alimlər, əldə etdikləri məlumatlara əsaslanaraq belə bir nəticəyə gəldilər ki, həm mexaniki destruksiya və həm də termodestruksiyanın əsasını istilik flüktasiyalarının təsiri ilə kimyəvi əlaqələrin qırılması kimi eyni elementar akt təşkil edir.

Destruksiya zamanı ayrılan məhsulların kinetikasmm öyrənilməsi nəticəsində termodestruksiya prosesinin aktivasiya enerjisini təyin etmək mümkün oldu. Təcrübələr göstərdi ki, bir sıra polimerlər üçün (polistirol, polimetilmatkrilat, polietilen) bu üsul ilə hesablanan aktivasiya enerjisinin destruksiyasının başlanğıcındakı qiyməti, polimer

nümunəsinin destruksiyasının sonunda aldığı qiymətdən kiçikdir. Bu hal onunla izah edilir ki, destruksiyanın başlanğıcında ilk olaraq makromolekulun zəncirindəki zəif əlaqələr qurulur. [1] Belə əlaqələr polimer zəncirinin budaqlanmış yerlərində mövcud olurlar. Müəyyən olundu ki, zəif əlaqələrin parçalanma aktivasiya enerjisi mexaniki dağılmanın aktivasiya enerjisi ilə eyni qiymətə malikdir. Bu fakt onu sübut etdi ki, zəif kimyəvi əlaqələr polimerin mexaniki xassələrində mühüm rol oynayır.

Doğrudan da xarici mexaniki gərginlik yalnız dissosiasiya enerjisini zəiflədir və bununla da kimyəvi əlaqənin qırılmasında mühüm rol oynayır. Disosiasiya enerjisinin mexaniki yüklənmiş cisimlərdə azalması infraqırmızı spektroskopiya üsulu ilə təsdiqlənmişdir. Potensial çəpərə üstün gəlməklə mexaniki əlaqələrin qırılması, isitilik hərəkəti nəticəsində baş verir. Başqa sözlə bu proses mexaniki yüklənmiş atomlar arası əlaqələrin termodestruksiyası nəticəsində yaranan atomlar arası əlaqələrin termodestruksiyası nəticəsində yaranan prosesdir.

Bu sahədə mövcud ədəbiyyatların araşdırılmasında aydın olur ki, termik destruksiya zamanı müxtəlif polimerlərdə kifayət qədər yeni stabil qruplar yaranır.[4] Bu qruplar kimyəvi əlaqələrin müxtəlif təsirlər nəticəsində qırılması zamanı sərbəst radikalların məhvi hesabına əmələ gəlir.

Ona görə də aparılmış tədqiqatların nəticələrinə əsasən güman etmək olar ki, infraqırmızı spektroskopiya metodunun köməyi ilə polimerlərdə mexaniki gərginlik və deformasiya nəticəsində yaranan sonlu kiməyəvi qrupları aşkar etmək mümkün olacaqdır. Doğrudan da, araşdırmalar göstərdi ki, bir istiqamətli deformasiya və mexaniki gərginliyin təsiri ilə polimer zəncirləri qırılır və bunun nəticəsində 1 - ci və 2 - ci növ sərbəst radikallar yaranır. Nəticədə polimer daxilində dayanıqlı və sonlu kimyəvi qruplar yaranır. Məsələn, polietilen və polipropilen polimerlərinin infraqırmızı spektrində bir çox xarakteristik tezliklərə uyğun gələn stabil (dayanıqlı) qruplardan turşu (1710sm^{-1}), aldehid (1735 sm^{-1}) və efir (1745 sm^{-1}) qruplarını misal göstərmək olar.

Ə d ə b i y y a t

1. Ə.E.Məsimov, Polimerlərin fiziki kimyası, Bakı, 2010
2. Т.М.Бирштейн, О.В.Птицин, Конформация макромолекул, «Наука», М, 1964
3. В.Р.Регель и др. ВМС, 8, 834, 1966
4. С.Л.Мадороский, Термическое разложение органических полимеров, Изд. «Мир», 1967

BİR İSTİQAMƏTLİ DEFORMASİYA VƏ MEXANİKİ GƏRGİNLİYİN TƏSİRİ İLƏ POLİMER ZƏNCİRİNDƏKİ DƏYİŞMƏLƏR.

Prof. Quliyev M.S., Dos. Quliyev N.İ., Kərimli A.B.

Gəncə Dövlət Universiteti

Xülasə

Ona görə də aparılmış tədqiqatların nəticələrinə əsasən güman etmək olar ki, infraqırmızı spektroskopiya metodunun köməyi ilə polimerlərdə mexaniki gərginlik və deformasiya nəticəsində yaranan sonlu kiməyəvi qrupları aşkar etmək mümkün olacaqdır. Doğrudan da, araşdırmalar göstərdi ki, bir istiqamətli deformasiya və mexaniki gərginliyin təsiri ilə polimer zəncirləri qırılır və bunun nəticəsində 1 - ci və 2 - ci növ sərbəst radikallar yaranır. Nəticədə polimer daxilində dayanıqlı və sonlu kimyəvi qruplar yaranır. Məsələn, polietilen və polipropilen polimerlərinin infraqırmızı spektrində bir çox xarakteristik tezliklərə uyğun gələn stabil (dayanıqlı) qruplardan turşu (1710sm^{-1}), aldehid (1735 sm^{-1}) və efir (1745 sm^{-1}) qruplarını misal göstərmək olar.

ИЗМЕНЕНИЯ В ПОЛИМЕРНОЙ ЦЕПИ ПОД ДЕЙСТВИЕМ ОДНОПРЯМОГО НАПРАВЛЕНИЯ И МЕХАНИЧЕСКОГО РАСТЯЖЕНИЯ

Проф. Гулиев М.С., Доц. Гулиев Н.И., Керимли А.Б.
Гянджинский Государственный Университет

Резюме

По результатам исследований можно предположить, что с помощью инфракрасной спектроскопии можно будет обнаруживать конечные химические группы в полимерах в результате механического напряжения и деформации. Действительно, исследования показали, что полимерные цепи разрываются при односторонней деформации и механическом напряжении, что приводит к образованию свободных радикалов типа 1 и типа 2. В результате внутри полимера образуются стабильные и конечные химические группы. Например, в инфракрасном спектре полимеров полиэтилена и полипропилена присутствуют группы кислот (1710 см-1), альдегидов (1735 см-1) и эфиров (1745 см-1) из стабильных групп, которым соответствуют многие характерные частоты.

CHANGES IN THE POLYMER CHAIN UNDER THE EFFECT OF ONE-DIRECT DIRECTION AND MECHANICAL TENSION

Prof. Guliyev M.S., Ass. Pr. Guliyev N.İ., Karimli A.B.
Ganja State University

Summary

Based on the results of research, it can be assumed that with the help of infrared spectroscopy, it will be possible to detect finite chemical groups in polymers as a result of mechanical stress and deformation. Indeed, studies have shown that polymer chains are broken by one-way deformation and mechanical stress, resulting in type 1 and type 2 free radicals. As a result, stable and finite chemical groups are formed inside the polymer. For example, in the infrared spectrum of polyethylene and polypropylene polymers, there are groups of acids (1710 cm-1), aldehydes (1735 cm-1) and ethers (1745 cm-1) from stable groups that correspond to many characteristic frequencies

DİNAMİK VƏ STATİK QANUNLARIN MƏNİMSƏDİLMƏ XÜSUSİYYƏTLƏRİ

Dos. Quliyev N.İ., Məmmədova X.E., T.f.d. Məmmədova S.O.
Gəncə Dövlət Universiteti

Açar sözlər: dinamik qanunlar, Nyuton qanunlar, statistik qanunlar, kvant mexanikası, klassik mexanika, koordinat, impuls.

Key words: dynamic laws, Newton's laws, statistical laws, quantum mechanics, classical mechanics, coordinates, momentum

Dinamik qanunların öyrətməyin yollarını şərh etməzdən əvvəl onların xüsusiyyətləri barədə qısa məlumat verək.Dinamik qanunlar bu və ya hərəkət formasına və ya gerçəklik oblastına mənsub olan bütün hadisələrdə təsir göstərir. By qanunların fərqləndirici xüsusiyyəti odur ki, müvafiq hadisənin baş verəcəyini, onun xarakterinin və halının dəyişməsini əvvəlcədən kifayət dərəcədə dəqiq söyləməyə imkan yaradırlar. [1]

Hərəkət qanunu, Nyuton qanunları, ümumdünya cazibə qanunu, bunun kimi də mexnikanın əksər qanunları Kulon qanunu, dövrə hissəsi və tam dövrə üçün Om qanunları, Coul-Lens qanunu, Faradey qanunları, elektromaqnit induksiyası qanunu, işığın düz xətt

üzrə yayılma, sınma və qayıtma qnunları; mexaniki istilik və elektromaqnit proseslərində saxlanma qanunları və s. dinamik qanunları daxildir.

Məsələn, dövrə hissəsi üçün Om qanununa görə naqildən keçən cərəyan şiddəti onun uclarındakı potensiallar fərqi (gərginlik) ilə düz, müqaviməti ilə tərs mütanasibdir. Belə qanunauyğunluq təkcə məsələn, mis, alüminium və başqa metal üçün deyil, bütün metallar üçün deyil, bütün metallar üçün doğrudur. Deməli, göstərilən qanun bütün naqillər çoxluğunu əhatə edir və bu çoxluğa daxil olan naqillərin hər birində fəaliyyət göstərir.[2]

Coul-Lents qanununa görə naqildən cərəyan keçərkən ayrılan istiliyin miqdarı cərəyan şiddətinin kvadratı, naqilin müqaviməti və cərəyanın keçmə müddətinin hasili ilə düz mütanasibdir. Belə qanununauyğunluq təkcə hər hansl naqil üçün deyil, bütün naqillər çoxluğunu əhatə edir və bu çoxluğa daxil olan naqillərin hər birində ayrılıqda fəaliyyət göstərir.

Nyutonun ikinci qanuna görə cismin aldığı bu təcil verən qüvvə ilə düz, öz kütləsi ilə mütanasibdir. Bu, istənilən makro cismə tətbiq olunur və qüvvə ilə kütlə məlum olduqda təcillə kütlə məlum olduqda isə qüvvənin əvvəlcədən qədid təyin etmək həmişə mümkündür.

Faradeyin birinci qanununa görə elektroddan cərəyan keçərkən elektrodda ayrılan maddənin kütləsi elekrtolitdən keçən cərəyan şiddəti və bu cərəyanın keçmə müddəti hasili ilə düz mütanasibdir. Bu qanun bütün elektrolitlərdə baş verən eyni proses üçün doğrudur və həmişə eyni nəticəyəib çıxarır. Həm də cərəyan şiddəti ilə onun elektrolitdən keçmə müddəti məlum olduqda, elektrodda ayrılacaq maddənin kütləsinin həmişə dəqiq hesablamaq mümkündür. Buradan aydın olur ki, dinamik qanunları tədris edərkən əvvəlcə onları konkret bir mühit (maddi obyekt) əsasında çıxarmaq və şagirdlərə anlatmaq, sonra isə onların müxtəlif mühitlər (maddi obyektlər çoxluğu) üçün doğruluğunu sübut etmək lazımdır. Buradan da nəticə çıxarılmalıdır ki, öyrənilən bu və ya digər dinamik qanun maddi obyektlər çoxluğunu əhatə edir, eyni zamanda çoxluğa daxil olan obyektlərin ayrılıqda hər birində fəaliyyət göstərir.[3]

Deməli, dinamik qanunların mahiyyətini uşaqlara başa salmaq üçün əvvəlcə xüsusidən ümumiyə (məsələn, Om qanunu əvvəlcə alüminium məftillə aparılan təcrübə əsasında çıxarmaq, sonra təcrübəni eyni ölçülü başqa metal məftillərlə təkrar etmək və nəticələri tutuşdurmaq- ümumiləşdirilmiş), sonra ümumidən xüsusiyə (ümumi nəticəni ayrı-ayrı hallarda sınamaq) doğru getmək, alınan nəticələri tutşdurmaq və nitəcələri ümumiləşdirilmiş formada ifadə etmək daha münasibdir. Bu zaman şagirdlər həm qanunları yaxşı məminsəyəcək, həm də onların tətbiqini göstərə biləcəklər.

Dinamik qanunlardan fərqli olaraq statistik qanunlar bu və ya digər konkret hadisənin nə zaman baş verə biləcəyini, onun dəyişmələrinin istiqamətini və xarakterini əvvəlcədən dəqiq söyləməyə imkan vermir. Bu qanunlar əsasında yalnız müvafiq hadisənin baş verə biləcəyinin və ya dəyişməyəcəyinin ehtimal dərəcəsini təyin etmək olar. Məsələn, ideal qaz qanunları (Boyl-Mariot , Gey-Lüssak, Şarl, Klapeyron-Mendeleyev) və real qaz qanunu (Van-der-Vaals qanunu) maddənin qaz halını xarakterizə edən əsas fiziki kəmiyyətlər (həcm, təzyiq, temperatur, kütlə) arasındakı müvafiq əlaqələrin xarakterini açmağa imkan verir. Lakin bu qanunlar yalnız müəyyən həcmə, təzyiqə, temperatura və kütləyə malik olan çoxlu molekullar yığınına aiddir. Ayrı-ayrı molekullar isə bu qanunlara tabe deyildir.[4]

Məsələn, əsasən dinamik qanunlar hesab edilən mexanika qanunları fizikanın bütün bölmələrində geniş istifadə olunur. Onlar qazların molekulyar-kinetik nəzəriyyəsini qurmaq üçün əsas bazadır. Yüklü hissəciklərin elektrostatik və maqnit sahələrindəki hərəkətini öyrənmək üçün mexanika qanunları həlledici rol oynayır. Metalların keçiriciliyinin klassik nəzəriyyəsində onlardan istifadə olunur. Enerjinin saxlanması və çevrilməsi qanunu materiya hərəkətinin bir formadan başqa formaya keçməsi ilə əlaqədar bütün prosesləri aydınlaşdırmaq üçün istifadə edilir.[5]

Kvant mexanikası bilavasitə klassik mexanika zəminində yaranmışdır. Ona görə də kvant mexanikası qanunların (statistik) öyrətmək üçün şagirdlərin klassik mexanika qanunları (dinamik) üzrə biliklərinə geniş istinad edilməlidir. Kvant mexanikasının klassik mexaniki zəminində yaranmasına baxmayaraq, bunların əhatə etdikləri qanunların bir-birindən keyfiyyətcə fərqli olmasını şagirdlər yaxşı bilməlidirlər. Belə fərqin yaranmasının başlıca səbəbi kvant mexanikasında tətbiq edilən fiziki kəmiyyətlərin diskretliyi (kvantlanması) və kvant mexanikasının statistik xarakterdə olmamasıdır. Klassik mexanikada isə fiziki kəmiyyətlər diskret qiymətlər almır, elm sahəsinin özü isə dinamik xarakter daşıyır. Ona görə də klassik və kvant mexanikası eyni anlayışın müxtəlif cür şərhini verir. Məsələn, klassik mexanikaya görə zərrəciyinin koordinat və impulsuna ayrılıqda baxmaq, bunları eyni vaxtda dəqiq hesablamaq mümkündür. Kvant mexanikasında belə hesab edilir ki, zərrəcik dalğa-zərrəcik xassəsinə malikdir. Və difraksiyaya uğraya bilər. Onun koordinat və impulsunu eyni vaxtda dəqiq təyin etmək mümkün deyildir. burada superpozisiya prinsipi əhəmiyyət kəsb edir.

Tədqiqat zamanı belə bir ümumi yol seçilir: əvvəlcə çoxlu təcrübi faktlar toplanmış, bunların əsasında model qurulmuş, onun üzərində mühakimələr aparılmış və məntiqi nəticələr çıxarılmış, sonra bu nəticələri praktikada yoxlamaq üçün eksperimentlər qoyulmuşdur. Məntiqi mühakimələrin və eksperimentlərin nəticələri ümumiləşdirilir və statistik qanun formlaşdırılmışdır.

Ədəbiyyat

1. Əlizadə Ş.H. məktəb fizika eksperimentinin sistemi və onun elmi – pedaqoji əsasları. Bakı. Elm, 1998.
2. Əlizadə Ş.H. Fizika tədrisi metodikası mühazirə mətnləri. Bakı, 2009.
3. Əliyev N.A. Orta məktəbdə fiziki nəzəriyyələrin tədrisi prosesində idrak məsələlərindən istifadə. Bakı, Nurlan, 2008.
4. İmanov S.Ş. Orta məktəbdə fizika tədrisində təlimin texniki vasitələrinin rolu, yeri və tətbiqi metodikası. Bakı. Maarif 1971.
5. İmanov S.Ş. Orta məktəbdə fizika tədrisi metodikası (Ümumi hissə) Bakı. ADPU, 2004

DİNAMİK VƏ STATİK QANUNLARIN MƏNİMSƏDİLMƏ XÜSUSİYYƏTLƏRİ

Dos. Quliyev N.İ., Məmmədova X.E. T.f.d. Məmmədova S.O.
Gəncə Dövlət Universiteti

Xülasə

Dinamik qanunlardan fərqli olaraq statistik qanunlar bu və ya digər konkret hadisənin nə zaman baş verə biləcəyini, onun dəyişmələrinin istiqamətini və xarakterini əvvəlcədən dəqiq söyləməyə imkan vermir. Bu qanunlar əsasında yalnız müvafiq hadisənin baş verə biləcəyinin və ya dəyişməyəcəyinin ehtimal dərəcəsini təyin etmək olar. dinamik qanunlar hesab edilən mexanika qanunları fizikanın bütün bölmələrində geniş istifadə olunur. Onlar qazların molekulyar-kinetik nəzəriyyəsini qurmaq üçün əsas bazadır. Yüklü hissəciklərin elektrostatik və maqnit sahələrindəki hərəkətini öyrənmək üçün mexanika qanunları həlledici rol oynayır. Metalların keçiriciliyinin klassik nəzəriyyəsində onlardan istifadə olunur. Tədqiqat zamanı belə bir ümumi yol seçilir: əvvəlcə çoxlu təcrübi faktlar toplanmış, bunların əsasında model qurulmuş, onun üzərində mühakimələr aparılmış və məntiqi nəticələr çıxarılmış, sonra bu nəticələri praktikada yoxlamaq üçün eksperimentlər qoyulmuşdur.

ХАРАКТЕРИСТИКИ ДИНАМИЧЕСКИХ И СТАТИЧЕСКИХ ЗАКОНОВ

Доц. Гулиев Н.И., Мамедова Х.Е., Д.ф.т. Мамедова С.О.
Гянджинский Государственный Университет

Резюме

В отличие от динамических законов статистические законы не позволяют точно предсказать, когда произойдет то или иное событие, направление и характер его изменений. На основании этих законов можно только определить вероятность того, что соответствующее событие произойдет или нет. Законы механики, которые считаются законами динамики, широко используются во всех разделах физики. Они являются основной основой для построения молекулярно-кинетической теории газов. Законы механики играют решающую роль в изучении движения заряженных частиц в электростатическом и магнитном полях. Они используются в классической теории проводимости металлов. Исследование проводится по общему принципу: сначала собирается множество эмпирических данных, на основе которых строится модель, выносятся суждения и делаются логические выводы, а затем ставятся эксперименты для проверки этих результатов на практике.

CHARACTERISTICS OF DYNAMIC AND STATIC LAWS

As.pr. Guliyev N.I., Mammadova Kh. E., D.ph.t. Mammadova S.O.
Ganja State University

Summary

Unlike dynamic laws, statistical laws do not allow us to predict exactly when a particular event will occur, the direction and nature of its changes. Based on these laws, it is only possible to determine the probability that the relevant event will occur or not. The laws of mechanics, which are considered dynamic laws, are widely used in all branches of physics. They are the main basis for building the molecular-kinetic theory of gases. The laws of mechanics play a crucial role in studying the motion of charged particles in electrostatic and magnetic fields. They are used in the classical theory of conductivity of metals. The study follows a general approach: first, a lot of empirical evidence is collected, based on which a model is built, judgments are made and logical conclusions are drawn, and then experiments are set up to test these results in practice.

ELEKTROTEXNİKA VƏ ELEKTRONİKANIN ƏSASLARI FƏNNİNİN TƏDRİSİ ZAMANI FİZİKA FƏNNİ İLƏ FƏNLƏRARASI ƏLAQƏNİN ƏHƏMİYYƏTİ

Prof. Quliyev M.S. , Məmmədov E.M.,Musayev S.X.
Gəncə Dövlət Universiteti

Açar sözlər: Fənlərarası əlaqə, fizika, elektrotexnika, elektronika

Key words: Interdisciplinary communication, physics, electrical engineering, electronics

Fənlərarası əlaqənin tətbiq olunması dərsi metodiki baxımdan zənginləşdirir, onun effektivliyini artırır, yaxşı mənimsənilir və tələbələrdə tədris olunan fənnə marağı artırır.

Bu baxımdan “Elektrotexnika və elektronikanın əsasları“ fənni tədris olunan zaman fizika fənni ilə əlaqəyə baxaq.

Məsələn, fizikanın elektrik və maqnetizm bəhsinin “Elektrik yükləri, Kulon qanunu” mövzusunun tədrisi zamanı, tələbələr elektrik yüklərinin alınması, müxtəlif kimyəvi

elementlərin atomlarının quruluşu, elektrik yüklərinin qarşılıqlı təsiri və s.anlayışlarla tanış olurlar.

Digər tərəfdən "Elektrotexnika və elektronikanın əsasları" fənninin tədrisi zamanı naqillərdə keçiricilik elektronlarının yaranmasını atomun quruluşuna, elektrik cərəyanının yaranmasını isə müxtəlif adlı elektrik yüklərinin alınması prosesinə istinad etmədən aydınlaşdırmaq mümkün olmur.

Belə ki, fənnin "Elektronikanın əsasları" hissəsi elektron nəzəriyyəsinin əsaslarının öyrənilməsindən başlayır. Bu isə öz növbəsində fizikadan tanış olduğumuz atomun quruluşu və Kulon qanununu daha dərindən anlamağı tələb edir.

Elektrik cərəyanının, potensiallar fərqinin yaranması prinsiplərinə uyğun olaraq sabit və dəyişən cərəyan dövrələri, gücləndiriçilər, generatorlar, elektron açarları və s. iş prinsipləri izah olunur. Bunların tətbiqi isə müxtəlif konstruksiyalı elektrik avadanlığının yaradılmasına imkan verir.

"Elektrotexnika və elektronikanın əsasları" fənninin tədrisi zamanı Fizikanın tədrisi prosesində öyrənilən "Elektrik sahəsi" mövzusunu izah edərkən müəllim tələbələrə öyrədir ki, kondensatorların yaranma prinsiplərinin əsasında bircins elektrik sahəsindən istifadə olunması durur. Müəllim vurğulayır ki, heç bir elektron qurğusu (televizor, maqnitofon, radioqəbuledicilər, elektron ölçü cihazları və s.) elektrik kondensatorları olmadan işləyə bilməz. Tələbələrə izah olunur ki, kondensatorların elektrik enerjisini toplamaq, lazım olan vaxt isə geriyə vermək qabiliyyəti onlardan elektrik rəqsləri mənbəyi, elektron sxemlərinin qovşaqları arasında elektrik enerjisi ötürücü qurğuları, hamarlayıcı süzgəclər və s. kimi istifadə etməyə imkan verir.

Fizikada öyrənilən daha bir mövzuya nəzər salaq. "Metallarda elektrik cərəyanı. Sabit cərəyan qanunları". Bu mövzunun öyrənilməsi, sabit cərəyan dövrələrinin tədrisi zamanı əvəzsiz rol oynayır.

Əgər fizika kursu öyrənilən zaman verilən mövzu naqildə elektrik cərəyanının yaranması, elektrik hərəkət qüvvəsi, sabit cərəyan dövrələrinin qurulması, Om qanununun dövrə hissəsi və tam dövrə üçün öyrənilməsi və s. əhatə edirsə "Elektrotexnika və elektronikanın əsasları" fənnində bu anlayışlar daha dərindən öyrənilir. Burada elektrik dövrələri daha ətraflı bütün metodlardan (üçbucaq və ulduz qoşulma, qovşaq gərginliyi, ekvivalent generator, Om və Kirhof qanunları) istifadə olunması yolu ilə öyrənilir. Buna görə də müəllim bu mövzunun tədrisi zamanı fizikadan öyrənilmiş materialları da tələbələrə xatırlatmalı və bu bölmədə öyrənilənlərin müxtəlif ölçü, nəzarət və idarəedici elektron qurğularının işinin əsasını təşkil etdiyini vurğulamalıdır.

"Elektrotexnika və elektronikanın əsasları" fənnində öyrənilən "Elektrik cərəyanı, maddələrin elektrik keçiriciliyi" mövzusu ilə fizikada tədris olunan "Elektrik cərəyanının işi, gücü və istilik təsiri" mövzusu arasındakı əlaqəyə baxaq.

Fizika müəllimi dərs zamanı qeyd edir ki, öyrənilən materialın vacibliyi ondadır ki, radioelektron aparatlarının layihələndirilməsi prosesində ən mühüm məsələlərdən biri uyğun gücə malik elementlərin seçilməsidir. Buna görə də mütəxəssis hər hansı bir elementin gücünün qabaqcadan hesablanmasını bacarmalıdır. "Elektrotexnika və elektronikanın əsasları" fənninin müəllimi isə daha geniş material toplusunu çatdırmalı olduğuna görə, asan qavranılan suallara ayrılan vaxtı fizikadan öyrənilmiş materiallar hesabına azalda bilir.

"Kimyəvi enerjinin elektrik enerjisinə çevrilməsi" bölməsinə baxaq. Fizika fənnində "Elektrolitlərdə elektrik cərəyanı" fəslində Faradeyin birinci və ikinci qanunlarına baxılır, qalvanik elementlərin və akkumulyatorların quruluşu öyrənilir. Bu zaman tələbələr başa düşürlər ki, bunlarsız məişətdə və texnikada istifadə etdiyimiz bir çox cihaz və qurğular (cib fanarları, radioqəbuledici və maqnitofonlar, televizorlar, avtomobillər və s.) işləməzdi.

"Elektrotexnika və elektronikanın əsasları" fənnində isə müəllim bunlarm Fizika dərsində öyrənildiyini tələbələrə xatırladır və həmin materialların bir daha dərindən

öyrənilməsinə ehtiyac qalmır. Lakin burada da qalvanik elementlərin və akkumulyatorların elm və texnikada olan əhəmiyyətini vurğulamaq vacibdir.

Fizika fənninin tədrisində öyrənilən daha bir anlayışı araşdıraq. "Naqillərdə elektrik cərəyanı" anlayışı fizika kursunda öyrənilən zaman yarımkeçiricilərin fiziki əsasları öyrənilir, yarımkeçirici diodlar və tranzistorlar haqqmda çox kiçik həcmdə məlumat verilir. Buna rəğmən, Elektrotexnika və "Elektronikanın əsaslan" fənninin tədrisi zamanı isə yanmkeçiricilərə dair məsələlər daha geniş şəkildə öyrənilir.

Beləliklə, Fizika tədris olunan zaman verilən müəyyən anlayışlar tələbələri Elektrotexnika və "Elektronikanın əsasları" fənninin yarımkeçiricilər və yarımkeçirici cihazlara aid bölümünün materialları daha asan qavramasına hazırlayır.

Sözsüz ki, fizikada uyğun anlayışlar tədris olunan zaman yarımkeçirici cihazların üstünlüyü barədə müəyyən vacib məlumatlar verilərsə bu, tələbələrdə gələcəkdə keçiləcək mövzulara maraq oyadar.Fənlərarası əlaqə zəminində qurulmuş qabaqcadan verilən belə məlumatlar tələbələrdə texnikaya, seçdiyi peşəyə, yaradıcı əməyə maraq yaranmasında əhəmiyyətli rol oynayır.

Bir məqalədə bütün bu deyilənləri tamamilə əhatə etmək və fənlərarası əlaqəni bütünlüklə şərh etmək mümkün deyildir. Amma göstərilən əlaqələrin "Elektrotexnika və elektronikanın əsasları" fənninin tədrisi zamanı göstərilməsi və qurulması tələbələrdə öyrənilən fənnə qarşı marağı olduqca artırır.

Ədəbiyyat

1.H. A. Abbasov. "Elektrotexnika" Bakı,2002
2.H.S.Xıdırov "Ümumi elektrotexnika ilə elektronikanın əsasları".Bakı-2007.
3.R.Z.Kazımzadə, C.S. Əsgərov " Elektrotexnika".Bakı-2008.
4.Z.İ.Kazımzadə. ―Elektrotexnikanın nəzəri əsasları‖. Bakı,2010.
5.R.Q.Məmmədov,A.Ə.Hacıyev "Elektrotexnika və elektronikanın əsasları" Bakı – 2013

FƏNNİNİN TƏDRİSİ ZAMANI FƏNLƏRARASI ƏLAQƏ

Prof. Quliyev M.S. , Məmmədov E.M., Musayev S.X.
Gəncə Dövlət Universiteti

Xülasə

Sözsüz ki, fizikada uyğun anlayışlar tədris olunan zaman yarımkeçirici cihazların üstünlüyü barədə müəyyən vacib məlumatlar verilərsə bu, tələbələrdə gələcəkdə keçiləcək mövzulara maraq oyadar.Fənlərarası əlaqə zəminində qurulmuş qabaqcadan verilən belə məlumatlar tələbələrdə texnikaya, seçdiyi peşəyə, yaradıcı əməyə maraq yaranmasında əhəmiyyətli rol oynayır.

Bir məqalədə bütün bu deyilənləri tamamilə əhatə etmək və fənlərarası əlaqəni bütünlüklə şərh etmək mümkün deyildir. Amma göstərilən əlaqələrin "Elektrotexnika və elektronikanın əsasları" fənninin tədrisi zamanı göstərilməsi və qurulması tələbələrdə öyrənilən fənnə qarşı marağı olduqca artırır.

ЗНАЧЕНИЕ МЕЖДИСЦИПЛИНАРНЫХ СВЯЗЕЙ С ФИЗИКОЙ ПРИ ПРЕПОДАВАНИИ ОСНОВ ЭЛЕКТРОТЕХНИКИ И ЭЛЕКТРОНИКИ

Проф. Гулиев М.С., Мамедов Е.М., Мусаев С.Х.
Гянджинский Государственный Университет

Резюме

Конечно, если при обучении соответствующим понятиям в физике будет дана определенная важная информация о преимуществах полупроводниковых приборов, это вызовет у учащихся интерес к будущим темам.

Охватить все это в одной статье и объяснить междисциплинарную взаимосвязь во всей полноте невозможно. Однако демонстрация и построение этих связей при преподавании предмета «Основы электротехники и электроники» значительно повышает интерес учащихся к предмету.

THE IMPORTANCE OF INTERDISCIPLINARY RELATIONSHIP WITH PHYSICS DURING THE TEACHING OF THE FUNDAMENTALS OF ELECTRICAL ENGINEERING AND ELECTRONICS

Prof. Guliyev M.S., Mammadov E.M., Musayev S.X.
Ganja State University

Summary

Of course, if certain important information about the advantages of semiconductor devices is given when teaching relevant concepts in physics, it will arouse students' interest in future topics.

It is impossible to cover all this in one article and to explain the interdisciplinary relationship in its entirety. However, the demonstration and construction of these connections during the teaching of the subject "Fundamentals of Electrical Engineering and Electronics" greatly increases the interest of students in the subject.

FİZİKA FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) VƏ ONUN XARAKTERİK CƏHƏTLƏRİ FİZİKA TƏLİMİNİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Dos. Quliyev N.İ., Zeynalova F.S., Məmmədzadə A.C.
Gəncə Dövlət Universiteti

Açar sözlər: təhsil proqramı, kurikulum, təhsil pillələri, qiymətləndirmə, fizikanın qanunauyğunluqları,təfəkkür, kommunikativ bacarıqlar

Key words: educational program, curriculum, levels of education, assessment, regularities of physics, thinking, communication skills

Fizika fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri. Azərbaycan Respublikasında ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu) fizika təliminin əsas məqsəd və vəzifələrini müəyyənləşdirməklə ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətləri əks etdirən cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla hər bir şagirdin imkan və maraqlarına yönəlmiş sənəddir.[1] Fizika fənni üzrə təhsil proqramı (kurikulumu) fənnin əhəmiyyətini, məqsəd və vəzifələrini, ümumi təlim nəticələrini, məzmun xətləri və onların əsaslandırılmasını, məzmun xətləri üzrə standartları, fəaliyyət xətlərini, standartların təhsil pillələri üzrə ümumi təlim nəticələrini, hər bir sinif üzrə məzmun standartlarını əhatə edir. Bunlardan əlavə, fizika fənni üzrə təhsil proqramında (kurikulumunda) təlim strategiyaları və qiymətləndirmə məsələləri öz əksini tapır. Fizika fənni üzrə təhsil proqramı (kurikulumu) dərslik və dərs vəsaitlərinin, metodik göstəriş, tədris materiallarının planlaşdırılması, təlim üsullarının müəyyənləşdirilməsi və müəllim hazırlığının həyata keçirilməsi üçün müvafiq təlimatlar formasında hazırlanacaq qaydaların əsasını təşkil edən, milli və ümumibəşəri dəyərləri nəzərə almaqla tərtib olunmuş sənəddir. Fizika həyat elmidir. Həyatın bir sıra qanunları, qanunauyğunluqları bu elmin tədqiqat obyekti kimi araşdırılır.

Şagirdlərin hələ məktəb yaşlarından bu qanun və qanunauyğunluqlara, müxtəlif fiziki hadisələrə yaxından bələd olması onların həyat, təbiət haqqmda dünyagörüşünü artırmaqla yanaşı, cəmiyyətdə yaşamaq üçün bir sıra həyati bacarıqları mənimsəmələrinə imkan yaradır.

Cəmiyyətin müxtəlif sahələrində həyatda bir insan kimi formalaşmalarına təkan verir. Bu prosesi tənzimləmək şagirdlərin inkişafını ardıcıl olaraq izləmək, onları istiqamətləndirmək üçün fizika fənninin məzmunu nəticələr formasında təqdim olunur. Mahiyyət etibarı ilə bacarıqlardan ibarət olan bu nəticələr ölçülə bildiyindən məzmun standart kimi qəbul edilərək fizika fənni üzrə təhsil proqramında (kurikulumunda) aparıcı yer tutur və bütövlükdə təhsil proqramı üçün xarakterik cəhətlərdən biri olan nəticəyönümlülüyü təmin edir.[3]

Təbiətdə müşahidə olunan bütün proses və hadisələr müəyyən qanunlar əsasında baş verir. Bütün elmlərin əsas məqsədi proses və hadisələrdə qanunauyğun əlaqələr aşkar etmək və öyrənməkdir. Fizika təbiət haqqında elm olub materiyanın müxtəlif formalarını, onun xassələrini və qarşılıqlı çevrilməsini öyrənir. Fizikanın qanunauyğunluqları təbiətdə baş verən bütün hadisələrin, cansız və canlı materiyanın qarşılıqlı əlaqələrinin öyrənilməsində, elmi-texniki tərəqqinin inkişafında aparıcı rol oynayır. Buna görə də fizika fənninin öyrənilməsi şagirdlərə digər təbiət elmlərinin mənimsənilməsinə, təbiət hadisələrinə, elm, texnika və istehsalatın müxtəlif sahələrinin əsas proseslərinə yaxından bələd olmaq imkanı verir. Fiziki anlayışları mənimsəməklə şagirdlərdə idrak qabiliyyətinin inkişafına, elmi dünyagörüşün formalaşmasına, iradə və xarakterin tərbiyə edilməsinə, müşahidə etmə, müqayisə etmə, məntiqi düşünmə, dəqiqləşdirmə, analiz və sintez, mühakimə yürütmə, problemi müəyyənləşdirmə, hesablama, həll etmə və s. bacarıqların formalaşmasına zəmin yaradılır.

Ümumtəhsil məktəblərində fizikanın tədrisi şagirdlərdə çoxlu şəxsi keyfiyyətlər formalaşdırır. Bunlara dünyagörüşü, bilik, bacarıq, vərdiş, qabiliyyət, adət, iradə, əməksevərlik və s. aiddir. Ümumtəhsil məktəblərində fizika fənninin əsas məqsədi şagirdlərdə təbiət və texnikanın mühüm qanunauyğunluqlarına aid elmi dünyagörüşü inkişaf etdirməklə, onlarda təfəkkür, kommunikativ bacarıqları inkişaf etdirmək, müasir texnologiyalarla işləmək qabiliyyətlərini yaratmaq və inkişaf etdirməkdən ibarətdir.[2] Fizikanın tədrisi qarşısında duran əsas vəzifələr isə aşağıdakılardır:

• fizika elminin əsaslarına aid ən mühüm faktlara, qanunlara və onların praktikada tətbiqinə dair anlayışların formalaşdırılması;

• fizikanın ümumbəşəri mədəniyyətin tərkib hissəsi və cəmiyyətin sosialiqtisadi inkişafının əsas hərəkətverici qüvvəsi olması haqqında təsəvvürün yaradılması;

• dünyanın bütövlükdə dərk edilməsi və müasir fiziki mənzərəsi haqqında təsəvvürlərin formalaşdırılması;

digər təbiət fənlərinin öyrənilməsi üçün real zəminin yaradılması

• Fizika fənninin məzmun xətləri təhsilin bütün mərhələləri üçün təlimin məqsəd və vəzifələrinə uyğun olaraq aşağıdakı kimi təyin edilmişdir:

1. Fiziki hadisələr, qanunauyğunluqlar və qanunlar
2. Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər.

Fizika təliminin təşkilinə verilən əsas tələblər Müasir dövrdə pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələrə əsaslamr. Pedaqoji prosesdə:

•müəllimlər əlaqələndirici, istiqamətverici, məsləhətçi subyekt kimi çıxış edir.

• şagirdlər tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər.

Fizika dərslərində müxtəlif təlim üsullarından istifadə olunur: şagirdlərlə keçirilən nağıl, izahat, müəllimin mühazirəsi, müxtəlif söhbətlər, müəllimin təcrübələr nümayişi, televerilişləri, videoyazılar, tədris kino filmlərinin nümayişi, şagirdin dərsliklə işi, elmi-kütləvi ədəbiyyatla iş, laborator təcrübələrinin icrası, həyatda və canlı təbiətdə müşahidələrin keçirilməsi, məsələ həlli, şagirdlərlə ffontal və fərdi sorğunun təşkili, yazı işləri, test tapşırıqları icrası və s.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), II kitab. Bakı, "Çaşıoğlu", 2001

2. İsmayılov İ.N. Fizikanın tədrisi metodikaasınm təkmilləşdirilməsində yeni informasiya texnologiyaları vasitələrinin yeri, rolu və funksiyaları. // Pedaqoji Universitet xəbərləri, 2005, №2.
3. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
4. Mehrabov A., Bəylərov E. Şagird intellektinin inkişafı. Bakı, 2006.
5. Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı, 2006.

FİZİKA FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) VƏ ONUN XARAKTERİK CƏHƏTLƏRİ FİZİKA TƏLİMİNİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR

Dos. Quliyev N.İ., Zeynalova F.S., Məmmədzadə A.C.
Gəncə Dövlət Universiteti

Xülasə

Ümumtəhsil məktəblərində fizikanın tədrisi şagirdlərdə çoxlu şəxsi keyfiyyətlər formalaşdırır. Bunlara dünyagörüşü, bilik, bacarıq, vərdiş, qabiliyyət, adət, iradə, əməksevərlik və s. aiddir. Ümumtəhsil məktəblərində fizika fənninin əsas məqsədi şagirdlərdə təbiət və texnikanın mühüm qanunauyğunluqlarına aid elmi dünyagörüşü inkişaf etdirməklə, onlarda təfəkkür, kommunikativ bacarıqları inkişaf etdirmək, müasir texnologiyalarla işləmək qabiliyyətlərini yaratmaq və inkişaf etdirməkdən ibarətdir. Fizikanın tədrisi qarşısında duran əsas vəzifələr isə aşağıdakılardır:

- fizika elminin əsaslarına aid ən mühüm faktlara, qanunlara və onların praktikada tətbiqinə dair anlayışların formalaşdırılması;
- fizikanın ümumbəşəri mədəniyyətin tərkib hissəsi və cəmiyyətin sosialiqtisadi inkişafının əsas hərəkətverici qüvvəsi olması haqqında təsəvvürün yaradılması;
- dünyanın bütövlükdə dərk edilməsi və müasir fiziki mənzərəsi haqqında təsəvvürlərin formalaşdırılması;

ПРОГРАММА ФИЗИЧЕСКОГО ОБРАЗОВАНИЯ (ПРОГРАММА) И ЕЕ ХАРАКТЕРИСТИКИ ФОРМЫ И МЕТОДЫ, ИСПОЛЬЗУЕМЫЕ В ОРГАНИЗАЦИИ ФИЗИЧЕСКОГО ОБРАЗОВАНИЯ

Доц. Гулиев Н.И., Зейналова Ф.С., Мамедзаде А.Дж.
Гянджинский Государственный Университет

Резюме

Преподавание физики в средней школе формирует у учащихся многие личностные качества. К ним относятся мировоззрение, знания, навыки, привычки, способности, привычки, воля, трудолюбие и так далее. помощь Основная цель физики в общеобразовательной школе – развитие у учащихся мышления, коммуникативных навыков, умения работать с современными технологиями путем развития научного взгляда на важные законы природы и техники. Основные задачи, стоящие перед преподаванием физики, следующие:

- формирование представлений о важнейших фактах, закономерностях и применении их на практике по основам физических наук;
- сформировать представление о том, что физика является составной частью общечеловеческой культуры и главной движущей силой социально-экономического развития общества;
- осмысление мира в целом и формирование представлений о современном физическом ландшафте;

PHYSICS EDUCATION PROGRAM (CURRICULUM) AND ITS CHARACTERISTICS FORMS AND METHODS USED IN ORGANIZATION OF PHYSICS EDUCATION

As.pr. Guliyev N.I., Zeynalova F.S., Mammadzada A.C.
Ganja State University

Summary

Teaching physics in secondary schools forms many personal qualities in students. These include worldview, knowledge, skills, habits, abilities, habits, will, diligence and so on. The main purpose of physics in secondary schools is to develop students' thinking, communication skills, and the ability to work with modern technologies by developing a scientific outlook on the important laws of nature and technology. The main tasks facing the teaching of physics are as follows:

• formation of concepts on the most important facts, laws and their application in practice on the basics of physical science;

• to create the idea that physics is an integral part of universal culture and the main driving force of socio-economic development of society;

• understanding the world as a whole and forming ideas about the modern physical landscape;

FİZİKA KURSUNUN TƏDRİSİNDƏ TƏLİM METODLARINI VƏ ÜSULLARINI SEÇMƏYİN VƏ TƏTBİQ ETMƏYİN BƏZİ MƏSƏLƏLƏRİ

T.f.d. Məmmədova S.O., Dos. Quliyev N.İ., Məmmədova X.E.
Gəncə Dövlət Universiteti

Açar sözlər: təlim metodları, müəllimin şərhi, bilik mənbələri, idrak fəaliyyəti, fizika qanunlarının tədrisi, didaktik məqsədlər

Key words: teaching methods, teacher's explanation, sources of knowledge, cognitive activity, teaching the laws of physics, didactic purposes

Fizika kursunun tədrisi prosesində bir sıra təlim metodları və üsulları tətbiq edilir. Pedaqogika və fizikanın tədrisi üzrə tədqiqatlar əsasında müəyyən edilmiş həmin metod və üsulları təxminən aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Müəllimin şərhi (nağıl, müsahibə, mühazirə, təlimat):

2. Kitab, jurnal və qəzetlər (dərsliklər, dərs vəsaiti, sorğu kitabı, elmi-kütləvi) və bəzi ədəbiyyat, üzərində iş.

3.Nümayiş (təcrübələr, cihaz və qurğular, sxem və çertyojlar, sxem və çertyojlar, kinofilmlər və kinohəlqələr və s).

4. Laboratoriya işləri və praktikumlar.

5. Ekskursiya (istehsalata, TTS-lərə, tikinti meydançalarına, elektrik stansiyalarına, mədənlərə, təbiətə və s.).

6. Şagirdlərin texniki yaradıcılığı üzrə (cihaz, model və texniki qurğuların konstruksiya edilməsi, sadə cihazlar hazırlamaq və s.) iş.

7. Problemli təlim (problemli situasiya, qismi axtarıcılıq, tədqiqatçılıq metodları).

8. Təlimin alqoritmləşdirilməsi və proqramlaşdırılması.

9. Təlimin fərdiləşdirilməsi.

10.Diferensiallaşdırılmış təlim.

11. Şagirdlərə məruzə, referat, informasiyalar.

12. Təbiət hadisələri üzərində şagirdlərin hazırlatmaq, məsələlər tərtib etdirmək.

13. Şagirdlərin bilik bacarıq və vərdişlərinin yoxlanması, qiymətləndirilməsi.

14. Riyazi təhlil.

15. İnduksiya və deduksiya.
16 Analiz və sintez.
17.Ümumiləşdirmə, ideallaşdırma bə mücərrəd.
18. Diferensiasiya və inteqrasiya.

Göstərilən metodlardan və fiziki iş üsullarından təlim prosesində istifadə etmək qaydalı barədə vahid nöqteyi- nəzər yoxdur.

Didaktların, eləcə də alim-metodistlərin bir qismi belə hesab edir ki, təlim metodları dərsdə müəllim-şagird cütünün iş formasına uyğun seçilməli və tətbiq olunmalıdır. Başqa bir qrup, təlim metodlarını bilik mənbələrinin xüsusiyyətlərinə görə seçməyi münasib bilir. Metodların seçilməsində də tətbiq edilməsində didaktik məqsədləri, şagirdlərin idrak fəaliyyətini, bəşəri qabiliyyətlərin dərk olunma xarakterini və s. əsas götürənlər də az deyildir.

Bütün bunların, şübhəsiz, elmi, əsası və faydası var. Lakin, heç birində öyrənilən materialın xarakteri, elmin inkişaf dialektikası və yaranma metodları nəzərə alınmır. Halbuki bunlar elmin əsaslarını uşaqların dərk edə bilmələri üçün həlledici şərtdir. Bu fizika, qanunlarının tədrisi prosesində daha qabarıq şəkildə özünü göstərir.

Deməli, qanunları tədris etmək üçün müəllim metodları seçərkən ilk növbədə onların xarakterini nəzərə alır. Daha doğrusu, metodları məzmuna görə seçir. Çünki, müəllimlə şagirdin iş formasının didaktik məqsədləri də, şagirdlərin bilik əldə edəcəkləri mənbələr üzərində müstəqil işi də, məhz məzmunla bağlıdır.

Məlum olduğu kimi, qanunlar öz xarakterinə görə anlayışlardan və kəmiyyətlərdən fərqlənir. Əgər anlayışlar müxtəlif kəmiyyətlər arasındakı əlaqələrin öyrənilməsi, ümumiləşdirilməsi əsasında yaranırsa, qanunlar anlayışlar arasındakı əlaqələrin araşdırılması, qanunauyğunluqların müəyyən edilməsi, sintez əsasında aşkara çıxarılıq. Bunu 2-sxemdən də görmək olar. Deməli. Qanunların öyrənilməsi üçün daha dərin ümumiləşdirmə və mücərrədləşdirmə tələb olunur.

Elmin inkişaf tarixi onu göstərir ki, ən böyük və yeni kəşflərin bir çöxu müxtəlif sahələr üzrə biliklərin intellektual sintezi nəticəsində mümkün olunmuşdur. Məsələn, Faradey maqnetism və elektrik hadisələri üzrə müşahidələrin nəticələrini elektromaqnitzm konsepsepsiyası şəklində sintez etməklə elektromaqnit induksiyası qanununu kəşf etmişdir. Bu qanun isə elektrik əsrinin yaranmasına səbəb olan dinamomaşınlarının iş prinsipinin əsasıdır.

Maksvel elektromaqnitezmlə işıq hadisələrinin riyazi yolla sintezi sayəsində işığın da elektromaqnit dalğaları olmasını kəşf etmişdir. Bu kəşf isə radio və televiziya texnikasının yaranmasına səbəb olmuşdur.

Faradeyin, Macrosoftksvelin və onların elmi işlərini davam etdirənlərin tədqiqatlarının sintezi elektromaqnetizm nəzəriyyəsini yaratmışdır.

Albert Eynşteyn Pifaqordan Rimanadək olan həndəsə üzrə tədqiqatların nəticələrini, Qaliley-Nyuton mexanikasının qanunlarını, astronomiya sahəsində uzun illər aparılmış tədqiqatların nəticələrini, Faradey, Maksvel və bunların ardıcıllarını tədqiqatları əsasında yaradılmış elektromaqnitizm nəzəriyyəsini sintez etməklə nisbilik nəzəriyyəsini və bu nəzəriyyədə əhatə olunan bir sıra qanunları (o cümlədən kütlə ilə enerjinin əlaqəsi qanununu) kəşf etmişdir. O, məkan və zamanı, kütlə və enerjini, cazibə və ətaləti üzvi surətdə əlaqələndirdi, həmin əlaqələri riyazi şəkildə ifadə etdi. Bu da atom əsrinin başlanmasına gətirib çıxartdı, eyni zamanda kainat və onun qanunauyğunluqları barədə yeni təsəvvürlərin meydana gəlməsinə səbəb oldu.

Məlum olduğu kimi, Eynşteynin kəşfinə qədər fizika elmində zaman, kütlə, enerji cazibə və ətalət müstəqil kateqoriyalar sayılırdı. Eynşteynin xüsusi və ümumi nisbilik nəzəriyyəsini artıqmaqla bu anlayışları vahid, çoxcəhətli bir kateqoriyada birləşdirdi.

Eynşteynin bu kəşfi məkan və zaman, materiya və zaman, mateqiya və hərəkət haqqında materiyanın varlığı haqqında nəzəriyyəsini sübut edən mühüm faktlardan biri oldu.

Gətirilən misallardan aydın olur ki, hansı alim yaşadığı əsrin kainat haqqındakı bütün biliklər külliyyatını öz sələflərindən daha dərin təsəvvür edə bilirsə, ən böyük kəşflərin sahibi də o olur.

Ədəbiyyat

1.İmanov S.Ş. Orta məktəbdə fizika tədrisi metodikası (Ümumi hissə) Bakı. ADPU, 2004
2. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006
6. Kərimov Y.Ş. Təlim metodları (dərs vəsaiti) Bakı, 2007, 271 s. . 26 - 32.
7. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri.(Mühazirə xülasələri) Dərs vəsaiti. Bakı, 2011.

FİZİKA KURSUNUN TƏDRİSİNDƏ TƏLİM METODLARINI VƏ ÜSULLARINI SEÇMƏYİN VƏ TƏTBİQ ETMƏYİN BƏZİ MƏSƏLƏLƏRİ

T.f.d. Məmmədova S.O., Dos. Quliyev N.İ., Məmmədova X.E.
Gəncə Dövlət Universiteti

Xülasə

Qanunları tədris etmək üçün müəllim metodları seçərkən ilk növbədə onların xarakterini nəzərə alır. Daha doğrusu, metodları məzmuna görə seçir. Çünki, müəllimlə şagirdin iş formasının didaktik məqsədləri də, şagirdlərin bilik əldə edəcəkləri mənbələr üzərində müstəqil işi də, məhz məzmunla bağlıdır. Məlum olduğu kimi, qanunlar öz xarakterinə görə anlayışlardan və kəmiyyətlərdən fərqlənir. Əgər anlayışlar müxtəlif kəmiyyətlər arasındakı əlaqələrin öyrənilməsi, ümumiləşdirilməsi əsasında yaranırsa, qanunlar anlayışlar arasındakı əlaqələrin araşdırılması, qanunauyğunluqların müəyyən edilməsi, sintez əsasında aşkara çıxarılıq. Qanunların öyrənilməsi üçün daha dərin ümumiləşdirmə və mücərrədləşdirmə tələb olunur

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ НЕВЫБОРА И ПРИМЕНЕНИЯ МЕТОДИКИ ОБУЧЕНИЯ И МЕТОДОВ ПРИ ПРЕПОДАВАНИИ КУРСОВ ФИЗИКИ

Д.ф.т. Мамедова С.О., Доц. Гулиев Н.И., Мамедова Х.Э.,
Гянджинский Государственный Университет

Резюме

При выборе методов обучения законам учитель в первую очередь учитывает их характер. Скорее, он выбирает методы в соответствии с их содержанием. Это связано с тем, что с содержанием связаны как дидактические цели формы работы «учитель-ученик», так и самостоятельная работа учащихся над источниками, из которых они будут получать знания. Если понятия возникают на основе изучения и обобщения отношений между различными величинами, то законы выявляются на основе изучения отношений между понятиями, установления закономерностей, синтеза. Изучение законов требует более глубокого обобщения и абстрагирования.

SOME PROBLEMS OF NOT CHOOSING AND APPLYING TEACHING METHODS AND METHODS IN TEACHING PHYSICS COURSES

D.ph.t. Mammadova S.O., As.pr. Guliyev N.I., Mammadova Kh. E.
Ganja State University

Summary

When choosing methods for teaching laws, the teacher first takes into account their nature. Rather, it selects methods according to their content. This is because both the didactic purposes of the teacher-student form of work and the students' independent work on the sources from which they will acquire knowledge are related to the content. If concepts arise on the basis of the study and generalization of the relations between different quantities, then the laws are revealed on the basis of the study of the relations between the concepts, the determination of regularities, the synthesis. The study of laws requires a deeper generalization and abstraction.

FİZİKADAN YENİ TƏLİM TEXNOLOGİYALARININ STURUKTUR VƏ FUNKSİONAL KOMPONENTLƏRİ

Dos. Quliyev N.İ., Məmmədzadə A.C., Zeynalova F.S.
Gəncə Dövlət Universiteti

Açar sözlər: pedaqoji texnologiya, təlim, prinsip,psixoloji texnologiyalar, təlim texnologiyası, tərbiyə texnologiyası, inkişaf texnologiyası,

Key words: pedagogical technology, training, principle, psychological technologies, training technology, educational technology, development technology

Praktik mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar kompleksi başa düşülür.[1] Pedaqoji texnologiyada müəllimin fəaliyyətini aşağıdakı funksional komponentlərə ayırmaq olar:

1)Qnostik (idraki) komponent 2) Layihələşdirici komponent 3) Konstruktiv komponent 4) Təşkilatçılıq komponenti 5) Kommunikativ (ünsiyyət) komponent

Beləliklə, **müəllimin təlim texnologiyalarını** aşağıdakı əməliyyatlar təşkil edir:

I. Bilikləri toplamaq üçün (əldə etmək) əməliyyatlar
II. Təlimin və təhsil-tərbiyənin məqsədlərini layihələşdirmək üçün əməliyyatlar
III. Təlim və təhsil-tərbiyə prosesini təşkil etmək üçün əməliyyatlar
IV. Bilikləri şagirdlərə öyrətmək üçün əməliyyatlar

Qnostik komponentə daxildir: təlim, təhsil-tərbiyənin məqsədləri, tədris etdiyi fənnin məzmunu barədə biliklər, şagirdləri öyrənmək, təlim prinsiplərini və texnologiyalarını öyrənmək, öyrədici və tərbiyəedici məşğələlər keçirmək və s. **Layihələşdirici komponent.** Uzaq məqsədləri (pespektivləri), əməliyyatları, vasitələri özündə birləşdirir; layihələşdirmə cinsi fərqlər nəzərə almaqla həyata keçirilməlidir **Konstruktiv komponent.** Qarşıdakı məşğələni hazırlamaq üçün əməliyyatlar komplektini nəzərdə tutur

Təşkilatçılıq komponenti. Məşğələləri hazırlamaq və keçirmək üçün əməliyyatlar komplektini nəzərdə tutur

Kommunikativ komponent. Şagirdlərlə qarşılıqlı ünsiyyət prosesi zamanı fəaliyyət üçün əməliyyatlar komplektini özündə birləşdirir. Son iki komponent (kommunikativ və təşkilatçılıq komponentləri) bir-biri ilə sıx əlaqədədirlər.

Texnologiyaların müxtəlif təsnifatları var. Onlardan ikisi - **pedaqoji və psixoloji texnologiyalar** xüsusilə qeyd edilməlidir.

Pedaqoji texnologiyalarda əməliyyatlar və hərəkətlər fiziki cəhətdən hiss olunur. **Psixoloji texnologiyalar** gizli xarakter daşıyır. Bu, konkret insanın psixikasında baş verən əməliyyatlar və hərəkətlərdir. Amma pedaqoji və psixoloji texnologiyalar arasında dəqiq sərhəddi müəyyənləşdirmək olduqca çətindir. [4]

Pedaqoji texnologiyalar aşağıdakı kimi təsnif oluna bilər: *1) Təlim texnologiyası ;2) Tərbiyə texnologiyası; 3) inkişaf texnologiyası; 4) Diaqnostika texnologiyası*

Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür.

Tərbiyə texnologiyası dedikdə, nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin, məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür.

İnkişaf texnologiyası təlim və təhsil-tərbiyə texnologiyası ilə əlaqədardır. Psixi inkişaf dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların (çıxarılması) çoxalması nəzərdə tutulur.

Diaqnostika texnologiyası pedaqoqlarm və ya psixoloqların uşağın məktəbə hazırlığını diaqnostlaşdırmasıdır. Pedaqoji texnologiyaların psixi materialı vardır. Məsələn, təlim prosesində predmetlərin və hadisələrin psixi obrazları biliklərin psixi materialı hesab olunur. 12 növ analizatorun beyinə gətirdiyi informasiya orada 12 növ obraz yaradır. Deməli, biliklər şagirdlərin psixikasında formalaşmış obrazlardır. Əgər biliklərin psixi materialı obyektlərin və ya hadisələrin obrazlarıdırsa, inkişafın psixi materialı psixi əməliyyatlardır. Bu əməliyyatlar psixi proseslərdə həyata keçirilir. Şagirdlərin psixi inkişafı psixi proseslərdə yeni psixi əməliyyatların formalaşdırılmasmı nəzərdə tutur. Cəmiyyət inkişaf etdikcə hər sahədə olduğu kimi pedaqoji sahədə də yeni-yeni tələblər irəli surulur. Bu isə pedaqoji prosesintəkmilləşməsi, yeni məzmun, forma və metodlar tətbiq etməyi zəruri edir.[5]

Pedaqoji sistemin təkmilləşməsi iki yolla həyata keçirilir:

1. İntensiv yol; 2. Ekstensiv yol

İntensiv yol pedaqoji sistemin daxili ehtiyatlarını işə salmaqla bağlıdır. Məsələn, yeni metodlar tətbiq etməklə şagirdlərə müstəqil iş bacarıqları aşılanmaqla onları özünü təhsilə cəlb etməkintensiv yoldur.

Ekstensiv yol pedaqoji prosesə əlavə vaxt və vəsait cəlb olunmasını nəzərdə tutur. Məsələn, gənc nəslə möhkəm bilik vermək ücün təlim müddətini uzatmaq, proqramları genişləndirmək olar. Bu ekstensiv yoldur. Halbuki bunsuz da məqsədə nail olmaq mumkundur. Pedaqoji prosesdə yeniliklərin miqyası müxtəlif ola bilər. Müəyyən bir metodu, formanı təkmilləşdirmək, yeni iş texnologiyalarını tətbiq etmək, yaxud təhsil- tərbiyə sistemini yeniləşdirmək.

Təlim metodu bütövlükdə pedaqoji proseslərin ünsürlərindən olub, digər ünsürlərlə vəhdətdə çıxış edir.[3] O təlimin məqsəd və məzmununa xidmət edir. Məqsəd və məzmun dəyişdikcə metod və texnologiyalar da dəyişir. Qeyri səmərəli metodlarla yüksək təlim-tərbiyə nəticələrinə nail olmaq olmaz. Müasir dərs yalnız tədris vəzifələrinin deyil, təlim, tərbiyə və inkişafın bir-biri ilə qarşılıqlı əlaqədə olduğu kompleks vəzifələrinin planlaşdırılmasmı tələb edir.

Təlimləndirici funksiya: Pedaqoji texnologiyaların bu funksiyası aparıcı vəzifədir. Bu funksiyanın nailiyyətləri dərsdə qarşıya qoyulmuş didaktik vəzifəyə tam uyğun olaraq demokratik və adekvat metodu seçməkdə məzmun son dərəcə aydın və ifadəli təmin edilməsində özünü göstərir.

Tərbiyəedici funksiya: Ənənəvi təlim prosesində tərbiyəedici dərs dərsin müəyyən hissəsində onun ücün bilavasitə əlverişli şəraitin olması anda yerinə yetirilir. Adətən bir çox hallarda material izah olunub başa çatandan sonra tərbiyəvi nəticə çıxarılır. Təlim metodlarının köməyi ilə əsas tərbiyəvi ideyalar kollektivçilik, əməkdaşlıq, qarşılıqlı, yaradıcı və s. həyata keçirilir. Kollektiv fəaliyyətdə şəxsiyyətlərarası əlaqələr möhkəmləndirilir. Təlim prosesində müəllim şagirdin idrak fəaliyyətini idarə edir, onu inkişaf etdirir. İnkişafetdirici

təlim idealı ensiklopedik, inkişaf etmiş şəxsiyyət deyil, çevik, ağıllı, hər yeniliyə cəld reaksiya verən, gələcəkdə dərk etməyə və müstəqil fəaliyyətə tələbatları olan, yaxşı bələdləşmə vərdişlərinə, yaradıcı qabiliyyətə yiyələnən şəxslərdir.

İlk dəfə inkişaf etmiş ölkələrdə yaranmış yeni pedaqoji texnologiyalarla [2] əlaqədar təlim metodları keçən əsrin yetmişinci illərində məktəblərdə "Proqramlaşdırılmış təlim" adı ilə geniş tətbiq olunmağa başlanmışdır. Bu ölkələrdə yeni pedaqoji texnologiyalar təlim metodları kimi proqramlaşdırıldığı halda, bizim məktəblərimizdə bu metod düzgün qiymətləndirilmədiyindən müsbət nəticə verməmişdir. Lakin bütün bunlara baxmayaraq, o illərdən başlayaraq tədricən yeni pedaqoji texnologiyalarla əlaqədar proqram tələblərinin şərtləri elmi-nəzəri cəhətdən əsaslandırılmış və tətbiqinə dair tövsiyələr hazırlanmışdır.

Ədəbiyyat

1.İsmayılov İ.N. Fizikanın tədrisi metodikaasınm təkmilləşdirilməsində yeni informasiya texnologiyaları vasitələrinin yeri, rolu və funksiyaları. // Pedaqoji Universitet xəbərləri, 2005, №2.
2.Mehrabov A., Bəylərov E. Şagird intellektinin inkişafı. Bakı, 2006
3.Kərimov Y.Ş. Təlim metodları (dərs vəsaiti) Bakı, 2007, 271 s. . 26 - 32.
4.Əliyev A. Yeni (müasir) pedaqoji texnologiyalar və onlardan təlim praktikasında sistemli istifadənin əhəmiyyəti. "Təhsil problemləri" qəzeti, 21-30 iyun, 2007.
5.Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri.(Mühazirə xülasələri) Dərs vəsaiti. Bakı, 2011

FİZİKADAN YENİ TƏLİM TEXNOLOGİYALARININ STURUKTUR VƏ FUNKSİONAL KOMPONENTLƏRİ

Dos. Quliyev N.İ., Məmmədzadə A.C., Zeynalova F.S.
Gəncə Dövlət Universiteti

Xülasə

İlk dəfə inkişaf etmiş ölkələrdə yaranmış yeni pedaqoji texnologiyalarla əlaqədar təlim metodları keçən əsrin yetmişinci illərində məktəblərdə "Proqramlaşdırılmış təlim" adı ilə geniş tətbiq olunmağa başlanmışdır. Bu ölkələrdə yeni pedaqoji texnologiyalar təlim metodları kimi proqramlaşdırıldığı halda, bizim məktəblərimizdə bu metod düzgün qiymətləndirilmədiyindən müsbət nəticə verməmişdir. Lakin bütün bunlara baxmayaraq, o illərdən başlayaraq tədricən yeni pedaqoji texnologiyalarla əlaqədar proqram tələblərinin şərtləri elmi-nəzəri cəhətdən əsaslandırılmış və tətbiqinə dair tövsiyələr hazırlanmışdır.

СТРУКТУРНО-ФУНКЦИОНАЛЬНЫЕ КОМПОНЕНТЫ НОВЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ ПО ФИЗИКЕ

Доц. Гулиев Н.И., Мамедзаде А.Дж., Зейналова Ф.С.
Гянджинский Государственный Университет

Резюме

Методы обучения, связанные с новыми педагогическими технологиями, впервые появившимися в развитых странах, стали широко применяться в школах в семидесятых годах прошлого века под названием «Программированное обучение». В то время как в этих странах в качестве методов обучения запрограммированы новые педагогические технологии, в наших школах этот метод не дал положительных результатов из-за неправильной оценки. Однако, несмотря на все это, начиная с тех лет научно и теоретически обосновывались условия программных требований, связанных с новыми педагогическими технологиями, и вырабатывались рекомендации по их применению.

STRUCTURAL AND FUNCTIONAL COMPONENTS OF NEW EDUCATIONAL TECHNOLOGIES IN PHYSICS

As.pr. Guliyev N.I., Mammadzada A.C., Zeynalova F.S.
Ganja State University

Summary

Teaching methods related to new pedagogical technologies, which first appeared in developed countries, began to be widely used in schools in the seventies of the last century under the name "Programmed learning". While new pedagogical technologies are programmed as teaching methods in these countries, this method has not yielded positive results in our schools due to incorrect assessment. However, in spite of all this, starting from those years, the conditions of the program requirements related to new pedagogical technologies have been scientifically and theoretically substantiated and recommendations for their application have been developed.

FİZİKANIN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN QARŞILIQLI ÜNSİYƏTİNİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

f.r.f.d. [1]Səlimov İ. N., dos. [2]İsmayılov E.X.
Qərbi Kaspi Universiteti[1], Gəncə Dövlət Universiteti[2]

Açar sözlər*:* kommunikativ bacarıq və vərdişlər, hadisə, fakt, tərif, anlamaq, təhlil etmək, mediya bacarığı, texnologiya vərdişi

Key words*:* communicative skills and habits, event, fact, definition, comprehension, analysis, media skills, technology skills

Fizika təbiət haqqında elm olub materiyanın müxtəlif formalarını, onun xas-sələrini və qarşılıqlı çevrilməsini öyrənir. Fizikanın qanunauyğunluqları təbiətdə baş verən bütün hadisələrin, cansız və canlı materiyanın qarşılıqlı əlaqələrinin öyrənilməsində, elmi- texniki tərəqqinin inkişafında aparıcı rol oynayır. Buna görə də fizika fənninin öyrənilməsi şagirdlərə digər təbiət elmlərinin mənimsənilməsinə, təbiət hadisələrinə, elm, texnika və istehsalatın müxtəlif sahələrinin əsas proseslərinə yaxından bələd olmaq imkanı verir. [1,2]

Fizikanın öyrənilməsi şagirdlərin məntiqi təfəkkürünü formalaşdırmaq, mühakimə və dərk etmə qabiliyyətini yüksəltmək, nitqini inkişaf etdirmək üçün güclü vasitədir. Müşahidələrə qiymət vermək, fiziki hadisələr arasında əlaqəni izah etmək, nəticəni qabaqcadan duymaq, proqnozlar vermək, fərziyyə və nəzəriyyələri eksperimentdə yoxlamaq, məntiqi təfəkkürü inkişaf etdirmək bacarıqlarını formalaşdırır. Şagirdlər hadisənin, faktın, tərifin, qanunun yazılı və şifahi dildə düzgün şərhini verməklə nitqlərini inkişaf etdirirlər. [3]

Fizika şəxsi keyfiyyətləri formalaşdıran vasitədir. Ümumtəhsil məktəblərində fizikanın tədrisi şagirdlərdə çoxlu şəxsi keyfiyyətlər formalaşdırır. Bunlara dünya-görüşü, bilik, bacarıq, vərdiş, qabiliyyət, adət, iradə, əməksevərlik və s. aiddir.

Fizika fənninin təlimi prosesində "şagirdlərdə kommunikativ bacarıqları inkişaf etdirmək" ümumtəhsil məktəblərində fizikanın tədrisi metodikasının qarşısında duran aktual məsələlərdəndir.[5]

Fizika fənninin təlimi prosesində şagirdlərin kommunikativ bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi fizikanın tədrisi qarşısında duran əsas vəzifələrin reallaşdırılması ilə üzvi surətdə əlaqədə olub, onların müvəffəqiyyətlə həyata keçirilməsinən asılıdır.

Fizika təlimində kommunikativ bacarıqlar dedikdə, şagirdlərin fizika fənninə dair bilikləri əldə edilməsi, öyrənilməsi, qazanılmış biliklərin praktik tətbiq edilməsi, fizikanın qanunauyğunluqları, təbiətdə baş verən bütün hadisələrin, cansız və canlı materiyanın

qarşılıqlı əlaqələrinin şifahi və yazılı formada düzgün ifadə etmək, fiziki prosesləri riyazi modelləşdirmək və.s. kimi fəaliyyətlərin müvəffəqiyyətlə yerinə yetirilməsi başa düşmək olar.

Ümumtəhsil məktəblərində şagirdlərin kommunikativ bacarıqlarının formalaşdırılması ibtidai məktəb kursundan başlanır. Belə ki, uşaqlar məktəbə gəldikdə sinifdəki şagirdlərlə ünsiyyətdə olur, onlar haqqında məlumatlar alır, özü haqqında məlumat verir. Sinifdə və eləcədə məktəbdə davranış qaydaları ilə tanış olur, məktəbdaxili qaydalara əməl edir. Sonrakı mərhələlərdə şagirdlərdə ünsiyyət bacarıqları, ifadəli oxu bacarıqları, fikirlərini ifadə etmək bacarıqları, dinləmək və düşünərək cavab vermək, qruplarda əməkdaşlıq etmək, yoldaşlarının fikirlərinə hörmətlə yanaşmaq və i.a. kimi kammunikativ bacarıqları formalaşdırılır və inkişaf etdirilir.[5]

Fizika fənninin tədrisi ilə şagirdlərdə yeni məzmunlu kommunikativ bacarıqlar formalaşdırılır. Bu bacarıqlar fizika fənninin təlim məqsədlərindən irəli gəlir və

Fizikanın tədrisi qarşısında duran əsas vəzifələrlə şərtlənir:

- fizika elminin əsaslarına aid ən mühüm faktlara, qanunlara və onların praktikada tətbiqinə dair anlayışların formalaşdırılması;
- şagirdlərdə ölçü cihazları və laboratoriya avadanlıqları ilə işləmək, həmçinin müxtəlif hesablamalar aparmaq, alınan nəticələri təhlil etmək bacarıqlarının formalaşdırması;
- texniki yaradıcılıq və ixtiraçılıq qabiliyyətinin yüksəldilməsi;
- fizikanın ümumbəşəri mədəniyyətin tərkib hissəsi və cəmiyyətin sosial-iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsi olması haqqında təsəvvürün yaradılması;
- dünyanın bütövlükdə dərk edilməsi və müasir fiziki mənzərəsi haqqında təsəvvürlərin formalaşdırılması;
- digər təbiət fənlərinin öyrənilməsi üçün real zəminin yaradılması.

Fizika fənninin təlimi ilə şagirdlər fizika elminin ən mühüm faktlatına, qanunlarına dair bilikləri mənimsəyir və onların praktikada tətbiq etməyi bacardığını yazılı və şıfahi şəkildə düzgün ifadə edir, fizika fənninin terminalogiyası ilə tanış olur və həmin terminləri düzgün ifadə etmək bacarığını nümayiş etdirir. Fiziki qanunauyğunluqlar və qanunların riyazi modelləşməsini bilir, onları yazilı şəkildə və şərhlər verməklə ifadə etməyi bacarır, sərbəst məsələ həll etməyi bacardığını nümayiş etdirir, sahib olduğu bilikləri sinif yoldaşlarına öyrətməyi bacarır. Sinif yoldaşlarının təlimdəki uğursuzluqlarının aradan qaldırılmasında fəallıq göstərir.[4]

Fizika fənninin tədrisi ilə şagirdlər ölçü cihazları və laboratoriya avadanlıqları ilə işləmək, həmçinin müxtəlif hesablamalar aparmaq bacarıq və vərdişlərinə, alınan nəticələri təhlil etmək bacarıqlarını uğurla nümayiş etdirirlər.

Fizikanın təlimi ilə şagirdlərdə texniki yaradıcılıq və ixtiraçılıq qabiliyyətləri formalaşdırılır, aldığı nəticələri nümayiş etdirir.

Şagirdlərin kommunikativ bacarıqları öz ifadəsini ən çox fizika dərslərində və fizikadan sinifdənxarıc işlərdə biruzə verir. Belə ki, şagirdlər sinifdənxarıc tədbirlərə hazırlaşarkən müxtəlif mənbələrdən məlumatları toplayır, məruzə hazırlayır, dahi fiziklərin həyat və yaradıcılıqları haqqında lakonik material hazırlayır, fənn bülletenlərinə məqalələr hazırlayır, fənnə dair diskusiyalar təşkil edir və s. Sinif yoldaşları ilə birgə əməkdaşlıq, birgə iş görmək, birgə işə görə məsuliyyət daşımaq kimi bacarıqların nümayiş etdirilməsi şagirdlərin kommunikativ bacarıqlarının bariz nümunəsidir.

Sinif fəallarının uğurlarının və yaxud məktəbin uğurlarının geniş ictimaiyyətə çatdırılması üçün müsahibələrin aparılması , mətnlərinin, mətbuatda dərc etdirmək məqsədi ilə materialların və məqalə mətnlərinin hazırlanması şagirdlərdə mediya bacarıqlarının formalaşması və inkişaf etməsinə səbəb olur.

Fizika təlimi prosesində şagirdlərin kommunikativ bacarıqlarını aşagıdakı kimi qruplaşdırmaq olar:

- Fiziki terminalogiyanın, qanunların və riyazi modelləşmənin düzgün ifadəsi;
- Fiziki proseslərin təsviri üsul və metodlarına sahib olmaq, onlardan istifadə etmək; təsvir edilən fiziki proseslər haqqında olan informasiyanı müxtəlif yollarla şərh etmək, onlar üzərində müzakirə aparmaq, onları bir-biri ilə əlaqələndirmək;
- Ölçü cihazları və laboratoriya avadanlıqları ilə işləmək , müxtəlif hesabatlar aparmaq, alınan nəticələri təhlil etmək;
- Fiziki qanun və qanunauyğunluqları danışıq və yazı yolu ilə aydın, lakonik ifadə etmək;
- Başqalarının fikirlərini anlamaq və təhlil etmək;
- Müxtəlif qruplarla effektiv iş bacarığının nümayiş etdirilməsi ;
- Ümumi məqsədə nail olmaq üçün zəruri kompromislərin əldə edilməsi və bu istiqamətdə çeviklik və istəyin nümayiş etdirilməsi ;
- Birgə işə görə məsuliyyət daşımaq;
- Müxtəlif ünsiyyət növlərinin (yazılı, şıfahi və müxtəlif forma və şəraitlərdə multimedia vasitələrinin köməkliyi ilə) yaradılması və onlardan istifadə, effektiv ünsiyyətin rolunun dərk olunması;
- İnformasiya ilə işləmək bacarıqları, mediya və texnologiya vərdişləri.

Beləliklə, fizika fənninin təlimi prosesində şagirdlərdə kommunikativ bacarıqların formalaşması və inkişaf etməsi onların təşkilatçılıq, idarəetmə, ünsiyyətqurma, fikrini aydın və lakonik ifadə etmə, texnoloji bacarıqları nümatiş etdirmə və s. kimi qabiliyyətlərin formalaşması və inkişaf etməsi təmin olunur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (Kurikulumu) Bakı-2013.
2. Mehrabov A. “Azərbaycan təhsilinin müasir problemləri” Bakı 2007
3. Vahidov T.S., Vahabov İ.T “Orta məktəbdə fizikanın tədrisinin metodoloji əsasları” Bakı, Təhsil 2009
4. Orucov V.Ö. “Fizikanın tədrisi metodikasının aktual problemləri” Bakı 2007
5. İsmayılov İ. “Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları” Bakı 2012

FİZİKANIN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN QARŞILIQLI ÜNSİYƏTİNİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

Xülasə

Məqalədə fizika fənninin təlimi prosesində şaqırdlərdə kommunikativ bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi metodikasına həsr olunmuşdur. Şagirdlərdə kommunikativ bacarıqların formalaşması və inkişaf etməsi onların təşkilatçılıq, idarəetmə, ünsiyyətqurma, fikrini aydın və lakonik ifadə etmə, texnoloji bacarıqları nümatiş etdirmə və s. kimi uğurlu fəaliyyətləri təmin edilir, şəxsiyyət kimi formalaşır.

ФОРМИРОВАНИЕ И РАЗВИТИЯ ВЗАИМНЫЕ ОТНОШЕНИЙ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ФИЗИКИ

Резюме

Статья посвящена методике формирование и развития коммуникативная навыков учащихся в процессе обучения физика. Формирование коммуникативного навыков учащихся, их обеспечивает умения организации, управления и его мнение понятно выражение, обеспечивает деятельность и формирование личности.

FORMATION AND DEVELOPMENT OF STUDENTS RELATIONS IN THE PROCESS OF TEACHING PHYSICS

Summary

The article is devoted to the formation and development of communication skills training in physics şaqırdlərdə method. Students in the formation and development of the idea of creating communication, management, organization, communication skills, technology skills, and others have expressed their clear and concise nümatiş the. As the report says, provides form of scoring.

FİZİKANIN TƏDRİSİNDƏ ANALOGİYALAR VƏ MODELLƏRDƏN İSTİFADƏ METODİKASI

Dos. Quliyev N.İ., Dos. İmanov R.M., Həsənova B.M.
Gəncə Dövlət Universiteti

Açar sözlər: model, analogiya, maddə, sahə, kristallaşma, qaynama, fiziki obyekt
Key words: model, analogy, substance, field, crystallization, boiling, physical object

Həm klassik, həm də müasir fizikada modellərdən və analogiyalardan geniş istifadə olunması, onlardan orta və ali məktəblərdə tədris prosesində istifadə etməyə imkan verir. Məsələn, fizikanın tədrisi prosesində, maddə, sahə, onun struktur elementləri (molekullar, atomlar, elektronlar, fotonlar və s.) analayışları ilə qarşılaşır və onları öyrənirik. Fiziki obyektlərin bəzi xarakteristikalarının onlarla birbaşa təmasda olmaqla, adi gözlə müşahidə edərək öyrənmək olur. Maddələrin əriməsi, kristallaşması, qaynaması, buxarlanması, kondensasiyası buna misal ola bilər.[1] Fiziki obyektlərin belə öyrənilməsi təbii (naturadan) öyrənmə adlanır. Bu üsulun üstünlükləri aşağıdakılardır:

1. Tələbədə (şagirddə) həqiqəti özündə birbaşa əks etdirən hissiyyat surətləri yaranır ki, bu da onların öyrənməsinin zəruri şərtidir.
2. Naturadan öyrənmə zamanı əldə edilən bilik ən etibarlı hesab olunur, çünki bu halda tələbə (şagird) öyrəndiyi obyektlə birbaşa təmasda olur.

Tədris modeli dedikdə, quruluşu və funksiyası ilə orijinalın bütün element və strukturlarını özündə əks etdirən model başa düşülməlidir. Modelin müxtəlif xarakteristikaları orijinala nəzərən invariant olur. Bu halda tələbə (şagird) qurulmuş modellə işləməli olur. Belə öyrənmə model öyrənmə adlanır.[2]

Müəllimin rəhbərliyi ilə tələbə (şagird) modellə əlaqəli şəkildə öyrənilən obyekt barədə biliyə yiyələnir. Bu üsulu fərqləndirən xüsusiyyət tələbənin aldığı biliyin model vasitəsilə birbaşa obyektin özü ilə tutuşdurulmasıdır.

Fiziki obyektlərin tədris modelləri bir sıra müsbət didaktik xassəyə malikdir və onların tədris metodikasında istifadəsi aşağıdakılara imkan verir:

- öyrənilən predmetin əsas elementlərinin seçilməsi;

- tələbələrə qapalı və görünməyən düyünlərin təqdim olunması;
- proseslərin kinematikasının yavaşıdılmış və ya sürətləndirilmiş hallarda müşahidə edilməsi və onların lazım olan qədər nümayiş etdirilməsi;
- məktəb şəraitində göstərilməsi mümkün olmayan hadisənin öyrədilmə obyekti kimi seçilməsi;
- modellərin laboratoriya işlərində paylanılan didaktik material kimi, mühazirələrdə isə nümayiş qüzgüsü kimi istifadə edilməsi və s.

Modellərin xüsusiyyətindən yerində istifadə edilməsi və tədris metodikasında onlara istinad edilməsi tədris materialının daha yaxşı qavranılmasma, tələbələrin bilik və bacarıqlarının surətlə formalaşmasına şərait yaradır. Tədrisin müxtəlif mərhələlərində istifadə olunan modellər həm səviyyəsinə, həm də mənimsənilmə dərəcəsinə görə fərqli olmalıdır. Məsələn, bəzi hallarda istifadə edilən model, prosesin yalnız müəyyən mərhələ və ya elementlərini xarakterizə edib, onun daxili mahiyyətini dərk etməyə imkan vermir. Obyektlə müqayisədə modelin özünəməxsus xüsusiyyətləri tədris prosesində onun reallaşması metodikasına məlum tələblər qoyur. Hər şeydən əvvəl model qurularkən onun hansı fiziki prosesi və onun hansı tərəflərini əhatə etdiyi müəyyənləşdirilməlidir. Sonra orijinalla modelin müqayisəsindən özünəməxsus xüsusiyyətləri aydınlaşdırmaq lazımdır. Yalnız bundan sonra hadisənin model vasitəsilə tədqiqinə qərar verilir. Hadisənin sonrakı öyrənilmə prosesi modeldə çatışmayan elementlərin və rabitələrin əvəz edilməsi ilə davam etdirilir.[3]

Metodik baxımdan yalnız bir didaktik məsələni həll edə bilən modellər qurulur. Belə modelə əsaslanaraq, yalnız bir strukturu (daxili yanma mühərrikinin kəsiyini, kristal qəfəsin modelini və s.) və yalnız funksiyasını (elektrik dövrəsinin hidrodinamik modeli, elektronların ətalət üzrə metal daxilində hərəkətetmələrini) öyrənmək olur. Belə modellər analoq modellər adlanır. Onlar orijinalla nə həndəsi, nə də fiziki oxşarlığa malik deyillər. Məsələıı, qapalı elektrik dövrəsində yüklərin hərəkət prosesinin mahiyyətini nümayiş etdirmək üçün yivəbənzər maili müstəvidə kürəciyin ağırlıq qüvvəsinin təsiri ilə hərəkətindən istifadə edilir. Didaktik təyinatına görə fiziki obyektlər və proseslərin rəsm və fotoqrafık modelləri mahiyyətcə eynidir. Onlar orijinalla həndəsi oxşarlığa malik olub, real obyektləri sərbəst ifadə edir. Lakin bunun üçün istifadə olunan şəkillər çoxsaylı olmalıdır.[4]

Fiziki nəzəriyyənin əsasını izah edərkən modellərin və ya analoqların rolu xüsusi əhəmiyyət kəsb edir. Qazların nəzəriyyəsini izah edərkən, real qazların əsas xassələrini (yüksək axıcılıq, sıxılma və s.) qaz hissəcikləri arasında çox cüzi qarşılıqlı təsirin mövcud olmasını xüsusi qeyd etmək lazımdır. Qaz molekullarının müxtəlif konfiqurasiyaya və ölçüyə malik olması xüsusi qeyd edilməlidir. Qazların kəmiyyətcə nəzəriyyəsini yaratmaq üçün qaz molekullarmı elastiki kürəcik kimi təsəvvür edib, ona Nyuton mexanikasının aparatlarını tətbiq etmək lazımdır. Kürəciklərin ölçüləri çox kiçik molekullar tərtibində qəbul edilməlidir.[5]

Məsələn, metalların klassik elektron nəzəriyyəsinin yaradılmasında qazm mənfi yüklü hissəciklərdən ibarət olması fərziyəsindən istifadə edilməsi həlledici rol oynayıb. Bu nəzəriyyənin sonrakı təkmilləşməsindən müasir zona nəzəriyyəsi yaradılmışdır. Adətən, ideallaşdırılmış modellərdən və analogiyalardan, öyrənilməsi və ya qavranılası çətin olan hadisələrin izah edilməsində istifadə edilir. Mücərrəd nəzəriyyənin elementləri yalnız bu elementlərə konkret analoq hadisələr tapıldıqda başa düşülür. İdeallaşdırılmış model hadisənin bir modelini başqasının üzərində qurmağa, bir şərhi digəri ilə əvəz etməyə imkan verir.

Simvolik (işarə) modellər öyrənilən obyektin quruluşunun və funksiyalarının şərti işarələrlə (nöqtə, xətt, rəqəm, hərf, və s.) göstərilməsidir Bu modellərin özünəməxsusluğu ondadır ki, burada elementlərin və onların rabitələrinin işarələri şərtidir. Elmdə və tədrisdə simvolik modellərə böyük tələbat təbiidir.

Simvolik modelin növlərindən biri təsvir modelləridir. Tutaq ki. müəllim şifahi

danışıqda fiziki prosesin xarakterik əlamətlərini və qanunauyğunluqlarını təsvir edir. Tələbə bu təsvirdən aldığı informasiyanı çevirərək özünün analoji modelini yaradır.

Həm elmi, həm də tədris baxımından bir model digər modellərin formalaşmasına kömək edə bilər. Onlar öyrənilən hadisənin ümumiləşdirilməsi, onun mücərrədləşmə dərəcəsinin artırılması və dinləyicilərin düşünmə məntiqini inkişaf etdirmək üçün bir vasitədir. Fiziki, düstur və tənliklərin öyrədici xarakterini tədris prosesində fiziki hadisənin qanunları və xassələri haqqında yeni məlumatlar almaq metodu kimi istifadə edirlər. Axtarılan kəmiyyətlər və konkret kəmiyyətlər, məsələn, məsələnin şərtini yazarkən formalaşdırılır. Ümumi həll prosesində vacib informasiya daşıyan model qurulur.

Ədəbiyyat

1. İmanov S.Ş., Şirinova S.A. Şagirdlərin fizikadan idrak fəaliyyətinin formalaşdırılması. Bakı: ADPİ, 1998, 43 s.
2. İsmayılov İ.N. Orta məktəb fizika kursunda «Optika» bölməsinin tədrisinin bəzi məsələləri / II Respublika Elmi Konfransının tezisbri, Bakı, 1997, s. 55-56.
3. Məsimov E.Ə., Mürsəlov T.M. Atom fizikası: Ali məktəblər üçün dərslik. Bakı: Çaşıoğlu, 2002, 912 s.
4. Mikayılov R.İ. Elementar fizika. Bakı: Maarif, 1981, 360 s.
5. Fizika fənn kurikurumu üzrə layihə. (VI-XI siniflər üçün)

FİZİKANIN TƏDRİSİNDƏ ANALOGİYALAR VƏ MODELLƏRDƏN İSTİFADƏ METODİKASI

Dos. Quliyev N.İ., Dos. İmanov R.M., Həsənova B.M.
Gəncə Dövlət Universiteti

Xülasə

Həm elmi, həm də tədris baxımından bir model digər modellərin formalaşmasına kömək edə bilər. Onlar öyrənilən hadisənin ümumiləşdirilməsi, onun mücərrədləşmə dərəcəsinin artırılması və dinləyicilərin düşünmə məntiqini inkişaf etdirmək üçün bir vasitədir. Fiziki, düstur və tənliklərin öyrədici xarakterini tədris prosesində fiziki hadisənin qanunları və xassələri haqqında yeni məlumatlar almaq metodu kimi istifadə edirlər. Axtarılan kəmiyyətlər və konkret kəmiyyətlər, məsələn, məsələnin şərtini yazarkən formalaşdırılır. Ümumi həll prosesində vacib informasiya daşıyan model qurulur.

ИЗ АНАЛОГИЙ И МОДЕЛЕЙ В ПРЕПОДАВАНИИ ФИЗИКИ МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ

Доц. Гулиев Н.И., Доц. Иманов Р.М., Гасанова Б.М.
Гянджинский Государственный Университет

Резюме

Одна модель, как научная, так и образовательная, может помочь сформировать другие модели. Они являются инструментом обобщения изучаемого события, повышения степени его абстракции и развития логики мышления аудитории. Учебный характер физики, формул и уравнений используется в учебном процессе как метод получения новых сведений о законах и свойствах физических явлений. Искомые величины и конкретные величины формируются, например, при написании условия задачи. Модель с важной информацией строится в общем процессе решения

FROM ANALOGIES AND MODELS IN PHYSICS TEACHING METHODOLOGY OF USE

As.pr. Guliyev N.İ., As.pr. İmanov R.M., Hasanova B.M.
Ganja State University

Summary

One model, both scientific and educational, can help shape other models. They are a tool for summarizing the studied event, increasing its degree of abstraction and developing the audience's thinking logic. The educational nature of physics, formulas and equations is used in the teaching process as a method of obtaining new information about the laws and properties of physical phenomena. The quantities sought and the specific quantities are formed, for example, when writing the condition of the problem. A model with important information is built in the overall solution process.

KLASSİK VƏ MÜASIR FİZİKADA İSTİFADƏ OLUNAN ANALOGİYALAR VƏ MODELLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

Dos. Quliyev N.İ., Həsənova B.M., Dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Açar sözlər: maddi nöqtə, analogiya, model, qüvvə xətləri, yerdəyişmə cərəyanı, atom, nüvə

Key words: material point, analogy, model, lines of force, displacement current, atom, nucleus

Təbiətşünaslıqda modelləmənin elmi əsaslarla inkişafı İ.Nyutonun yaradıcılığı ilə bağlıdır. «Natural fəlsəfənin riyazi başlanğıcı» kitabında o, oxşarlıq haqqında iki teorem vermişdir. Bu teoremlərə görə maye mühitdə hərəkət edən cismə göstərilən təsiri, hesablama qaydasını başqa hallara da aid etmək olar. İşıq hadisələrinə baxarkən Nyuton onun mexaniki modelindən istifadə edib. Nyuton işığın kiçik hissəciklərdən - korpuskullardan ibarət olduğunu fərz etmişdir. İşıq korpuskullarının hərəkətinə Nyuton özünün verdiyi mexanika qanunlarını tətbiq etmişdir. Beləliklə, o bu cür modelləmənin başlanğıcını qoymuşdur.[3]

Fiziki analogiyalar dedikdə, iki elm sahəsinin qanunlarının xüsusi halda uyğun gəlməsi başa düşülür ki, bunun da nəticəsində biri digərini müəyyən qədər əks etdirir. Maksvell fəzanın qüvvə xətləri çoxluğu dedikdə, qüvvənin istiqamətini təyin edən fiziki qüvvələrin intensivliyini xarakterizə etmək üçün baxılan əyriləri adi xəttlər kimi deyil, içərisində sıxılmayan maye axan dəyişən kəsikli borular kimi təsəvvür edir. O, elektromaqnetizmə aid olan «Faradey qüyvə xətləri haqqında» adlanan ilk işində müəyyən hipotetik mayenin axma modelindən istifadə edib, Faradeyin ideyalarının riyazi əsasını qurdu, bunun nəticəsində maqnetizm, elektrik cərəyanı və elektrik hərəkət qüvvəsi arasında riyazi əlaqə yaratdı. Burada olan mexaniki obrazdan, təsəvvürə kömək etmək üçün istifadə edilmişdir, amma onlar hadisənin yaranma səbəbi kimi getmir. Burulğanlı molekulyar cərəyanların modelindən istifadə edərək Maksvell onun nəzəriyyəsində mərkəzi ideya olan yerdəyişmə cərəyanına gəlib çıxır və tezliklə işığın elektromaqnit nəzəriyyəsini yaradır.[5]

Q.S.Om tərəfindən istifadə olunmuş elektrik yüklərinin hərəkəti, istilik və su cərəyanları arasındakı analogiya da diqqət çəkəndir. Omun analogiyası elmdə böyük əhəmiyyət kəsb edir. Elektrik cərəyanını istilik cərəyanı və su seli ilə müqayisə edərək, Om, ona qədər az öyrənilmiş bəzi elektrik kəmiyyətləri haqqında daha geniş və dəqiq məlumat vermişdir. Belə ki, 1827 - ci ildə Om elektrik cərəyanı, gərginlik, müqavimət və e.h.q. anlayışlarını vermişdir.[1]

Modellər (daha dəqiq modelləşdirmə) atomun quruluşunun öyrənilməsində böyük rol oynamışdır. Kruks katod şüalarının - atom tərkibinə daxil olan hissəcik seli olduğunu qeyd

etdikdən sonra, ilk dəfə olaraq atomun daxili strukturu haqqında birinci hipotezlər meydana gəlmişdir. Mendeleyev demişdir ki, atomlar dünyası da özünün günəşi, planetləri və peykləri olan göy cisimləri dünyasına bənzəyir. Amma bu atom modellərinin heç bir təcrübi əsasları olmamışdır və bunlar yalnız alimlərin analogiyaya əsaslanan fərziyyələridir.

Atomun elmi modeli elektronun yükü və kütləsi ölçüldükdən sonra meydana gəlmişdir (1887 - 1902). Kelvinin 1902 - ci ildə verdiyi modelə görə atomun müsbət yükü onun həcmində bərabər paylanmışdır, elektronlar isə bu müsbət yüklənmiş sferada yerləşmişdir. Amma çoxlu sayda elektronlar sistemi üçün fəza modelinin hesablanması olduqca çətin məsələ olduğundan, verilmiş modeli alimlər kəmiyyətcə qiymətləndirə bilmədilər. Kelvinin atom modeli C.Tomsonun (1903) sonrakı işlərində geniş göstərilmişdir. Həmin işlərdə elektronların müsbət yüklənmiş sfera ətrafında konsentrik örtüklərdə yerləşməsi göstərilmişdir.

Atomun quruluşu haqqında təlimin inkişafında vacib mərhələ Rezorford tərəfindən atomun nüvə və ya planetar modelinin yaradılması olmuşdur. 1910-cu ilin dekabrında Rezorford belə nəticəyə gəlmişdir ki, metallik lövhədən hissəciklərin anomal səpilməsi o zaman mümkün ola bilər ki, atomun mərkəzində, öz ətrafında güclü elektrik sahəsi yaradan kiçik ölçülü müsbət yük olsun. «Nüvə» terminini o ilk dəfə 1912- ci ildə istifadə etmişdir. Atomun planetar modeli klassik elektrodinamika təsəvvürləri ilə ziddiyət təşkil edir. Belə ki, bu modelə görə nüvə ətrafında fırlanan elektronlar sistemi dayanıqlı ola bilməz. Rezerford modelinin qeyd olunmuş uyğunsuzluğu N.Bor tərəfindən müəyyən dərəcədə yumşaldılmışdır.[4]

Belə ki, Bor «molekul və atomların quruluşu» əsərində yazmışdır ki, elektronların hərəkət qanunlarında dəyişikliklərin olmasına baxmayaraq, bu qanlunlara klassik elektrodinamikaya aid olmayan kəmiyyətləri də (yəni Plank sabitini) daxil etmək lazımdır.

Bərk cisimlərin kvant nəzəriyyəsində, Debay və Eynşteynin kiçik temperaturdakı istilik tutumlarına aid işlərindən başlayaraq çoxlu sayda modellərlə rastlaşmaq olar. Kvant mexanikası əsas kimi quruluşu yox, funksional modelləri (enerji və zona) götürməyə imkan verdi ki, bu da yarımkeçiricilərdə və kristallik fosforlarda baş verən prosesləri izah etmək üçün daha məqsədəuyğundur.[6]

Nüvənin müasir nəzəriyyəsində modellər eksperiment nəticələrinin izahı və onların planlaşdırılması üçün əsas mənbələrdir. Landau qeyd etmişdir ki, heç bir sadə model, mürəkkəb quruluşa malik nüvənin bütün xüsusiyyətlərini özündən əks etdirə bilməz. Ona görə də hər bir modeldən müəyyən sərhəd daxlində istifadə etmək lazımdır. Müxtəlif hadisələrin izahı özünə uyğun modellər tələb etdikdə təccüblənmək lazım deyildir.

XX əsrin 30 - cu illərində nüvənin damcı modeli geniş yayılmışdır. Bu model eksperimentlərə əsaslanmışdır və nəzərə almışdır ki, çox hissəcikli nüvələrdə nuklonlar arasındakı təsir qüvvəsi, doyma xassəsinə malikdir (maye hissəcikləri arasındakı doyma qüvvəsinə analoji olaraq). Damcı modeli əsasında nüvənin statistik nəzəriyyəsi yaradılmışdır ki, bu da atom fizikasının əsas bölmələrindən biridir.

Nüvə modelləri mövzusunu davam etdinnək olar. Lakin yuxarıda baxılan nümunələrin analizi göstərir ki, hər bir model atom və molekullarının sistemi və yaxud onların qarşılıqlı təsiri kimi yaxşı öyrənilmiş obyektə və hadisəyə əsaslanır.[2]

Qısa tarixi məlumatlar onu göstərir ki, modellər və analogiyalar həm klassik, həm də müasir fizikada geniş tətbiq olunur. Akademik İoffe demişdir ki, bunlar bizə modellər daxilində baş verən proseslərin bizə məlum olan qanunauyğunluqlarını hələ yaxşı öyrənilməyən hadisələrə də tətbiq etməyə imkan verir. Analogiyadan lazım olan səviyyədə istifadə etdikdə müvəffəqiyyətlə seçilmiş fiziki model, təcrübələrin nəticələrini əvvəldən söyləməyə, öyrənilən proseslərin yeni təzahürlərinin axtarılmasına səbəb ola bilər ki, bunun da əsasında həmin modelləri dəqiqləşdirmək olar. Fizikanın müxtəlif bölmələrinin tədrisində istifadə olunan çoxlu sayda analogiya və modeli göstərmək olar: Maddi nöqtə, mütləq bərk

cisim, ideal maye (təfəkkür modelləri), elektrik mühərriki olan avtomobil modeli, akselerometrin modeli, raketin modeli, üfüqə bucaq altında atılmış cismin trayektoriyasının modeli, mail müstəvinin elektrikləşdirilmiş modeli, vintin modeli, qaldırıcı kranın modeli, hidravlik maşının modeli, hidravlik presin modeli, hidravlik əyləcin modeli, manometrlə təchiz olunmuş dəyişən diametrli borunun modeli, təyyarə qanadının modeli, hidravlik turbinin modeli, avtomatlaşdırılmış su nasosu stansiyasının modeli, vertolyotun modeli, külək mühərrikinin modeli, maddi modellər və s.

Ədəbiyyat

1.Bədəlov M.F. Fizika kursu: 2 cilddə, II c.,Bakı: Çaşıoğlu, 2001, 348s.
2.Əmirbəyov E.N., Musayev M.A. Fizikada analogiyalar //TQDK - nin «Abituriyent» jurnalı, 2000, № 2, s. 25- 27
3.Qaralov Z.İ. Fizika qanunlarının tədrisi. Bakı: Elm, 1997, 320 s
4.Qocayev E.M., Səfərov N.Y., Mehdiyeva Ş.M. Fizikanın tədrisində analogiyalar əsasında ümumiləşdirmələr //Azərbaycan Respublikası «Təhsil» cəmiyyəti», «Bilgi» dərgisi, Təhsil, mədəniyyət, incəsənət, 2004, №4. s. 35- 40.
5.Qocayev E.M. Səfərov N.Y., Mehdiyeva Ş.M. Fizikanın tədrisində analogiyalar əsasmda ümumiləşdirməbr (ardı) //Azərbaycan Respublikası «Təhsil» cəmiyyəti, «Bilgi» dərgisi, Təhsil, mədəniyyət, incəsənət, 2005, № 1. s. 27-31.

KLASSİK VƏ MÜASIR FİZİKADA İSTİFADƏ OLUNAN ANALOGİYALAR VƏ MODELLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

Dos. Quliyev N.İ., Həsənova B.M., Dos. İmanov R.M.
Gəncə Dövlət Universiteti

Xülasə

Qısa tarixi məlumatlar onu göstərir ki, modellər və analogiyalar həm klassik, həm də müasir fizikada geniş tətbiq olunur. Akademik İoffe demişdir ki, bunlar bizə modellər daxilində baş verən proseslərin bizə məlum olan qanunauyğunluqlarını hələ yaxşı öyrənilməyən hadisələrə də tətbiq etməyə imkan verir. Analogiyadan lazım olan səviyyədə istifadə etdikdə müvəffəqiyyətlə seçilmiş fiziki model, təcrübələrin nəticələrini əvvəldən söyləməyə, öyrənilən proseslərin yeni təzahürlərinin axtarılmasına səbəb ola bilər ki, bunun da əsasında həmin modelləri dəqiqləşdirmək olar. Fizikanın müxtəlif bölmələrinin tədrisində istifadə olunan çoxlu sayda analogiya və modeli göstərmək olar.

ИСПОЛЬЗУЕТСЯ В КЛАССИЧЕСКОЙ И СОВРЕМЕННОЙ ФИЗИКЕ СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ АНАЛОГИИ И МОДЕЛЕЙ

Доц. Гулиев Н.И., Гасанова Б.М., Доц. Иманов Р.М.
Гянджинский Государственный Университет

Резюме

Краткие исторические данные показывают, что модели и аналогии широко используются как в классической, так и в современной физике. Академик Иоффе сказал, что это позволяет применять известные закономерности процессов в рамках моделей к событиям, которые еще недостаточно изучены. При использовании аналогии на необходимом уровне удачно подобранная физическая модель может привести к прогнозированию результатов экспериментов, поиску новых проявлений изучаемых процессов, на основе которых эти модели могут быть уточнены. Существует множество аналогий и моделей, используемых в преподавании различных разделов физики.

USED IN CLASSICAL AND MODERN PHYSICS COMPARATIVE ANALYSIS OF ANALOGY AND MODELS

As.pr. Guliyev N.İ., Hasanova B.M., As.pr. İmanov R.M.

Summary

Brief historical data show that models and analogies are widely used in both classical and modern physics. Academician Ioffe said that this allows us to apply the known patterns of processes within the models to events that have not yet been well studied. When the analogy is used at the required level, a successfully selected physical model can lead to predicting the results of experiments, the search for new manifestations of the studied processes, on the basis of which these models can be refined. There are many analogies and models used in the teaching of different branches of physics.

MİKROELEKTRON QURĞULARINDA GƏRGİNLİYİN STABİLLƏŞDİRİLMƏSİNDƏ İDARƏ OLUNAN DÜZLƏNDİRİCİLƏR

dos.Qasımov İ.İ., Ələddinli Ş.Ə.
Gəncə Dövlət Universiteti

Açar sözlər: diskret, yüksək stabillik, faza sürüşməsi, çıxışda enerji itkisi, dəyişən toplanan, aktiv – induktiv, aktiv – tutum

Key words: дискретный, высокая стабильность, сдвиг фазы, потери мощности на выходе, собранная переменная, активный – индуктивный, активный - емкость

Ключевые слова: discrete, high stability, phase shift, output power loss, collected variable, active - inductive, active – capacity

Müasir diskret sistemli yarımkeçirici elektron qurğuları və xüsusən mikroelektron qurğularının sərf etdikləri enerjinin idarə olunmasına onun xarakteristik keyfiyyətlərinə çox yüksək tələblər qoyulur. Bu elektron qurğularının gərginliyinin funksional qiyməti yüksək stabilliyə, dəyişən gərginlik sinusoidal lazımi formaya malik olmalı dəyişən qida gərginliyinin tezliyinin və faza sürüşmə bucağının yüksək stabilliyi və sabit qidalandırıcı gərginliyin döyünmələrinin minimal səviyyəsi təmin edilməlidir. Bütün bu tələblər mikroelektron qurğularında gərginliyin stabilləşdirilməsində idarə olunan düzləndiricilərin köməkliyi ilə yerinə yetirilir.

Mikroelektronikada gərginliyin stabilləşdirilməsində qida mənbəyi sabit gərginlik verirsə və bu gərginlik elektron qurğusuna lazım olan gərginlikdən az və çoxdursa, onda qida mənbəyinin birinci qovşağı əlaqəli formada “invertor” sistemli stabilləşdirici qurğu ilə əlaqələndirilməlidir. Bu zaman qalan sistemlər olduğu kimi qalır.

Mikroelektron qurğularında gərginliyin stabilləşdirilməsində gərginliyin giriş və çıxış yükləmə elementlərində əsas xarakteristika iki şərt daxilində olmalıdır, bunlardan birincisi girişdə və işlədici elektron qurğularının aktiv passiv elementlərinin yüksüz rejimdə sərf etdikləri enerji, ikinci isə onların aktivləşməsində çıxışda enerji itkisinin yüklənmədə nəzərə alınması.

Buradan isə qida mənbəyinin stabilləşdirilməsində iki əsas parametr təyin edilir: çıxış gərginliyinin nominal qiyməti, çıxış müqaviməti.

Gərginliyin stabilləşdiriməsi mikroelektronikada əsaslı olaraq ona görə yerinə yetirilir ki, hal – hazırda mikrociblərdən daha çox istifadə olunur, digər tərəfdən mikrosxemlərin nüvəsində olan aktiv və passiv elementlərin istifadə etdikləri cərəyan və gərginlik daha çox dəyişməyə məruz qalır.

Mikroelektronika gərginliyin stabilləşdirilmə qurğularında qida mənbəyinin çıxışında heç bir zaman ideal sabit gərginlik olmur, sabit toplanandan əlavə bu gərginlik həm də dəyişən toplanana malik olur. Buna döyünən gərginliyi və sabit qiymətdən fərqlənməsini

xarakterizə edən bir dəyişdirici sistem kimi baxmaq olar. Bu zaman amplituda görə döyünmə əmsalı K_d nəzərə alınmalıdır. Mikroelektro-nikada stabilləşmə zamanı təsiredici qiymətə görə döyünmə əmsalı

$$K_{dT} = \frac{U_d}{U_n}$$

nisbəti əsaslı rol oynamalıdır. Yuxarıda deyilənlər nəzərə alınsa çıxış gərginliyi mürəkkəb formalı olarsa əvvəlcə ümumi gərginliyin təsiredici qiymətini, sonra isə döyünmə gərginliyinin təsiredici qiymətini hesablamaq olar.

$$U_d = \sqrt{U_{\min}^2 - U_o^2}$$

$$U_d = \sqrt{U_{\max}^2 - U_o^2}$$

Düzləndirilmiş gərginliyin formasından asılı olaraq mikroelektron qurğularının element bazaları biryarımperiodlu və tam periodlu qidalana bilirlər. Yükün xarakteri aktiv, aktiv – induktiv, aktiv – tutum, əks e.h.q.-li və s. olmaqla idarə olunan düzləndiricinin işinə çox təsir göstərir. Mikroelektronika düzləndirici qurğuların əsaslı xarakteristikası döyünmə əmsalının buraxıla bilən qiymətinin

$$K_d = \frac{U_g}{U_y} \cdot 100\%$$

olan əsas harmonikanın dəyişən toplananın amplitudunun düzləndirilmiş gərgin-liyinin orta qiymətinə nisbəti ilə ölçülməsidir.

Mikroelektronikada yüklənmənin xarakteristikasından asılı olaraq çıxışdakı gərginliyin təsiredici qiymətləri mütləq nəzərə alınmalıdır. Gərginliyin təsiredici qiyməti α bucağı $0 \le \alpha \le 180^0$ dəyişmə aralığında olarsa onda bu qiyməti aşağıdakı kimi hesablamaq olar

$$U_{cix} = \frac{U_{gir} m}{\sqrt{\partial \pi}} \cdot \sqrt{\pi - \alpha + \frac{1}{2} \cdot \sin(2 \cdot \alpha)}$$

Mikroelektronikada cərəyanın gərginliyin tənzimlənmə xarakteristikası idarə olunan stabilləşdirmə qurğularında nəzərə alınmalıdır.

İdarəolunan düzləndiricilər mikroelektronikada aktiv element bazalarına əsasən tranzistor, tristor, optik elementlərindən yığılmalıdır. Bu zaman aşağıdakı sxem dayanıqlı olur.



Bu sxem əsasında mikroelektron qurğularında gərginliyin cərəyanının tezlik xrakteristikalarına əsasən idarə etmək mümkündür. Bu sxemlər mikroelektron qurğularında idarə olunan gərginliyin stabilləşdirilməsində ən müasir istifadə olunan sxemlərdən biri ola bilər.

Ədəbiyyat

1. Mikroelektronikada (m.v.) Bakı, Azerb. DNA-nın nəşrui, 1999
2. Аваем Н.А., Наумов Ю., Фролкин В.ИТ. Основы микроэлектроники радио и связь. 1991

3. https://ru.wikipedia.org/wiki/Микроэлектроника
4. https://www.digikey.com/.en/suppier.../m/mikroelektronika

MİKROELEKTRON QURĞULARINDA GƏRGİNLİYİN STABİLLƏŞDİRİLMƏSİNDƏ İDARƏ OLUNAN DÜZLƏNDİRİCİLƏR

dos.Qasımov İ.İ., Ələddinli Ş.Ə.
Gəncə Dövlət Universiteti

Xülasə

Mikroelektronikada gərginliyin stabilləşdirilməsində qida mənbəyi sabit gərginlik verirsə və bu gərginlik elektroqurğusuna lazım olan gərginlikdən az və çoxdursa, onda qida mənbəyinin birinci qovşağı əlaqəli formada "invertor" sistemli stabilləşdirici qurğu ilə əlaqələndirilməlidir. Bu zaman qalan sistemlər olduğu kimi qalır.

Mikroelektron qurğularında gərginliyin stabilləşdirilməsində gərginliyin giriş və çıxış yükləmə elementlərində əsas xarakteristika iki şərt daxilində olmalıdır, bunlardan birincisi girişdə və işlədici elektron qurğularının aktiv passiv elementlərinin yüksüz rejimdə sərfetdikləri enerji, ikinci isə onların aktivləşməsində çıxışda enerji itkisinin yüklənmədə nəzərə alınması.

ВЫПРЯМИТЕЛИ УСПЕШНО СТАБИЛИЗИРОВАТЬСЯ В МИКРОЭЛЕКТРОННЫХ УСТРОЙСТВАХ

Доц. Гасымов И.И., Аладдинли Ш.А.
Гянджинский Государственный Университет

Резюме

В микроэлектронике, если источник питания обеспечивает постоянное напряжение стабилизации напряжения и это напряжение меньше или больше напряжения, требуемого электроустановкой, то первый узел источника питания должен быть подключен к «инверторному» системному стабилизатору. При этом остальные системы остаются прежними.

При стабилизации напряжения в микроэлектронных устройствах основные характеристики напряжения на входных и выходных нагрузочных элементах должны находиться в пределах двух условий, первое - учитывать энергию, потребляемую активными пассивными элементами входных и рабочих электронных устройств в режим холостого хода и второй.

STRAIGHTENER CONTROLLED IN MICRO ELECTRONIC DEVICES

As.pr.Gasimov İ.İ., Aladdinli Sh.A.
Ganja State University

Summary

In microelectronics, if the power supply provides a constant voltage stabilization voltage and this voltage is less than or greater than the voltage required by the electrical installation, then the first node of the power supply should be connected to the "inverter" system regulator. The rest of the systems remain the same.

When stabilizing the voltage in microelectronic devices, the main characteristics of the voltage at the input and output load elements must be within two conditions, the first is to take into account the energy consumed by the active passive elements of the input and working electronic devices in idle mode, and the second.

MİKROELEKTRONİKADA QİDA GƏRGİNLİYİ SİQNALLARININ ANALİZİ

dos. Qasımov İ.İ., Ələddinli Ş. Ə.
Gəncə Dövlət Universiteti

Açar sözlər: fiziki daşıyıcı, elektrik siqnalı, riyazi model, determinləşmiş siqnal, funksional asılılıq, alçaqtezlikli. kəsilməz siqnallarimpıılus siqnalları, siqnalın amplitudu. implus texnikası

Key words: physical carrier, electrical signal, mathematical model, deterministic signal, functional dependence, low frequency, continuous signals impulse, signal amplitude. impulse technique

Siqnal informasiyanın hər hansı fiziki daşıyıcısı kimi başa düşülür. Belə daşıyıcı elektrik gərginliyi və ya cərəyan olarsa, siqnal elektrik siqnalı adlanır.Siqnalın riyazi modeli istənilən zaman anında onun anı qiymətini təyin etməyə imkan verirsə, vahidə bərabər ehtimalla qabaqcadan məlum olarsa, belə siqnal determinləşmiş siqnal adlanır. Hər iki siqnalın riyazi modeli-arqumenti zaman olan funksional asılılıqdan ibarət olub S(t) şəklində işarə olunur. Determinləşmiş siqnallar heç bir informasiya daşımır və mikroelektronikada elementlərinin sistemlərində belə siqnallardan əlverişli model kimi istifadə edilir. Mikroelektronika elementlərinin informasiyanı özündə saxlayan alçaqtezlikli. elektrik siqnalları aşağıdakılardır. Kodlaşdırılmış siqnallar, səs. siqnalları və video siqnallar. Xarakteristikalarına görə təsadüfi siqnallar iki sinib ayrılır kəsilməz siqnallar, diskret siqnallar. Diskret siqnalların bir növü rəqəm siqnalıdır. İstənilən siqnal informasiya baxımından ölçüləri və ya tututmu ilə xarakterizə olunur

$$V_S = H_S \Delta F_S t_S$$

ΔF_s— tezlik zolağının eni

t_s—siqnalın davametmə müddəti

H_s – $\log(P_s/P_k)$ siqnalın nisbət gücüdür

Mikroelektron qurğularında siqnalın enerjisi sonsuzdursa onda onun gücü aşağıdakı kimi təyin olunur.

$$P_{oz} = \lim_{T\to\infty} \frac{1}{T} \int_{-\frac{T}{2}}^{\frac{T}{2}} x^2(t)\mathrm{dt}$$

Mikroelektronikada siqnal informasiyanın daşıyıcısıdır. Daşıyıcıdan asılı olaraq siqnallar aşağıdakı kimi olurlar: elektrik, elektromaqnit, hidrovlik. optik, akustiq və s.
Siqnalların electron elementlərinin giriş və çıxışında sintezini aydınlaşdırmaq üçün xüsusi elektron ölçü cihazlar sxemi aşağıdakı kimi olur.



Yaradılmış sxem ölçmə, normallaşdırıcı çevirici emal qurğusunda elektrik və impuls siqnallarına nəzarət etmək və onu analiz etməyə imkan verir. Vahid impuls qiymətində siqnal ölçülən qurğuda ideallaşclırı 1 nuş siqnal olur və onun riyazi yazılışı aşağıdakı kimi yazılır.

$$S(t)=\begin{cases}0, & t=0\\ \infty, & t=0\end{cases}\int_{-\infty}^{\infty}\delta(t)dt=\int_{-\varepsilon}^{\varepsilon}\delta(t)dt=1$$

Hər bir impuls üçün siqnalın amplitudu ∞, eni 0, sahəsi isə S=l bərabərdir. δ(t) siqnalını fiziki olaraq analiz etsək onda a = Δ. hündürlüyü h=1/Δ impulsun Δ→0 halında olan həddi 2 kanallı ossilloqrafda bunu aydın görmək olar.



Emal rəqəm qurğusunda bu analiz ınıplus texnikasında geniş istifadə olunur. Alınan impulsun əhəmiyyətli xassələrindən biri "süzgəcləmə" xassəsidir.

$$\int_{-\infty}^{\infty} f(t)\delta f(t-t_0)dt = f(t_0)$$

Alınan osilloqrafık qrafik v/t, d/t asılılığı aşağıdakı kimi olur.



Ədəbiyyat

1. Elektronika və mikrosxemtexnika. Metodik vəsait. Bakı. Azərbaycan DNA-nın nəşri, 1994.
2. Mikroelektronika (m.v.) Bakı, Л/erb. DNA-nın nəşri, 1999.
3. Hümbətov R.T., Hüseynov M.Ş.. Elektronika və mikrosxem texnikası. Bakı 1991.
4. Hümbətov R.T. Bərk cisimi i elektronika. Bakı. A/..DNA. 2002

MİKROELEKTRONİKADA QİDA GƏRGİNLİYİ SİQNALLARININ ANALİZİ

dos. Qasımov İ.İ., Ələddinli Ş. Ə.
Gəncə Dövlət Universiteti

Yaradılmış sxem ölçmə, normallaşdırıcı çevirici emal qurğusunda elektrik və impuls siqnallarına nəzarət etmək və onu analiz etməyə imkan verir. Vahid impuls qiymətində siqnal ölçülən qurğuda ideallaşclırı 1 nuş siqnal olur və onun riyazi yazılışı aşağıdakı kimi yazılır.

$$S(t)=\begin{cases}0, & t=0\\ \infty, & t=0\end{cases}\int_{-\infty}^{\infty}\delta(t)dt=\int_{-\varepsilon}^{\varepsilon}\delta(t)dt=1$$

Hər bir impuls üçün siqnalın amplitudu ∞, eni 0, sahəsi isə S=l bərabərdir. δ(t) siqnalını

fiziki olaraq analiz etsək onda a = Δ. hündürlüyü h=1/Δ impulsun Δ→0 halında olan həddi 2 kanallı ossilloqrafda bunu aydın görmək olar.

АНАЛИЗ СИГНАЛОВ НАПРЯЖЕНИЯ ПИТАНИЯ В МИКРОЭЛЕКТРОНИКЕ

дос. Гасымов И.И., Аладдинли Ш.А.
Гянджинский Государственный университет

Резюме

Ключевые слова: физический носитель, электрический сигнал, математическая модель, детерминированный сигнал, функциональная зависимость, низкая частота, импульсные сигналы непрерывного сигнала, амплитуда сигнала, импульсная техника

Созданная схема позволяет контролировать и анализировать электрические и импульсные сигналы на измерительных, нормализующих преобразователях. При единичном значении импульса сигнал является идеальным сигналом для измеряемого устройства, и его математическое написание выглядит следующим образом.

$$S(t)=\begin{cases}0, & t=0\\ \infty, & t=0\end{cases}\int_{-\infty}^{\infty}\delta(t)dt=\int_{-\varepsilon}^{\varepsilon}\delta(t)dt=1$$

Амплитуда сигнала для каждого импульса равна ∞, ширина равна 0, а площадь S=1. Если проанализировать сигнал ***c*** (I) физически, то a = Δ, высота h = 1 / Δ Это хорошо видно на двухканальном осциллографе Δ→0.

ANALYSIS OF FOOD VOLTAGE SIGNALS IN MICROELECTRONICS

dos. Gasimov I.I., Aladdinli Sh. A.
Ganja State University

Summary

Keywords: physical carrier, electrical signal, mathematical model, deterministic signal, functional dependence, low frequency, continuous signal pulse signals, signal amplitude, implus technique

Created scheme allows to monitor and analyze electrical and impulse signals on measuring, normalizing converters. At the unit pulse value, the signal is an ideal signal for the device being measured and its mathematical spelling is as follows.

$$S(t)=\begin{cases}0, & t=0\\ \infty, & t=0\end{cases}\int_{-\infty}^{\infty}\delta(t)dt=\int_{-\varepsilon}^{\varepsilon}\delta(t)dt=1$$

The signal amplitude for each pulse is ∞, the width 0 and the area S=1. If we analyze the signal δ(t) physically, then a=Δ? The height h=1/Δ

This can be clearly seen in the 2-channel oscillograph of Δ→0

FİZİKA TƏLİMİNƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ KONSEPSİYASI

Musazadə Ş. M., dos. Tağıyeva M. C.
Gəncə Dövlət Universiteti

Açar sözlər:yeni informasiya texnologiyaları, YİTV, elmi dünyagörüşü, peşəyönümlü təhsil.

Key words: new information technologies, YITV, scientific outlook, vocational education

Son illər ölkəmizin təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə onun tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması prioritet istiqamətlərdən birinə çevrilərək, təhsil ocaqlarında müvafiq infrastrukturun qurulmasına yönəlmişdir.

Dövlət proqramının əsas məqsədi təhsilin bütün mərhələlərində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vaqhid ümummilli təhsil mühiti formalaşdırmaq, əhalinin bütün təbəqələrinə keyfiyyətli təhsil almaq imkanı yaratmaq, ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaratmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi,elektron təhsil texnologiyalarının tədbiqinin genişləndirilməsi, təhsil sistemində idrəetmənin informasiyalaşdırılması, kadr potensialının gücləndirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi kimi bir sıra vacib vəzifələr müəyyənləşdirilmiş, onların həyata keçirikməsinin müvafiq mərhələləri planlaşdırılmışdır (4). Lakin respublikamızın məktəblərinin tədris prosesində, xüsusən də fizikanın tədrisində YİTV –nin tətbiqilə əlaqədar apardığımız müşahidə və araşdırmalar göstərir ki, belə aktual problemin həlli pərakəndə, sistemsiz və epizodik xarakter daşıyır. Buna obyektiv və subyektiv səbəbləri vardır. Obyektiv səbəblərə məktəblərin bir çoxunun kabinet sistemində işləməməsini , mövcud fənn kabinetlərində lazım olan avadanlıqların, xüsusilə YİTV kompleksinin olmaması və s. aiddir.

Subyektiv səbəblərə respublika Təhsil Nazirliyinin sifarişi ilə hazırlanmış fizikadan elektron dərsliklərdən müəllimlərin səmərəli istifadə etməməsi, baş verə biləcək çətinliklərdən qorxmaları, bəzi fənn müəllimlərinin ənənəvi üsullardan hələ də əl çəkməyərək, müasirtəlim metod və texnologiyalarına müqavimət göstərməsi, fizikadan yeni proqram və dərsliklərin konsepsiyasının (1) yetərincə öyrənilməməsi, mövzuların mahiyyət və məzmununun elmi əsaslarının produktiv şərhi əvəzinə test cavablarının əzbərlədilməsi kimi reproduktiv tendensiyaya daha çox meylin yaranması və s. göstərmək olar.

Hazırda olan Təhsil Nazirliyinin yaratdığı təhsil portalı və mövcud elektron dərsliklərin serverlərdə yerləşdirmə ideyaları bu sahədə çox böyük əhəmiyyət kəsb etməklə, problemin həllində köklü dəyişikliklər edə bilər.

Fizika təlimində yeni informasiya texnologiyaları vasitələrinin tətbiqi konsepsiyası dedikdə hadisə, proses, qanun, qanunauyğunluq və nəzəriyyələrə baxışların, onların tədrisində YİTV-dən istifadə nəzəri və praktik problemlərinin bir-biri ilə qarşılıqlım əlaqə sistemi başa düşülür.

Məktəb təliminin hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşdirilması problemi fizika kursunun qarşısında aşağıdakı vəzifələri qoyur:

1) Elmi dünyagörüşün təbii-elmi məsələlərin dərk edilməsi əsasında formalaşdırılması prosesinin inkişaf mərhələlərini həyata keçirmək
2) Elmi təfəkkür üslubunun formalaşdırılması
3) Kurs boyu “qapalı sistem” anlayışından tədricən “açıq sistem ” anlayışına keçidin mahiyyətcə dərk edilməsinə doğru fəaliyyəti təmin etmək
4) Təlimin sonrakıl mərhələsində onun planlaşdırılmış sistemini təmin etmək üçün fizika elminin müvafiq səciyyəvi xüsusiyyətlərini açmaq.

Fizikadan yeni proqram və dərsliklərin konsepsiyasının qeyd olunan müddəalarına və nəzərdə tutulan vəzifələrə istinad edərək, kursun tədrisində yeni infirmasiya texnologiyalarından istifadə konsepsiyasının əsas istiqamətləri (2) kimi aşağıdakıları görürük:

1. Fizika təlimində YİT-in köməyilə şəxsiyyətin hərtərəfli inkişafının formalaşdırılması məktəbliləri ümumbəşəri mədəniyyətləö, o cümlədən təbiət, dəqiq , texniki, humanitar elmlər və ekologiya problemləri ilə inteqrativ tanış etməyi tələb edir. Fizika təbiət elmləri sistemində daha cox inkişaf etmiş elm kimi çox böyük ümummədəni potensiala malikdir.

2. Şagirdagirdlərdə dünyanın təbii-elmi mənzərəsini formalaşdırmaq üçün onları materiya haqqındakı müasir elmi təsəvvürləri əks etdirən biliklər sisteminin izahı ilə silahlandırmaq lazımdır.
3. Şagirdlərin elmi təfəkkür dialektikasını başa düşmələri və nəzəriyyələrin formalaşdırma prosesinin necə getdiyini dərk etmələri üçün öyrənilən obyekt kimi elmi təfəkkür metodları, proses isə təbiətin elmi dərk edilməsi götürülməlidir.
4. Elmi təfəkkürün və dünyagörüşünün səmərəli formalaşdırılması yolları obyekt və prosesin nəzəri-praktik modelinin işlənməsi, müxtəlif fiziki və riyazi modellərin yaradılmasında modellərin informativ dəyişməsini göstərməklə, təfəkkürdə stereotipliyin əmələ gəlməsi məqsədilə kompüter texnologiyasının imkanlarından istifadə etmək lazımdır (3).
5. Fundamental elmi nəzəriyyələr səviyyəsind müxtəlif nəzəri və praktik materialların YİTV-nin köməyilə öyrənilməsi tədris yüklərini və ona sərf olunanvaxtı ayırmadan materialın asan mənimsənilməsini təmin etməlidir.

Ədəbiyyat

1. 116 Yeni nəsil multimedia dərsliyi. Elektron dərsliklər . Bakı 2007
2. Ümumtəhsil orta məktəblərinin VII –XI sinifləri üçün fizika və astronomiya proqramları. Bakı , 2003
3. Nəbiteva C.O. kompüter texnologiyasından istifadə şagirdlərin fəallaşdırılması vasitəsi kimi. Bakı , 2005
4. Ümumtəhsil orta məktəblərinin VII –XI sinifləri üçün fizikadan yeni proqram və dərsliklərin konsepsiyası

FİZİKA TƏLİMİNƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ KONSEPSİYASI

Musazadə Ş. M., dos. Tağıyeva M. C.
Gəncə Dövlət Universiteti

Xülasə

Dövlət proqramının əsas məqsədi təhsilin bütün mərhələlərində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vaqhid ümummilli təhsil mühiti formalaşdırmaq, əhalinin bütün təbəqələrinə keyfiyyətli təhsil almaq imkanı yaratmaq, ölkənin təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya olunması üçün şərait yaratmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi,elektron təhsil texnologiyalarının tədbiqinin genişləndirilməsi, təhsil sistemində idrəetmənin informasiyalaşdırılması, kadr potensialının gücləndirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi kimi bir sıra vacib vəzifələr müəyyənləşdirilmiş, onların həyata keçirikməsinin müvafiq mərhələləri planlaşdırılmışdır.

CONCEPT OF APPLICATION OF NEW INFORMATION TECHNOLOGIES TO PHYSICS TEACHING

Musazada Sh.M., As.pr. Tagiyeva M.C.
Ganja State University

Abstract

The main goal of the state program is to create a unified national educational environment with the effective application and use of modern information and communication technologies at all stages of education, to create opportunities for all segments of the population to receive quality education, to create conditions for integration. To achieve this goal, a number of important tasks have been identified, such as the development of ICT infrastructure in the education system, expanding the use of e-learning technologies,

informatization of management in the education system, strengthening human resources, improving the regulatory framework, relevant stages of their implementation are planned.

MÜASİR TƏLİM TEXNOLOGİYALARININ FİZİKA FƏNNİ ÜZRƏ MİLLİ KURİKULUMUN TƏTBİQ EDİLMƏSİNDƏKİ ROLU

dos.Hüseynov R. K. Aslanova L.S.
Gəncə Dövlət Universiteti

Açar sözlər: təlim texnologiyaları, fənn kurikulumu, informasiya və kommunikasiya texnologiyaları, təhsildə inteqrasiya

Key words: learning technology, subject program, information and communication technologies, integration into education

Ключевые слова: технологии обучения, предметная программа, информационные и коммуникационные технологии, интеграция в образование

Müstəqil respublika kimi Azərbaycanın inkişafının mühüm göstəricilərindən biri təhsil sahəsində əldə olunmuş nailiyyətlərdir. Bunlar ölkəmizdə həyata keçirilən təhsil siyasətinin nəticəsidir. Bu siyasət 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında müəyyənləşdirilmişdir. 1999-cu ildə ölkədə Təhsil Sahəsində İslahat Proqramı hazırlanıb təsdiq olunmuşdur ki, orada məqsəd konkret olaraq göstərilmiş, təhsil sahəsində dövlət siyasətinin mahiyyəti açıqlanmışdır: "...əsas məqsəd məktəbəqədər, orta, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ – hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikası Konstitusiyasında, Təhsil Qanu- nunda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir". Müasir dünyanın inkişaf etmiş ölkələri artıq təhsilin yeni məzmununu çoxdan tətbiq edirlər və onun müsbət nəticələri barədə aydın təsəvvürə malikdirlər. Belə məzmun nəticələrdən ibarət olur və bacarıqlara söykənir. Şagirdlərin təlim fəaliyyətini ifadə edə bilmək imkanı ilə seçilir.

İslahat Proqramında təhsil sahəsində aparılan işləri üç mərhələdə yerinə yetirmək nəzərdə tutulmuşdur. 2003-cü ilə qədər birinci və ikinci mərhələlərdə müəyyən hazırlıq işlərini aparmaq, təşkilati – hüquqi baza yaratmaq olmuşdur. 2003-cü ildən Proqramda nəzərdə tutulanların həyata keçirilməsinə başlanılmışdır. Məlum olduğu kimi, Azərbaycan təhsilinin tarixində ilk dəfə "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" hazırlanmış, Azərbaycan respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr tarixli 233 nömrəli qərarı ilə təsdiq edilmişdir. Kurikulum mənşəcə latın sözü olub lüğəti mənası "yol", "istiqamət" deməkdir. Daha sonralar elm və təhsil sahələrində termin kimi işlənməyə başlamışdır. Azərbaycanın pedaqoji terminologiyasına 90-cı illərin axırında daxil olmuşdur. Kurikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Milli kurikulumda təhsil pillələri və fənlər üzrə ümumi təlim nəticələri verilmişdirsə, fənn kurikulumunda siniflər üzrə ümumi təlim nəticələri göstərilmişdir. "Azərbaycan Respublikası ümumi təhsil Konsepsiyasi "(Milli Kurikulum)" sənədindəki müddəalar Respublikada hər hansı fənn üzrə fəaliyyətlər sistemini ümumiləşdirmək baxımından konseptual xarakter daşıyır.

Təhsildə demokratikləşmə prinsipi yalnız gözlənilən ümumi nəticələrə vahid standart tələb kimi qarşıya qoyur. Gələcəkdə müxtəlif növ şagird nailiyyətlərinin qiymətləndirilməsində həmin standartların əsas götürüləcəyini nəzərdə tutur. Bu nəticələrin əldə olunması üçün strategiyaların seçilməsində sərbəstlik verilir. Dərslik müəllifləri təlim standartlarının reallaşdırılmasına təminat verən dərslik dəsti hazırlamaqda mövcud

vəziyyətdən çıxış edərək orijinal məzmun və struktur müəyyənləşdirilmiş, müəllimlər isə işlədikləri mühitin tələblərinə uyğun təlim strategiyaları hazırlamışlar. Fizika fənn kurikulumu giriş və üç bölmədən ibarətdir. Girişdə fənnin məqsəd və vəzifələri, əhəmiyyəti, xarakterik xüsusiyyətləri, kurikulumun tərtibi prinsipləri əhatə edilmişdir. Fənnin məzmunu hissəsində məzmun xətləri, məzmun xətləri üzrə ümumi nəticələr, siniflər üzrə nəticələr, əsas və alt standartlar verilmişdir. Eyni zamanda, fəndaxili və fənlərarası inteqrasiya məsələləri də bu hissədə əhatə olunmuşdır. Fizika fenn kurikulumunda həlledici hissələrdən biri "Təlim strategiyası"dır. Kurikulumda müəyyən olunmuş məzmun standartlarını reallaşdırmaq üçün strateji əhəmiyyət daşıyan tövsiyyələr verilir. Fizika üzrə təlimin təşkilinə verilən tələblərin, forma və üsulların, müəllimin fəaliyyətinin planlaşdırılmasına aid nümunələr həmin tövsiyələrdə əhatə olunur. Onların dərslik yazanlar, məktəb kurikulumlarını hazırlayıb həyata keçirənlər, idarəçiliklə məşğul olanlar üçün faydalı olacağı diqqət mərkəzində saxlanılır. Fənn kurikulumları hər bir fənn üzrə məqsəd, məzmun, texnologiya və qiymətləndirmə məsələlərini həll etməklə çox çeşidli iş parometrlərini əlaqəli şəkildə ümumiləşdirir. Nəticələr şəklində olan məzmun təhsil pillələri və siniflərə aid məzmun xətləri üzrə kurikuluma daxil edilir. Standartlar səviyyəsində təqdim olunmuş siniflər üzrə nəticələrin sərhədi standartlar və alt-standartların (beyçmarkların) hüdudunda müəyyənləşdirilir.

Azərbaycan Respublikasının tam orta məktəbləri üçün fizika fənni kurikulumu fizika təliminin əsas məqsəd və vəzifələrini müəyyənləşdirməklə ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətləri əks etdirən, cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla hər bir şagirdin imkan və maraqlarına yönəlmiş sənəddir. Bu sənəd fənnin əhəmiyyətini, məqsəd və vəzifələrini, ümumi təlim nəticələrini, məzmun xətləri və onların əsaslandırılmasını, məzmun xətləri üzrə standartları, fəaliyyət xətlərini, təhsil pillələri üzrə ümumi təlim nəticələrini, hər bir sinif üzrə məzmun standartlarını əhatə edir. Bunlardan əlavə, orada təlim strategiyaları və qiymətləndirmə məsələləri öz əksini tapır.

Fizika kurikulumu dərslik və dərs vəsaitlərinin, metodik göstəriş, multimedia və digər tədris vasitələrinin yaradılması, təlim materiallarının planlaşdırılması, təlim üsullarının müəyyənləşdirilməsi və tətbiq olunması üçün müvafiq təlimatlar formasında hazırlanacaq qaydaların əsasını təşkil edir, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla tərtib olunur. Orada şəxsiyyətyönümlülük, nəticəyönümlülük və inkişafetdiricilik əsas keyfiyyətlər kimi nəzərə alınır.

Təqdim olunan işdə qeyd edilmişdir ki, Fizika fənn kurikulumu cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan gənc nəslin dövrün tələblərinə uyğun formalaşdırılması, qarşılaşdığı problemləri müəyyənləşdirməsi və həll etməsi üçün zəruri bilik və bacarıqlara yiyələnməsində, politexnik təhsilini inkişaf etdirməklə praktik həyata hazırlanmasında, məntiqi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Ağayev Ə. və b. Sosial pedaqogika. Bakı, 2008.
3. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün, sabah. Bakı, 2003.
4. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007.
5. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyəişinin təkmilləşdirilməsi yolları. Bakı, 1983.
6. Z. Qaralov – Fizika qanunlarının tədrisi metodikası. Bakı, 1978
7. Z. Qaralov, A. Abaszadə, B. Ələkbərov - Fizikanın yeni proqram və dərsliklərlə tədrisi təcrübəsi. Bakı, 1978

MÜASİR TƏLİM TEXNOLOGİYALARININ FİZİKA FƏNNİ ÜZRƏ MİLLİ KURİKULUMUN TƏTBİQ EDİLMƏSİNDƏKİ ROLU

Hüseynov R. K. Aslanova L.S.

Xülasə

Fənn kurikulumlarının strukturu Kurikulumla bağlı əsas pedaqoji anlayışlar aşağıdakılardır: Ümumi təlim nəticələri Mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir nəticəsidir. Məzmun xətti Fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunmuş məzmunun zəruri hissəsidir.

Məzmun standartı Təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir. Alt standart Əsas standartlarla ifadə olunmuş fikrin müəyyən hissəsidir. Qiymətləndirmə standartı Təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir. Təlim strategiyaları Təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur. Tədris vahidi Dərslikdəki mövzuların tematik qrupudur. Resurslar Məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələridir. Şagird nailiyyəti Bilik və bacarıqlar əsasında qazanılan dəyərdir.

РОЛЬ СОВРЕМЕННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В РЕАЛИЗАЦИИ НАЦИОНАЛЬНОЙ ПРОГРАММЫ ФИЗИКИ

Гусейнов Р. К. Асланова Л.С.

Резюме

Структура предметных программ Основные педагогические понятия, связанные с учебными планами, следующие: Общие результаты обучения Усвоение – это конкретный результат заранее определенных учебных достижений. Содержательная линия является неотъемлемой частью определенного содержания для обеспечения реализации общих результатов обучения по предмету.

Стандарт содержания является государственным требованием к уровню знаний и умений обучающихся. Подстандарт — это часть идеи, выраженной в базовом стандарте. Стандарт оценивания – это государственное требование к уровню успеваемости обучающихся. Стратегии обучения представляют собой совокупность форм, методов, приемов и средств, используемых в образовательном процессе. Учебная единица представляет собой тематическую группу тем в учебнике. Ресурсы — это обучающие инструменты, используемые для внедрения стандартов контента. Успеваемость учащихся – это ценность, полученная на основе знаний и навыков.

THE ROLE OF MODERN EDUCATIONAL TECHNOLOGIES IN THE IMPLEMENTATION OF THE NATIONAL PHYSICS PROGRAM

Huseynov R.K. Aslanova L.S.

Summary

The Structure of Subject Programs The main pedagogical concepts associated with curricula are as follows: Overall learning outcomes Learning is the specific result of predetermined learning outcomes. The content line is an integral part of a specific content to ensure the implementation of the overall learning outcomes in the subject.

The content standard is a state requirement for the level of knowledge and skills of students. A substandard is a part of an idea expressed in a base standard. The assessment standard is a state requirement for the level of student achievement. Learning strategies are a set of forms, methods, techniques and tools used in the educational process. A learning unit is a thematic group of topics in a textbook. Resources are learning tools used to implement content standards. Student achievement is a value derived from knowledge and skills.

FİZİKA FƏNNİNİN TƏDRİSİNDƏ İNTERAKTİV LÖVHƏ VƏ VİRTUAL LABORATOR PROQRAMLARINDAN İSTİFADƏ ETMƏKLƏ DƏRSİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

Dos.S.P.İsgəndərova, G.Q.Quliyeva
Gəncə Dövlət Universiteti

Açar sözlər: tədris modeli, animasiya qrafikası multimedia vasitələri, kompüter tədris proqramları, rəngarəng illüstrasiyalar, elektron lövhə, interaktiv lövhə, praktiki bacarıq.

Ключевые слова: обучающая модель, анимационная графика, мультимедийные средства, компьютерные обучающие программы, красочные иллюстрации, электронная доска, интерактивная доска, практические навыки.

Keywords: educational model, animation graphics, multimedia tools, computer training programs, colorful illustrations, electronic board, interactive whiteboard, practical skills

Tam orta məktəblərdə fizika fənninin tədrsində informasiya-kommunikasıya texnologiyalarından istifadə etməklə dərsin keyfiyyətini yüksəltmək olar. Beləki, müəllimlərin seçdikləri fundamental biliklər, təkcə fizika sahəsindən deyil, digər fənnlərdədə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etdikdə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar şagirdlərin idrak aktivliyinə müsbət təsir göstərir və olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyətini xeyli artırır.

Tədris prosesində interaktiv lövhə və virtual laborator proqramlarından istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir. Elektron lövhənin sensorlu, yəni hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla yavaşca toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları interaktiv rejimdə aparmaq olar. Elektron lövhə, kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri böyüdülmüş formada ekranda əks etdirir. Şagirdlər istənilən fiziki proseslərin izahını virtual laboratoriya proqramı vasitəsi ilə izləyə bilərlər. Bu isə şagirdlərin nəzəri-metodoloji biliklərini, praktiki bacarıq və təcrübələrini inteqrasiya etməklə tədrisi xeyli canlandırır, şagirdlərin də yaradıcı yanaşma, düşünmə, təşəbbüskarlıq, tədris materialını dərindən dərk etmə qabiliyyətini daha da artırır.

İnteraktiv lövhənin bir üstün cəhəti də odur ki, onun üzərində aparılan bütün əməliyyatları video formatında yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək imkanı yaradır. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxan şagirdlər və ya təlimdən geri qalan uşaqlar üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, şagird iştirak edə bilmədiyi, dərs prosesində tam aydın olmadıqda və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər.

Elektron tədrisdə şagirdlərin hamısı lövhəyə çıxıb müəllimin bütün tapşırıqlarını yerinə yetirməkdə həvəsli olurlar. İnteraktiv rejimdə keçilən (tədris olunan) dərslər bütün şagirdlər, o cümlədən passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olanların dərs prosesinə aktiv qoşulmasına şərait yaradır.

Bu gün bütün dünyada məşhur olan "Crocodile Physics" adlı proqram haqqında məlumat verilir. Bu güclü virtual laborator proqram, fiziki hadisələri modelləşdirməyə, "Elektrik və eloktromaqnit", "Hərəkət və güc", "Dalğavari hadisələr" və "Optika" mövzuları üzrə virtual sınaqlar aparmağa imkan yaradır."Crocodile Physics" fizika dərsini tədris edən müəllimlər üçün laboratoriya təcrübələrini şagirdlərlə birgə aparmaq olduqca faydalıdır və bu günün tələbinə uyğun hazır nümunələrilə zəngin proqramdır. "Crocodile Physics" məktəbdə fizika

dərsini tədris edən müəllimlərin şagirdlərlə birgə bu günün tələbinə uyğun laboratoriya təcrübələrini aparmaq və lazım olan nəticəni əldə etmək üçün istifadə edə biləcəkləri, olduqca faydalı və hazır nümunələrlə təmin olunmuş bir proqramdır. "Crocodile Physics" elektron laborator proqramın içində 46-dan çox hazır təcrübə nümunələri vardır ki, bu hazır gələn təcrübə nümunələri Beynəlxalq IGCSE, A-Level imtahan tədris planlarına uyğundur. Proram müəllimə imkan verir ki, dərsin aparılmasında hər bir şagird özü virtual olaraq hər-hansi bir təcrübəni apararaq tədris materialını daha ətraflı mənimsəyə bilsin və s.

Əlbəttə, bunlar təhsilin keyfiyyətinə təsir edən amillərin hamısı deyil. Hazırda bu istiqamətdə yeni, masir texnologiyaların yaradılması istiqamətində işlər davam etməkdədir. Alimlərin proqnozuna görə, informasiya cəmiyyətinin tam formalaşdığı mərhələdə insanların əsas əmək predmeti informasiya, əmək alətləri isə İKT olacaq. Ona görə də bu gün respublikamızda təhsilin bütün pillələrində İKT-nin tətbiq və ondan istifadə edilməsi, eyni zamanda İKT-nin özünün tədris olunması, şagirdlərdə müstəqil şəkildə informasiya toplamaq, analiz etmək, ötürmək qabiliyyətinin formalaşdırılması müasir dıvrün tələbidir. «Naqillərin ardıcıl birləşdirilməsi» mövzusunda laboratoriya işinin tədrisinə nəzər yetirək.Elektron dərslik sinifdə eyni vaxtda işin təlimata uyğun olaraq kompyuterlə yerinə yetirilməsinə imkan verir. Şagirdlər ardıcıl birləşmənin sxeminə (Şəkil.a) uyğun dövrəni yığaraq (Şəkil.b) işləyirlər.



a) *Naqillərin ardıcıl birləşdirilməsi sxemi*



b) *Ardıcıl birləşdirilmiş dövrə üzərində işin yerinə*



c) *Naqillərin ardıcıl birləşdirilməsi*

Sonra yıılmış dövrədə ampermetrdən və voltmetrdən istifadə edərək, təbii şəkildə apardıqları eksperimentdən cərəyan şiddətinin və gərginliyin müvafiq qiymətlərini tərtib edilmiş cədvəldə yazaraq işlədicilərin ardıcıl birləşmə qanunlarının doğruluğunu təsdiq edirlər. Kompyuter laboratoriya işinin hazırlanması zamanı ilk növbədə model seçilərək (Şəkil b) onunla işləmək qaydası şagirdlərə öyrədilməlidir.Daha sonra onun üzərində praktik işlərin aparılması şagirdlərə həvalə olunur.Onlar kursorun köməyilə reostatın sürgüsünü ortada saxlamaq şərtilə cərəyan şiddətinin qiymətini ampermetrdən, işlədicilərin ayrı-ayrı və hər ikisinin bir yerdə gərginlik düşgülərini isə voltmetrdən götürürlər (Şəkil c).

İş prosesində reostatın sürgüsünün yerini dəyişməklə üç dəfədən az olmayaraq ölçmə işi yerinə yetirilir, alınmış qiymətlər cədvəl 1-də doldurulur.Hesablama aparılaraq ayrı-ayrı işlədicilərin R_1,R_2 və $R_{üm}$ müqavimətləri təyin edilir. Daha sonra I_1,I_2 və $I_{üm}$ -nin qiymətləri müqayisə edilərək cərəyan şiddətinin hər üç qiymətinin bir-birinə bərabər olduğu $I_{üm} = I_1 = I_2$, ümumi gərginliyin işlədicilərin gərginlikləri cəminə, yəni $U_{üm} = U_1 + U_2$, ümumi müqavimətin isə işlədicilərin müqavimətləri cəminə $R_{üm} = R_1 + R_2$ bərabər olması təsdiq edilir. Göründüyü kimi, iş bir qədər sadə və mexaniki yerinə yetirilir. Işin aparılması ilə əlaqədar metodik göstəriş işləndiyindən onun üzərində geniş dayanmırıq. Elə elektron dərsliklər də vardır ki, onlarla

Cədvəl 1

s/s	Ölçmə nəticələri				Hesablama nəticələri				
	U_1, V	U_2, V	U, V	I, A	$R_1=U_1/I$, Om	$R_2=U_2/I$, Om	R=U/I, Om	$R=R_1+R_2$	$U=U_1+U_2$
1									
2									
3									

laboratoriya işlərinin aparılması xususi metodikanın işlənməsini tələb edir. Müqayisə məqsədi ilə Moskva nəşri olan «Открытое физика» (rus dilində) elektron dərslikdən «Naqillərin ardıcıl birləşdirilməsi» mövzusunda laboratoriya işinin yerinə yetirilməsi üçün istifadə olunan texnologiyaya nəzər yetirək.

Ədəbiyyat

1. I. Ismayılov, C. Abdullayev. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası (fizika materialları əsasında) ali məktəblər üçün dərs vəsati «Təhsil» Bakı: 2006. 358 səh.
2. İsa İsmayılov, Cavid Abdullayev.Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları Tədrisdə onlardan istifadə metodikası, Bakı,2006
3. Fazilova İlahə. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu.Bakı,2015
4. Edu.gov.az.news and updates 2021

Xülasə

Məqalədə qeyd edilir ki, müəllimlərin seçdikləri fundamental biliklər, təkcə fizika sahəsindən deyil, digər fənnlərdədə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etdikdə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, təhsil alanın dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Nəticədə kompüterlə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Tədris prosesində interaktiv lövhə və virtual laborator proqramlarından istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir və dərsin keyfiyyəti artır.

Резюме

В статье отмечается, что выбранные учителями фундаментальные знания значительно упрощают учебный процесс, делая его динамичным и подвижным при успешном использовании новых технологий не только в физике, но и по другим предметам. Добавление компьютера в модель обучения «учитель-ученик-учебник» позволяет организовать учебный процесс по индивидуальной программе, стимулировать интерес и желание ученика к уроку. В результате компьютерные уроки очень привлекательны и запоминаются для детей.Использование интерактивных досок и виртуальных лабораторных программ в учебном процессе обеспечивает один из основных принципов проведения урока, его наглядность и повышает качество урока.

Summary

The article notes that the fundamental knowledge chosen by teachers greatly simplifies the educational process, making it dynamic and mobile with the successful use of new technologies not only in physics, but also in other subjects. Adding a computer to the "teacher-student-textbook" learning model allows you to organize the learning process according to an individual program, stimulate the student's interest and desire for the lesson.

As a result, computer lessons are very attractive and memorable for children. The use of interactive whiteboards and virtual laboratory programs in the educational process provides one of the basic principles of the lesson, its visibility and improves the quality of the lesson.

TAM ORTA MƏKTƏB PİLLƏSİNDƏ HƏYATİ PROBLEMLƏR QRUPUNA AİD MƏSƏLƏLƏRİN HƏLLİ YOLU İLƏ PRAKTİK BACARIQLARIN AŞILANMASI

[1]Rüstəmova S.K., [2]Zərbəliyeva V.S., Musayeva A.K.
[1]Gəncə Dövlət Universiteti
[2]Azərbaycan Dövlət Aqrar Universiteti

Açar sözlər: fizika, elmi savadlılıq, yaradıcı xarakterli tapşırıqlar,
Key words: physics, scientific literacy, creative tasks

Fiziki savadlılıq dedikdə – ümumtəhsil orta məktəb şagirdlərinin fizika elminin əsaslarına dair əldə edilmiş biliklərdən istifadə etmək qabiliyyətləri, ətraf aləmi və onda baş verən dəyişiklikləri anlamaq məqsədi ilə uyğun problemlər formalaşdırmaq və onların həllinə dair şəxsi fərziyyələr irəli sürə bilmək bacarıqları, habelə təbiət, məişət və istehsalatın elmi əsaslarına dair düzgün elmi qərarlar qəbul edə bilmək keyfiyyətləri nəzərdə tutulur. Fiziki savadlılıq aşağıdakı müddəalarla xarakterizə olunur:

•fizika elmi və texnologiya ilə bağlı həyati situasiyaları anlamaq (verilən tapşırıqlar kontekstində);

• fizikadan əldə edilən biliklər əsasında maddi aləmi anlamaq: həm ətraf aləm, həm də təbiət elmləri haqqında inteqrativ biliklərə malik olmaq nəzərdə tutulur (bilik komponentli tədqiqatçılıq);

•fizika elminə maraq göstərmək, onun bir elm kimi ümumxalq sərvəti olduğunu, vətəninin təbii sərvətlərinin aşkarlanması, ondan qənaətlə istifadə etməyin və təbii ekologiyanın qorunmasının elmi əsaslarını təşkil etdiyini qəbul etmək [tədqiqatın affektiv (təsiredici) komponenti].

Fizika təlimində adi kəmiyyət və keyfiyyət xarakterli məsələlərlə yanaşı, yaradıcı xarakterli tapşırıqlardan istifadə edilməsi, dərs prosesində adi mövzular qrupuna deyil, həyati problemlər qrupuna aid məsələlərin həlli yollarının araşdırılmasını nəzərdə tutur.

X sinifdə fizika təlimində istifadə edilə bilən aşağıdakı Yaradıcı xarakterli laboratoriya tapşırıqlarını nümunə göstərək.

Aşağıdakı yaradıcı laboratoriya işlərinə diqqət yetirək:

Laboratoriya işi: Arabacığın verilmiş təcillə hərəkət etdirilməsi

Arabacıq ona bərkidilmiş yük tərəfindən şaquli müstəvi üzərində hərəkətə gətirilir (şəkil 1) Onu 0.2m/san ^{2} təcillə hərəkət etdirmək tələb edilir.

Ləvazimat: kinematika və dinamika qanunlarını öyrənmək üçün cihaz, metronom, ümumi kütləsi 20 q olan yüklər, ölçmə xətkeşı və dinamometr.

İşin yerinə yetirilmə qaydası: arabacığın təkərlərindəki diyircəklərin və blokun sürtünməsi çox kiçik olduqda Nyutonun ikinci qanunu

$$(m_1 + m_2 + m_3)a = F$$

kimi yazılır. m_1, m_2, m_3- müvafiq olaraq arabacığın,onun üzərindəki yükün və düşən cismin kütlələri $F = m_3 g$ - düşən cismin ağırlıq qüvvəsidir. Buradan

$$m_3 = \frac{m_1 + m_2}{g - a} a .$$

Əgər arabacığın kütləsi $m_1 = 0.022kq$ onun üzərindəki yükün kütləsi $m_2 = 0.052kq$ olarsa düşən yükün kütləsi

$$m_3 = \frac{0.022 + 0.052}{9.6} \cdot 0.2 = 0.0015kq.$$



Şəkil 1

Bu hesabatın təcrübi nəticələrlə üst – üstə düşməsi aşkar edilib. Məsələn, hər 0.25 san - dən bir qeyd aparan qeydedici yolun $S = 0.061m$; $S = 0.24m$ uzunluqlarını qeyd edir. Nəticələrin yuvarlaqlaşdırılmasını nəzərə alsaq, yuxarıda qeyd olunan verilənlərə əsasən

$$S_1 = \frac{0.2 \cdot 0.25^2}{2} = 0.0063m,$$

$$S_1 = \frac{0.2 \cdot 0.5^2}{2} = 0.0025m.$$

Qeyd edək ki, metronomla aparılan ölçü zamanı təcrübənin dəqiqiliyi lazımi səviyyədə olur.

Beləliklə, yaradıcı məsələlərin və laboratoriya işlərinin eksperimental təhlili, onların yüksək effektivliyini göstərir, bu da şagirdlərin müstəqil işlərində xüsusi əhəmiyyət kəsb edir.. Yaradıcı məsələlərin tətbiq edilməsi məşq və yaradıcı məsələr arasındakı fərqin azaldılmasına gətirir. Həmin fərqin azaldılması üçün bütövlükdə fizika məsələlərinin seçilməsi diqqətlə aparılmalıdır. Şagirdlərin qabiliyyətlərinin artırılmasında yaradıcı məsələlərin rolunu araşdırarkən belə qənaətə gəlirik ki, keyfiyyətli tədris materialı şagirdlərdə elmi təfəkkürün formalaşmasına xidmət edir yardıcılıq məsələləri isə biliklərin yeni şəraitdə tətbiqinə imkan verir, şagirdlərin praktik bacarıqlara yiyələnməsində mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, № 5
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. Разумовский В.Г. Новые информационные технологии образования: экспериментальная проверка педагогической эффективности/под.ред. В.Г. Разумовского, И.М. Бобко. Новосибирск: НИИИВТ,1991,69с.
4. Разумовский В.Г., Орлов В.А. и др. Методика обучения физике. Под.ред. Г.Г.Никифорова. М.: ВЛАДОС, 2004, 175с.
5. İsmayılov M.H. Fizikadan şagirdlərdə yaradıcı fəaliyyəti formalaşdıran müstəqil işlərin təşkili (7- 8- ci siniflərin fizika materialları əsasında). P.e.n. ... dis. aftoref. Bakı, 1990, 24 s.

Xülasə

Yaradıcı məsələlərin və laboratoriya işlərinin eksperimental təhlili, onların yüksək effektivliyini göstərir, bu da şagirdlərin müstəqil işlərində xüsusi əhəmiyyət kəsb edir.. Yaradıcı məsələlərin tətbiq edilməsi məşq və yaradıcı məsələr arasındakı fərqin azaldılmasına gətirir. Həmin fərqin azaldılması üçün bütövlükdə fizika məsələlərinin seçilməsi diqqətlə aparılmalıdır. Şagirdlərin qabiliyyətlərinin artırılmasında yaradıcı məsələlərin rolunu araşdırarkən belə qənaətə gəlirik ki, keyfiyyətli tədris materialı şagirdlərdə elmi təfəkkürün formalaşmasına xidmət edir yardıcılıq məsələləri isə biliklərin yeni şəraitdə tətbiqinə imkan verir, şagirdlərin praktik bacarıqlara yiyələnməsində mühüm əhəmiyyət kəsb edir.

Summary

Experimental analysis of creative problems and laboratory work shows their high efficiency, which is especially important in the independent work of students. The application of creative problems leads to a reduction in the gap between training and creative tasks. In

order to reduce this difference, the choice of physics as a whole must be made carefully. Examining the role of creative issues in increasing students' abilities, we conclude that quality teaching materials serve the formation of scientific thinking in students, and helpful issues allow the application of knowledge in new conditions, are important for students to acquire practical skills.

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN TAM ORTA MƏKTƏB PİLLƏSİNDƏ YARADICI XARAKTERLİ TAPŞIRIQLARDAN İSTİFADƏNIN ROLU

[1]Rüstəmova S.K., [2]Zərbəliyeva V.S.
Gəncə Dövlət Universiteti.
Azərbaycan Dövlət Aqrar Universiteti.

Açar sözlər: fizika, elmi savadlılıq, yaradıcıxarakterli tapşırıqlar.
Ключевые слова: физика, научная грамотность, творческие задачи.
Keywords: physics, scientific literacy, creative tasks.

Ümumtəhsil məktəblərində təhsilin həyata keçirilməsi prosesində sinifdən kənar müstəqil işlərin məqsəd və funksiyaları nəzərdən keçirilir. Müasir dövrümüzdə müstəqil düşünə bilən, müasir təfəkkürlü, yaradıcı, rəqabət qabiliyyətli mütəxəssislərə ehtiyac vardır. Məhz, buna görə cəmiyyətdə belə mütəxəssislərin formalaşmasında müstəqil işlərin rolu çox böyükdür.

Təlim prosesində müstəqil iş dedikdə, şagirdin qarşıya qoyulmuş təlim məqsədini dərk edərək, müəllimin köməyi olmadan müstəqil şəkildə yerinə yetirməsi, zehni fəallıq göstərməsi, səmərəli yolları seçib, tətbiq etməsi, təlim fəaliyyətinin təşkili formasını müəyyənləşdirməsi nəzərdə tutulur.

Şagird müstəqil işin icrasında hansı üsullardan istifadə edəcəyini özü müəyyənləşdirməli, nəyi və nə məqsədlə edəcəyini bilməli, səhvlərini tapıb düzəltməyi, özünü qiymətləndirməyi bacarmalıdır. Müstəqil işlərin icrasında şagirddə həm müsbət motiv olmali, həm də o, lazımi bilik və bacarıqlara malik olmalıdır. Şagird müstəqil iş üsullarına yiyələnmədikdə, onun məqsədini dərk etmədikdə ya işə girişmir ya da həvəssiz işləyir. Pedaqoji ədəbiyyatda müstəqil işlər müxtəlif məntiqi əsaslara görə təsnif olunur :

- müstəqil işlərin mənbələrinə görə: kitabla iş, əlavə mənbələr üzrə iş, çalışmalar üzrə iş, məsələ həlli, əyani materiallarla iş, qrafik işlər, əlavə cihazlarla iş və s.;
- tələbələrin əhatə dairəsinə görə: qrup, frontal, cüt və fərdi işlər; - icra formasına görə: şifahi, yazılı, əməli, qrafik işlər və s. ;
- icra yerinə görə: auditoriyada müstəqil iş, (mühazirə və məşğələlərdə tələbələrin mühakimə yürütməsi, plan və icmal tərtibi, çalışmaların icrası və s.), auditoriyadankənar müstəqil işlər (kurs işi, referat, tədris-tədqiqat işi, elmi-tədqiqat işi, klub və dərnək işləri, internetlə iş, kitabla iş, özünütəhsil və s.);
- müstəqil işin funksional cəhətinə görə: biliklərin mənimsənilməsi, möhkəmləndirilməsi, tətbiqi və yoxlanılması məqsədi güdən işlər;
- zehni fəaliyyətin xarakterinə görə: nümunə üzrə, tədqiqatçılıq işləri, evristik (qismən axtarış tipli) müstəqil işlər, yenidənqurma xarakterli işlərdir.

Bu qəbildən olan digər təsnifatlar da vardır:

reproduktiv-bərpaedici müstəqil işlər (biliklərin təkrarını, onlar üzərində əməliyyat aparmağı nəzərdə tutur) idrak-axtarıcılıq (evristik) işləri (yeni biliklərin mənimsənilməsi) yaradıcı müstəqil işlər (biliklərin yeni hallara yaradıcı tətbiqi);

- fəlsəfi qnoseoloji əsasına görə: hissi-perspektiv xarakterli müstəqil işlər (müşahidə, keçmiş təcrübə və biliklərin bərpası, yeni hallara tətbiqi), zehni xarakterli müstəqil işlər (təfəkkür əməliyyatları, zehni məsələ-problem həlli, zehni tətbiqi və zehni təşkilati işlər), praktik

xarakterli müstəqil işlər (əməli, təcrübi-eksperimental, layihə-konstruksiya və bədii-qrafik işlər).

Müstəqil işlərin yerinə yetirilməsində fiziki savadlılıq, praktik bacarıq və vərdişlər ən mühüm
aspektlərdən biridir. Təhsil sistemində heç vaxt elə bir göstərici əldə etməmişik ki sinif şagirdlərinin hamsı ali məktəblərə daxil olsun ali məktəbə daxil olmayan şagirdlərimiz necə olmalıdır? Bu sualın cavabı müasir təlim prosesində öz cavabını tapmışdır. Nəticəyönümlü təhsil sənədlərində əsasən dörd sual cavablandırlır və şagirdləri "həyatdan biliyə-bilikdən də həyata doğru öyrətməyi tələb edir ;

– Şagirdlər nəyi öyrənməlidirlər?
– Öyrəndiklərini necə nümayiş etdirməlidirlər?
– Bunları öyrənmək üçün şagirdlərə nə kimi dəstək veriləcək?
– Şagirdlərin nəticələrə nail olduğu necə müəyyən ediləcək?

Nəticəyönümlü kurrikulumlar yaddaşın yoxlanılmasına istiqamətlənmiş tapşırıqlar verməyib, daha cəlbedici tapşırıqlar vasitəsi ilə şagirdlərin bilik və bacarıqlarının səviyyəsini qiymətləndirməyə istiqamətlənmişdir. Buraya layihələr təklif etmək və onlar üzrə işləmək, təqdim edilmiş hadisələri təhlil etmək və ya təqdimatlar etmək kimi yoxlayıcı tapşırıqlar daxildir. Bu cür çalışmalar şagirdlərə düşünmək, tədqiqatlar aparmaq, qərarlar qəbul etmək və təqdimatlar etmək kimi bacarıqlarını təqdim etmək imkanı verir.

Beləliklə, nəticəyönlü kurikulumlar yalnız təlim materiallarının mənumsənilməsinin deyil, həm də bötövlükdə təlim kursunun nəticələrinin yoxlanılmasına şərait yaradır və tam hesabatlılığı təmin edir. Bu həm də hər bir şagirdin inkişafı baxımından tərtib edilmiş təlim nəticələrin fəal təlim şəraitində reallaşmasına şərait yaradır və hər kəsin yüksək səvyyəli təhsilini təmin edir. Bu işdə əsil müvəffəqiyyətə nail olmaq üçün təhsil idarəçiləri, alimlər, müəllimlər, valideynlər və şagirdlər birgə fəaliyyətdə olması mühüm şərtdir. Məhz yeni təhsil proqramımız fənlərin tədrisinin qarşısına qoyduğu tələb də bundan ibarətdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, № 5
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3. Разумовский В.Г. Новые информационные технологии образования: экспериментальная проверка педагогической эффективности/ под. ред. В.Г. Разумовского, И.М. Бобко. Новосибирск: НИИИВТ,1991,69с.
4. Разумовский В.Г., Орлов В.А. и др. Методика обучения физике. Под. ред. Г.Г.Никифорова. М.: ВЛАДОС, 2004, 175с.
5. İsmayılov M.H. Fizikadan şagirdlərdə yaradıcı fəaliyyəti formalaşdıran müstəqil işlərin təşkili (7- 8- ci siniflərin fizika materialları əsasında). P.e.n. ... dis. aftoref. Bakı, 1990, 4 s.

ÜMUMITƏHSIL MƏKTƏBLƏRININ TAM ORTA MƏKTƏB PILLƏSINDƏ YARADICI XARAKTERLI TAPŞIRIQLARDAN ISTIFADƏNIN ROLU

[1]Rüstəmova S.K., [2]Zərbəliyeva V.S.
Gəncə Dövlət Universiteti.
Azərbaycan Dövlət Aqrar Universiteti

Xülasə

Təqdim olunan məqalədə X-XI sinif şagirdlərində fizikadan elmi savadlılığın formalaşdırılmasında müstəqil işlərin və yaradıcı xarakterli tapşırıqlarının rolu əsaslandırılmış, bu istiqamətdə konkret nümunələr verilmiş və onlar tədqiq edilmişdir.

РОЛЬ ИСПОЛЬЗОВАНИЯ ТВОРЧЕСКИХ ЗАДАНИЙ В САМОСТОЯТЕЛЬНОЙ РАБОТЕ ДЛЯ ПОВЫШЕНИЯ НАУЧНОЙ ГРАМОТНОСТИ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

Рустамова С.К., Зарбалиева В.С.
Гянджинский Государственный Университет
Азербайджанский Государственный Аграрный Университет

Резюме

В представленной статье обосновывается роль самостоятельной работы и творческих заданий в формировании научной грамотности по физике у учащихся X-XI классов, приводятся конкретные примеры в этом направлении и изучается.

THE ROLE OF THE USE OF CREATIVE TASKS IN SELF-EMPLOYMENT TO IMPROVE THE SCIENTIFIC LITERACY OF STUDENTS IN GENERAL EDUCATION SCHOOLS

Rustamova S.K., Zarbaliyeva V.S.
Ganja State University
Azerbaijan State Agrarian University

Summary

The presented article substantiates the role of independent work and creative tasks in the formation of scientific literacy in physics in students of X-XI grades, gives specific examples in this direction and studies them.

FİZİKANIN ƏSASLARININ ÖYRƏNİLMƏ METODİKASI

Rüstəmova S.K., Mustafayeva A.K.
Gəncə Dövlət Universiteti

Açar sözlər: təhsilalan,təhislverən, kommunikativ və koopreativ əlaqələr, novator xarakterli
yaradıcı keyfiyyətlər, əsas məktəb, təhsil, fizika fəsil.keyfiyyət.

Ключевые слова: образованный, воспитатель, коммуникативно-сотрудническиеотношения, инновационный характер,творческие качества, основная школа, образование, глава физики.качество.

Key words: educated, educator, communicative-employee relations, innovative character, creative qualities, basic school, education, head of physics.

Müasir dövrdə təhsilin əsas vəzifəsi vətəndaş cəmiyyətində yaşayacaq kamil insanın formalaşdırılmasının vasitə və yollarını müəyyənləşdirməyə, onun yüksək mənəvi ideyalar və dəyərlərə yiyələnməyə, insan həyatının mənasını anlamağa və dərk etməyə, öz şəxsi həyatında daima yeni naliyyətlər əldə etməsi üçün səy göstərməyə hazırlamaqdır. Bu tələblərə cavab verən insan ilk növbədə mili- mənəvi dəyərlər əsasında tərbiyə almalı, səriştəli müətxəssis (müəllim, təhsilverən) səviyyəsində bilik və bacarıqlara yiyələnməlidir.

XXI əsrdə pedaqoji, psixoloji, fəlsəfi və metodiki yanaşmaların əsasını "Təhsil alanlara nəyi isə ətraflı öyrətmək deyil, öyrənməyi öyrətmək" təşkil etməlidir. İndiki şərait tələb edir ki, insan özünü tez-tez refleksiya etsin, imkanlarını müəyyənləşdirsin, yeniliyin xüsusiyyətlərini anlamağa çalışsın, effektiv şəkildə kommunikativ və koopreativ əlaqələr qursun. Deməli, XXI əsrin təhsil sisitemi kifayət dərəcədə novator xarakterli, cevik və yaradıcı keyfiyyətlərə malik olmağı tələb edir. Elmin, təhsilin və texnoloji tərəqqinin tez-tez dəyişdiyi indiki dövrdə ümumtəhsil verən məktəblər (bütövlükdə bütün təhsil müəssisələri)

gənc nəslə yalnız bəşəriyyətin indiyədək topladığı bilikləri verməklə kifayətlənməməli, onların cəmiyyətin və ayrı-ayrı subyektlərin rastlaşacağı yeni problemləri həll etməyə hazırlamalı, rəqabətəqabil, kamil insanın, şəxsiyyətin, səriştəli təhislverənin formalaşmasına xidmət etməlidir.

Nəticəyönümlü, təhsilalana istiqamətlənmiş ümümtəhsil məktəblərinin əsas təhsil pilləsinin (VI-IX siniflərdə) kurikulumlarına nəzərdə tutulmuş bilik və bacarıqların, son nəticədə öyrənənlərdə formalaşdırılması üçün səriştəli təhsilverənlərin hazırlanması, hazırda təhsil sistemi qarşısında duran bir nömrəli problem kimi dəyərləndirilmişdir.

Hazırda orta məktəb üçün "Fizika müəllimliyi" ixtisası üzrə pedaqoji yönümlü ali təhsil müəssisələrində müəllim kadrları hazırlanır. Azərbaycan Respbulikasında təhsilin inkiaşafı üzrə Dövlət Strategiyasında səriştəli müəllim hazırlığının təmin olunması əsas məqsəd kimi qarşıya qoyulub. Məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ-kommunikativ və qeyri-iradi fəaliyyətlərinin əldə olunması, düşünmə, emosional və psixomotor bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulb. Məhz günümüzün aktual problemi olan bu məsələlər fizika fənninin tədrisində qarşıya qoyulan əsas tələblərdən biridir. Bu baxımdan tədris olunan tədris vahidlərinin təhlilinə baxaq. I pillədə tədris olunan fizika kursu imkan daxilində tamamlanmış və fizikanın bütün bölmələri üzrə əsas materialları əhatə etməlidir. Bu baxımdan tədris olunan tədris vahidlərinin təhlilinə baxaq.

"Materiya" maddə və sahə fəslində ilk dəfə olaraq bu anlayişların əlaqəli sistemi verilmiş, maddə və fiziki sahənin əsas zərrəcikləri, onların öyrənilməsi planlaşdirilmişdir.Burada, həmçinin, maddələrin aqreqat hallarının dəyişməsinin molekulyar-kinetik təsəvvürlər əsasında öyrənilməsi də nəzərdə tutulur.

"Hərəkət və qüvvələr"fəslində mexanikanın hərəkət və onun xarakteristik kəmiyyətlərinin: sürət, yol, yerdəyişmə, təcil, qüvvə, kütlə, sıxlıq, çəki və .s anlayışların tədrisi planlaşdırılır."Qravitasiya sahəsi","Ümumdünya cazibə qanunu","Ağırlıq qüvvəsi"və.s mövzuların tədrisi prosesində "qravitasiya sahəsinin intensivliyi"haqqında ilkin anlayış verilir. Onun fiziki sahələrinin qüvvə xarakteristikası kimi fiziki mahiyyəti açıqlanır."Bərk cisim, maye və qazların təzyiqi","saxlanma qanunları", "Statika elementləri", "Sadə mexanizmlər","Mexaniki rəqslər və dalğalar"fəslindəki tədris materiallarının qravitasiya sahəsində baş verən fiziki proseslər kimi öyrənilməsi nəzərdə tutulmuşdur.

Daha sonra "Elektrik sahəsi" fəslində bu sahəni xarakterizə edən ümumi fiziki anlayışların öyrədilməsi ilə yanaşı, ilk dəfə olaraq elementar yük və onun dünyəvi sabit kimi formalaşdirilması planlaşdırılmışdır.Mövzunun tədrisinin sonunda qravitasiya və elektrik sahələrinin məntiqi qarşiliqli müqayisəsi verilməklə şagirdlərin biliklərinin ümumiləş-dirilməsi nəzərdə tutularaq, didaktikanın "ümumiləşdirmə pirinsipi"nə əməl edilmişdir.

Vahid fiziki qanunlara tabe olduğu dərindən öyrənilməsi təklif edilmişdir.Elektrik və maqnit sahələrinin qarşılıqlı müqayisəsi verilərək, onları xarakterizə edən kəmiyyətlərin vahid fiziki qanunlara tabe olduğu açıqlanır.

"Elektromaqnit sahəsi"mövzusu altında Vll-lX siniflər üçün yeni olan bəzi mühüm məsələlərin-elektromaqnit sahəsi, elektromaqnit dalğaları, elektromaqnit dalğaları şkalası kimi materialların tədrisi nəzərdə tutulmuşdur.

Bu fəsildən sonra "sabit cəryan qanunları", "müxtəlif mühitlərdə elektrik cəryanı" mövzularınınn məntiqi ardıcıllıqla tədrisi planlaşdırılır.Burada ümumi fiziki anlayış və qanunlarla yanaşi elektrik ölçü cihazlarının iş pirinsipi, elektrik cəryanının canlı orqanizimlərə təsiri və tətbiqlərinin öyrənilməsi məqsədəuyğun hesab edilmişdir.

İşiq hadisələri təbiətcə elektromaqnit, xassəcə dalğa və zərrəcik olduğu üçün onun yuxarıdakı mövzulardan sonra öyrədilməsi nəzərdə tutulmuşdur.İşığın ikili xassəyə malik olması əsas məktəbin quruluş və məzmununa yeni daxil edilmişdir.

"Atom və atom nüvəsi" fəslinin mövzuları isə bir neçə mövzu istisna olmaqla, demek olar ki, tamamilə təkmilləşdirilmişdir. Belə ki, keçmiş proqramlardan fərqli olaraq burada

radioaktivlik, nüvələrin radioaktiv çevrilmələri, yerdəyişmə qanunu nüvənin yük və kütlə ədədləri, kütlə ilə enerji arasinda əlaqə nüvənin kütlə defekti və rabitə enerjisi, nüvə reyaksiyalari radioaktiv şüalanmalarin enerjisi,şüalanmalarin bioloji təsirləri və onların udulma dozaları kimi mühüm fiziki anlayış və hadisələr verilmişdir.

Beləliklə proqramda təhsilin I pilləsində də fizika kursunun ümumi quruluşu əvvəlki proqramlardan fərqli olaraq, iki deyil üç fundamental nəzəriyyəni Klassik mexanika, molekulyar-kinetik və elektron nəzəriyyələrinin təsəvvürləri əsasında qurulmuşdur. Əsas məktəbin fizika kursunda aşağıdakı fiziki qanunların öyrədilməsi nəzərdə tutulur.Nyutonun qanunları, ümumdünya cazibə qanunu, Paskal qanunu, impuls və enerjinin saxlanması qanunları, Kulon qanunu, qapalı dövrə üçün Om qanunu,Coul-Lens qanunu, Amper qanunu, İşığın düz xətt boyunca yayılma, qayıtma və sınma qanunları, kütlə ilə enerji arasında əlaqə və nüvələrin yerdəyişmə qanunları.

Qısa şəkildə verdiyimiz bu təhlildə şagirdlərin kursu tam mənimsəmələri üçün və aldıqları biliklərin həyat fəaliyyətlərində nə qədər önəm daşıdığını dərk etmələri üçün müəllimin pedaqoji ustalığı, elmi savadı və şagirdləri "həyatdan biliyə- bilikdən də həyata " hazırlamaları ən mühüm şərtdir.

Tədqiqatın obyekti: Ümumtəhsil məktəblərinin əsas təhsil pilləsində fizika fənninin məzmunun elmi metodik təhlili.

Tədqiqatın predmeti: Müasir dövrdə əsas təhsil və onun məzmununun təhlili.

Tədqiqatın məqsədi: Əsas təhsil sistemində fənlərin tamamlanmış şəkildə tədisini həyata keçirmək, dünyanın qabaqcıl təhsil sistemi səviyyəsinə qaldırılması istiqamətində həyata keçirilmiş islahatları, yeni layihələri tədqiq etmək, onları təhlil etmək, elmi ümumiləşdirmələr aparmaq və əsas təhsil pilləsində fizika kursu imkan daxilində tamamlanmiş və fizikanin bütün bölmələri üzrə əsas materialları əhatə etməlidir.

Tədqiqatın təcrübi əhəmiyyəti: Tədqiqatın təcrübi əhəmiyyəti onunla izah olunur ki, müasir şəraitdə əsas təhsilin məzmununun daha da təkmilləşdirilməsində dövlətin və hökumətimizin həyata keçirdiyi müsbət yönümlü, faydalı tədbirləri ümumiləşdirib təhlil edərək geniş pedaqoji ictimaiyyətin bundan bəhrələnməsini təmin etmək mümkündür.

Tədqiqatın metodları: müxtəlif metodlardan istifadə olunmuşdur. Yeni mərhələdə əsas təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətində aparılmış tədqiqat işləri, məqalələr, elmi əsərlər, dövlət və hökumət qərarlarının öyrənilməsi, onların təhlili tədqiqatın əsas metodlarını təşkil edir.

Tədqiqatın nəticələri: Təhsilin inkişafı ilə bağlı fənlərin tədrisində görülmüş işlərlə, qəbul olunmuş qərarlar və sərancamlarla təhsil sistemində çalışan müəllimlərin daha yaxından tanışlığını təmin etmək, onların öz işlərini daha da səmərəli şəkildə həyata keçirmələri üçün dəstək olmaqdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Kurikulum. Bakı, 2008, №21 s. 131-150.
2. Ümumi təhsilin fənn standartları. Bakı: "Mütərcim", 2012.
3. Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı – 2010.
4. Murquzov M.İ., Abdurazaqov R.R., Allahverdiyev A.M., Cəlilova S.X. Fizika dərslikləri . VI-IX-ci siniflər üçün. Bakı:, Bakı nəşr, 260 s.

Xülasə

Məqalədə əsas təhsil sistemində fənlərin tamamlanmış şəkildə tədisini həyata keçirməsi, dünyanın qabaqcıl təhsil sistemi səviyyəsinə qaldırılması istiqamətində həyata keçirilmiş islahatları, yeni layihələrin tədqiqvə təhlil edilməsi, elmi ümumiləşdirmələr aparması məsələlərinə diqqət verilmişdir. Həmçinin ümumtəhsil verən məktəblərdə gənc nəslə yalnız

bəşəriyyətin indiyədək topladığı bilikləri verməklə kifayətlənməməli, onların cəmiyyətin və ayrı-ayrı subyektlərin rastlaşacağı yeni problemləri həll etməyə hazırlamaqla, rəqabətəqabil, kamil insanın, şəxsiyyətin, səriştəli təhislverənin formalaşmasına çalışmağın vacib olduğu göstərilmişdir.

Резюме

В статье акцентируется внимание на внедрении комплексного преподавания предметов в системе основного образования, реформах, проводимых для поднятия мира на уровень системы опережающего образования, исследованиях и анализе новых проектов, научных обобщений. Также было отмечено, что важно не только передать подрастающему поколению те знания, которые человечество накопило к настоящему времени в общеобразовательных школах, но и постараться сформировать конкурентоспособного, совершенного человека, личность, компетентного воспитателя, подготовив их к решению новых проблемы, стоящие перед обществом и личностью.

Summary

The article focuses on the introduction of integrated teaching of subjects in the system of basic education, reforms carried out to raise the world to the level of the advanced education system, research and analysis of new projects, scientific generalizations. It was also noted that it is important not only to pass on to the younger generation the knowledge that mankind has accumulated to date in secondary schools, but also to try to form a competitive, perfect person, personality, competent educator, preparing them to solve new problems facing society and the individual .

İNTERAKTİV TƏLİM METODU İLƏ KEÇİLƏN DƏRSLƏRİN MƏRHƏLƏLƏRİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

prof. Quliyev.M.S., Hümbətova G.E.
Gəncə Dövlət Universiteti

Açar sözlər: fərziyyə, motivasiya, problem, interaktiv – təlim, yeni informasiya, qiymətləndirmə

Key words: hypothesis, motivation, problem, interactive - training, new information, grade

Ключевые слова: гипотеза, мотивация, проблема, интерактив - обучение, новая информация, оценка

İnteraktiv təlim metodu ilə keçilən dərs bir neçə bir-birilə üzvi şəkildə bağlı olan mərhələlərdən ibarətdir. Hər bir dərsin əvvəlində tədqiqatı başlamaq üçün problem müəyyənləşdirmək lazımdır. Yəni mövzu ətrafında problem qoyulmalıdır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları da yoxlamaq üçün ilk növbədə tədqiqat sualları formalaşdırılmalıdır. Məhz tədqiqat sualı yeni biliklərin kəşfinə aparan bələdçi, “yolgöstərən ulduz” rolunu oynayır. İnteraktiv təlimin ilk mexanizminə əsasən məhz problemin olması şagirdlərin idrak fəallığının yaranmasının başlıca addımı olur.

Bəs nə üçün biz dərsin bu mərhələsini motivasiya adlandırırıq? Psixoloji amil kimi motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici, təhrikedici qüvvədir. Motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran amil kimi çıxış edir.

Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmənin sərbəstliyi və müstəqilliyidir: Uşaq öz fikrini "Zənnimcə...", "Mənə belə gəlir ki,...", "Mən belə hesab edirəm ki,..." sözlərindən istifadə etməklə ifadə edir.

Problemin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan

tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Buna - şagirdləri irəli sürülmüş problemin həllinə məqsədyönlü şəkildə aparan, özündə yeni informasiyanı və yeni sualları daşıyan müxtəlif çalışmalar kömək etməlidir. Məhz yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.

Tədqiqat müxtəlif formalarda: bütün siniflə birgə, kiçik qruplarda, cütlük şəklində və ya fərdi şəkildə aparıla bilər. Lakin, interaktiv təlim anlayışının özü ənənəvi təlimdə tətbiq edilən frontal və ya fərdi formalarla müqayisədə daha fəal iş formalarının mövcudluğunu özündə ehtiva edir. Təlimin interaktiv xarakteri kiçik qruplarda və ya cütlük şəklində aparılan işlərdə daha qabarıq formada təzahür edir.

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştrakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Məhz bu mərhələdə yeni bir tələbat - həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

Bu, ən mürəkkəb mərhələdir və bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Müəllim fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır.

Beləliklə, şagirdlərə yeni bilginin kəşfi yolunda son addımı atmaq: konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaq işi qalır. Bunun üçün şagird nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə (bu nəticə həmin suala cavab verirmi?) və irəli sürülmüş fərziyyələrlə (onların arasında düzgün olanı varmı?) müstəqil olaraq tutuşdurmalıdır. Bu çox mühüm məqamdır. Dərsin kuliminasiyasını bilikləri məhz uşaqların özləri axtarıb tapdıqları, kəşf etdikləri üçün onların duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

Yuxarıda göstərildiyi kimi, interaktiv təlimin mühüm xüsusiyyətlərindən biri şagirdlərin müstəqil təlim (öyrənməyi öyrənmək), müstəqil özünüinkişaf, müstəqil düşünmə bacarıq və vərdişlərinə yiyələnməsinə imkan yaratmaqdır. Dərs başa çatdıqdan sonra göstərilmiş fəaliyyətlərdən birini - qiymətləndirmə və ya refleksiyanı həyata keçirərkən müstəqil öyrənmə proseslərinin nəzərdən keçirilməsi və bunun nəticəsində öz öyrənmə fəaliyyətinin təkmilləşdirilməsi məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işi effektivlik dərəcəsinə görə həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər və bu müxtəlif metodlarla və müxtəlif formalarla həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır.

Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin qarşısında şagirdlərin özlərinə qiymətverməsi təcrübəsindən, habelə qarşılıqlı qiymətləndirmədən istifadə etmək olar. Bundan əlavə, qiymətləndirmə meyarlar üzrə aparılmalıdır, yəni konkret meyarlara əsaslanmalıdır. Müəllim şagirdləri öncədən bu meyarlarla tanış edə və ya qiymət verməklə onu əsaslandıra bilər.

İnteraktiv dərsin mərhələlərinə müvafiq nəticələrin dəyərləndirilməsi:

İnteraktiv metodla aparılan dərsin quruluşunu ümumi, sistemli şəkildə qavramaq üçün və dərsi apararkən onun məqsədəuyğun olub-olmadığını müəyyən etmək üçün müəyyən

pedaqoji meyarlar da lazımdır. «Hər mərhələdə əsas hadisələr hansılardır?» və «Hər mərhələnin nəticəsində nə alınmalıdır?» sualları məhz bu meyarlar kimi çıxış edə bilər.

Ədəbiyyat

1. Əzizov T.X., Xaliqov A.S. Fizikanın ədrisində fəal və interaktiv təlim metodlarının tətbiqi (VII sinif üçün metodik vəsait). Bakı, Azərnəşr. 2007
2. Mehrabov A.O. və başqaları. "Pedaqoji texnologiyalar". Bakı, 2012
3. İsmayılov İ.N. "Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları". Bakı, 2012
4. Murğuzov M., R.Abdurazaqov., S.Abdullayev., N.Əliyev. "VII – VIII sinif fizika dərslikləri". Bakı, 2005

İNTERAKTİV TƏLİM METODU İLƏ KEÇİLƏN DƏRSLƏRİN MƏRHƏLƏLƏRİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Quliyev M.S., Hümbətova G.E.

Xülasə

Yuxarıda göstərildiyi kimi, interaktiv təlimin mühüm xüsusiyyətlərindən biri şagirdlərin müstəqil təlim (öyrənməyi öyrənmək), müstəqil özünüinkişaf, müstəqil düşünmə bacarıq və vərdişlərinə yiyələnməsinə imkan yaratmaqdır.

Dərs başa çatdıqdan sonra göstərilmiş fəaliyyətlərdən birini - qiymətləndirmə və ya refleksiyanı həyata keçirərkən müstəqil öyrənmə proseslərinin nəzərdən keçirilməsi və bunun nəticəsində öz öyrənmə fəaliyyətinin təkmilləşdirilməsi məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işi effektivlik dərəcəsinə görə həm kəmiyyət, həm də keyfiyyətcə qiymətləndirilə bilər və bu müxtəlif metodlarla və müxtəlif formalarla həyata keçirilə bilər. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır.

ЭТАПЫ И ХАРАКТЕРИСТИКИ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ

Гулиев М.С. Гумбатова Г.Е.

Резюме

Как уже упоминалось выше, одной из важных особенностей интерактивного обучения является предоставление учащимся возможности научиться самостоятельному обучению (обучению учиться), самостоятельному саморазвитию, самостоятельному мышлению, навыкам и привычкам.

В конце урока было бы полезно проанализировать самостоятельные процессы обучения при проведении одного из видов деятельности - оценивания или рефлексии, и в результате улучшить собственную учебную деятельность. Иногда оценивание и размышление могут быть включены в разные этапы урока, что, в свою очередь, помогает процессу обучения быть более успешным.

Работу студентов можно оценивать как количественно, так и качественно по степени результативности, причем делать это можно разными способами и в разных формах. Однако учитель должен помнить, что оценивание должно быть прежде всего средством самооценки и самоконтроля ученика.

STAGES AND CHARACTERISTICS OF INTERACTIVE LEARNING METHODS

Quliyev M.S., Humbatova G.E.

Summary

As mentioned above, one of the important features of interactive learning is to provide students with the opportunity to learn independent learning (learning to learn), self-development, independent thinking, skills and habits

At the end of the lesson, it would be useful to analyze independent learning processes when conducting one of the activities - assessment or reflection, and as a result improve your own learning activities. Sometimes assessment and reflection can be included at different stages of the lesson, which in turn helps the learning process to be more successful.

The work of students can be evaluated both quantitatively and qualitatively in terms of the degree of effectiveness, and this can be done in different ways and in different forms. However, the teacher must remember that assessment should be primarily a means of self-assessment and self-control of the student.

DAYANIQLI KİMYƏVİ QRUPLARIN YARANMASINI AŞKAR EDƏN İNFRAQIRMIZI SPEKTROSKOPİYA (İQS) ÜSULU

Seyidova İ.A.
Gəncə Dövlət Universiteti
dursun.adil@mail.ru

Açar sözlər: polimerlər, infraqırmızı spektroskopiya, rezonans
Key words: polymers, infrared spectroscopy, resonance
Ключевые слова: полимеры, инфракрасная спектроскопия, резонанс

Polimerlərin fiziki – kimyəvi xassələrini öyrənərkən məlum olur ki, bir sıra xarici təsirlər nəticəsində həm karbozəncir və həm də heterezəncir makromolekulların quruluşunda müəyyən dəyişikliklər baş verir. Belə dəyişmələr *infraqırmızı spektrlərdə* özlərini göstərirlər. Daha sonra tədqiqatlar nəticəsində məlum oldu ki, mexaniki təsir nəticəsində polimerdə baş verən dəyişiklik, termo və foto təsirlər nəticəsində baş verən dəyişikliklər ilə eynidir, yəni bunlar arasında müəyyən analoğiya vardır. Hal – hazırda termo və foto destruksiyaya aid kifayət qədər tədqiqat işləri mövcuddur.

Lakin belə bir icmaldan qabaq xarakterik rəqslər anlayışı ilə tanış olmaq lazımdır. Çünki bizi maraqlandıran məsələlərin həlli xarakterik tezliklərə uyğun gələn udma zolaqlarının tədqiqindən asılıdır.

Mürəkkəb molekulların rəqsi hərəkətinə aid məsələlərin həllində bir çox aydın olmayan suallar meydana çıxır. Beləki, hətta ən müasir riyazı üsulların köməyi ilə də belə mürəkkəb molekulyar rəqslərin analizini vermək mümkün deyildir. Ona görə də əksər hallarda infraqırmızı spektrlər müqayisə yolu ilə öyrənilir və nəzəriyyədən alınan nəticələr daha sadə molekullara ekstropolyasiya edilirlər. Buna baxmayaraq, udma zolaqlarının ayrı – ayrı əlaqələrdə lokallaşmış valent və deformasiya rəqsləri nəticəsində yarandığını qəbul etsək bəzi ümidverici ümumiləşmələr apara bilərik.

Xarakteristik rəqslər anlayışı çoxatomlu molekullar nəzəriyyəsinin ən mühüm anlayışlarından birisidir. Beləki, tezliyə görə xarakteristik olan rəqslərin movcudluğu spektroskopiyada kimyəvi tədqiqatlarda çox mühüm rol oynayır. Lakin xarakteristik rəqslərdən istifadə olunan məsələlərdə daha çox səhvlərə yol verildiyini qəbul etmək lazım gəlir. Məsələn, belə bir fikir söylənilir ki, spektrdə udma zolaqlarının vəziyyətinin dəyişməsi ona uyğun gələn kimyəvi qrupun quruluşunun dəyişməsini göstərir. Digər tərəfdən məlumdur ki, hər hansı kimyəvi qrupun bir molekuldan digərinə keçməsi zamanı zolağın yerdəyişməsi

qrupun quruluşunun tam sabit qalması ilə də baş verə bilər. Buradan aydın olur ki, xarakteristik rəqslər haqqında dəqiq aydınlıq olmalıdır.

Əgər molekulun hər hansı bir normal rəqsi verfilmiş kimyəvi qrupun normal rəqsi ilə tezliyə görə üst – üstə düşərsə belə rəqslər verilmiş qrupun tezliyə qörə xarakteriastik rəqsi adlanır. Əgər molekulun hər – hansı bir normal rəqsinin forması verilmiş kimyəvi qrupun normal rəqslərindən birinin forması ilə eyni olarsa belə rəqslər verilmiş qrupun formaca *xarakteristik rəqsi* adlanır. Xarakteristik tezliyə uyğun gələn udma zolaqlarının intensivliyinin dəyişməsinə görə, müxtəlif xarici təsirlər nəticəsində (istilik, şüalanma, müxaniki təsir və s.) maddənin kimyəvi quruluşunun dəyişməsi, molekulyar çəkinin və basqa fiziki – kimyəvi parametrlərin dəyişməsi haqqında müəyyən nəticələrə gəlmək mümkündür.

Polimer nümunələrin infraqırmızı spektrlərini əldə etmək üçün UR – 10, JKS – 14A prizmalı və DS - 403G difraksiya qəfəsli spektrofotometrlərdən istifadə edilmişdir. Bu cihazlar iki kanallıdır və konpensasiya prinsipinə görə işləyirlər.

Prizmalı cihaz olan UR – 10 udulma spektrlərini 400sm $^{-1}$ – 5000sm^{-1} (25mk – 2mk) buraxma oblastında göstərə bilir. Bu cihaz üç prizmadan ibarətdir. KBr (400-700 sm^{-1}), NaCl (670 – 5000sm^{-1}) və LiF (1800 – 5000sm^{-1}). Prizmaların dəyişilməsi avtomatik olaraq baş verir. Cihazın ayırdedici qüvvəsi 1000sm^{-1} oblastında 1sm^{-1} bərabərdir.

Digər bir cihaz İKS – 14A infraqırmızı prizmalı spektrofotometr maddələrin udma spektrlərini 400sm^{-1} – 1333sm^{-1} (25 – 0,75mkm) oblastında qeyd etmək üçün nəzərdə tutulmuşdur. Bu cihaz da iki kanallıdır. Dörd prizmaya malikdir. KBr, NaCl, LİF və $\phi - 1$. Bu prizmaların dəyişməsi mexaniki surətdə, yəni əl ilə dəyişilir. İKS – 14A cihazının xətası 10000sm^{-1} oblastında 3-4 sm^{-1} aədərdir.

